RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 104 (9271) 19 MAY 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# El yurda qayıdır



## Həsrətin vüsala çevrildiyi növbəti ünvan Laçın olacaq

**Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin birbaşa nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə başladılan yenidənqurma və bərpa işləri sürətlə davam edir. Xatırladaq ki, ölkə rəhbəri müharibədən ötən qısa müddətdə keçmiş məcburi köçkünlərin tezliklə öz doğma yurdlarına qayıdacaqlarını bildirmişdir.**

Üç ilə yaxın müddətdə Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərlə bağlı imzaladığı sərəncamlar, görüləcək işlərə ayrılan vəsaitlər də göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası, dirçəlişi, vətəndaşların bu ərazilərə tezliklə köçürülməsi dövlət siyasətinin prioritet istiqamətidir.

→ 5

## Azərbaycanın keçdiyi inkişaf yolu bir nümunədir



Azərbaycan Prezidenti İlham Əliyev Cənubi Afrika Respublikası Milli Assambleyasının sədrini qəbul edib

→ 2

## Azərbaycan beynəlxalq təşəbbüslərdə fəal iştirak edir



Prezident İlham Əliyev Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibini qəbul edib

→ 2

## Ordumuzun Ermənistan mövqelərini atəşə tutması barədə məlumat yalandır

**Mayın 18-i guya Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin bölmələrinin minaatanlardan atəşə tutulması barədə qarşı tərəfin yaydığı məlumat yalandır.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

"Bunu qəti surətdə təkzib edirik", - məlumatda qeyd edilib.

## Ümummilli Liderin adına layiq

Azərbaycanda aqrar sahənin inkişafı birbaşa Ulu Öndərin adı ilə bağlıdır. Təkcə sovetlər zamanında deyil, müstəqillik dövründə də Ümummilli Lider kəndliyə torpaqdan, xüsusilə əkinçiliyin "qızıl fondu" sayılan suvarılan torpaqlardan daha səmərəli istifadə etməyin yollarını, forma və üsullarını, kənd təsərrüfatını daha sürətli inkişaf etdirməyin mümkünlüyünü öyrətmişdi.

Sərginin smart bölmələri kənd təsərrüfatında tətbiq olunan innovativ texnologiyalar, kənd təsərrüfatı təyinatlı texnikalar, müasir suvarma sistemləri, elektron kənd təsərrüfatı, istixana bölmələri, eləcə də pilotsuz uçuş aparatları, IT xidmətləri, əşyaların interneti, süni intellekt, alternativ enerji mənbələrindən ibarətdir. Bu baxımdan sərginin fəaliyyət göstərdiyi ötən gün Kənd Təsərrüfatı Nazirliyinin təmsil olunduğu pavilyonda Heydər Əliyevin 100 illiyinə həsr edilmiş təqdimat xüsusilə diqqət çəkdi. Həmin pavilyonda elmi-tədqiqat institutlarının ən son uğurları, Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı və təşəbbüsü ilə keçirilmiş bir sıra startap müsabiqələri qaliblərinin məhsulları, "yaşıl enerji" mənbələrinə dair qurğu və məhsullar da nümayiş olunurdu.

→ 6




## Sülh müqaviləsi imzalansa da, imzalanmasa da qazanan Azərbaycandır

Bakı 44 günlük müharibədə yaratdığı reallıqları öz milli maraqlarına uyğun daha da gücləndirib

→ 7

## Azərbaycana qarşı istənilən təhdid iflasa məhkumdur

44 günlük müharibə zamanı da fars rejimi bizim qarşımızda, düşmənimizin yanında oldu, ona hər cür yardım göstərdi. Vətən müharibəsindən sonra isə açıq düşmənçiliyə keçən İran Azərbaycana qarşı təxribatçı əməllərə, terrora əl atdı.

→ 7

## Qərbi Azərbaycan İcmasının bəyanatları beynəlxalq təşkilatlar tərəfindən maraqla qarşılanır

Azərbaycan dövləti soydaşlarımızın hüquqlarını təmin etmək üçün lazımi tədbirlər görür

→ 7

# Güc və söz sahibi

## Türkiyə hərbi sənayesi inqilabi yenilikləri ilə dünyaya meydan oxuyur




**Siyasi-iqtisadi və hərbi gücünə görə dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilən Türkiyə müasir dünyanın reallıqları fonunda gündən-günə gücünə güc qatır.**

Buna baxmayaraq, qardaş ölkə dördüncü sənaye inqilabının tələblərinə uyğun müasir texnalogiyaların yaradılması və hərbi sənayenin potensialının daha da modernləşməsi, gücləndirilməsi istiqamətində mühüm addımlar atır. Xüsusən də hərbi gücünü daha da qüdrətləndirən Türkiyə bu sahədə inqilabi yeniliklərə imza atır.

Türkiyə hərbi sənayesinin inkişafını görmək üçün son 5 ilə nəzər salmaq kifayət edir. Ölkəmizin İkinci Qarabağ müharibəsində öz sözünü deməsi Türkiyə hərbi sənayesinin inkişafının göstəricisidir. Türkiyə NATO üzvü olan ölkələr arasında ABŞ Silahlı Qüvvələrindən sonra ən böyük ikinci hərbi gücdür və NATO-nun nüvə paylaşma siyasətinin bir hissəsi olan beş ölkədən biridir.

Bu gün Türkiyə ölkənin müdafiə sənayesinin inkişafı, hərbi qüdrətinin artırılması istiqamətində mühüm proqramlar həyata keçirməkdədir. Hazırda qardaş ölkə müdafiə imkanlarını 80 faiz öz məhsulları ilə təmin edir. Türkiyə öz SİHA-ları (silahlı pilotsuz uçuş aparatlar) ilə dünyada ilk üç dövlətdən biridir.

→ 4

# Azərbaycanın keçdiyi inkişaf yolu bir nümunədir

## Azərbaycan Prezidenti İlham Əliyev Cənubi Afrika Respublikası Milli Assambleyasının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri Nosivive Mapisa-Nqakulanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Nosivive Mapisa-Nqakulanın rəhbərlik etdiyi nümayəndə heyətinə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi və bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.

Azərbaycan Prezidenti ilə görüşməkdən və Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etməkdən şərəf hissi duyduqlarını bildirən Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə etdi.

Qonaq Ulu Öndərin 100 illiyi münasibətilə keçirilən tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək burada müxtəlif ölkələrdən nümayəndə heyətlərinin bir-biri ilə görüşməsi və fikir mübadiləsi aparması üçün də yaxşı imkanın yarandığını bildirdi.

Dövlət başçısının Ümummilli Liderin siyasətini uğurla davam etdirdiyini vurğulayan Nosivive Mapisa-Nqakula Ulu Öndərin Azərbaycan tarixində müstəsna rol oynayan böyük şəxsiyyət və Lider olduğunu qeyd etdi, ölkəmizin inkişafında onun müstəsna rolunu vurğuladı. Qonaq dedi ki, Azərbaycanın keçdiyi inkişaf yolu bir nümunədir.

Prezident İlham Əliyev qeyd etdi ki, dövlətçiliyimizin qurucusu olan Ulu Öndər ölkəyə rəhbərliyə gəldiyi dövrdə Azərbaycan çox ağır vəziyyətdə idi. Məhz Ümummilli Liderin güclü iradəsi və yorulmaz səyləri nəticəsində Azərbaycan çətin vəziyyətdən çıxaraq inkişaf yoluna qədəm qoyub.

Söhbət zamanı ikitərəfli əlaqələrin genişlənməsinin vacibliyi vurğulandı, əməkdaşlıq üçün yaxşı potensialın olduğu qeyd edildi, kənd təsərrüfatı, enerji, turizm, təhsil sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

Görüşdə Azərbaycan və Cənubi Afrika Respublikasının beynəlxalq təşkilatlar, həmçinin Qoşulmama Hərəkatında uğurlu əməkdaşlığı qeyd edildi.

# Azərbaycan beynəlxalq təşəbbüslərdə fəal iştirak edir

## Prezident İlham Əliyev Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi xanım Njupuo Yap Mariatunu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Njupuo Yap Mariatunun Azərbaycana səfərinin ölkəmizin Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə əməkdaşlığının genişlənməsi işinə töhfə verdiyini və əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını qeyd etdi.

Njupuo Yap Mariatu, ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Fövqəladə Hallar Nazirliyinin təşkil etdiyi əməliyyat-taktiki təlimdə fəxri qonaq qismində iştirak etməkdən məmnunluğunu bildirdi.

Heydər Əliyevin görkəmli dövlət xadimi və siyasətçi olduğunu vurğulayan Mülki Müdafiə Təşkilatının Baş katibi Prezident İlham Əliyevin ölkədə sabitliyin və dinamik inkişafın təmin edilməsi ilə onun siyasətini uğurla davam etdirdiyini dedi. Dövlətimizin başçısının regionda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində fəaliyyətini yüksək qiymətləndirdiklərini deyən qonaq qeyd etdi ki, bu, Prezident İlham Əliyevin Azərbaycan və region üçün verdiyi dəyərli töhfədir. Njupuo Yap Mariatu Azərbaycanın Türkiyədə baş verən zəlzələ zamanı göstərdiyi köməyin təşkilat tərəfindən yüksək dəyərləndirildiyini diqqətə çatdırdı.



Dövlətimizin başçısı Türkiyənin Kahramanmaraş şəhərində Azərbaycan tərəfindən 1000 evin tikintisi ilə bağlı məlumat verdi.

Qonaq qeyd etdi ki, Azərbaycan 1993-cü ildən Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvü olaraq mülki müdafiə ilə bağlı məsələlərin təşviqi məqsədi daşıyan təşəbbüslərdə fəal iştirak edən ölkələrdən biridir və təşkilatın potensialının gücləndirilməsi proqramları çərçivəsində əməkdaşlığa töhfə verir. Njupuo Yap Mariatu Baş Assambleyanın 2022-ci ildə keçirilmiş sonuncu sessiyasında Azərbaycanın yenidən 4 il müddətinə İcraiyyə Şurasının üzvü seçilməsini məmnunluqla vurğuladı.

O, səfərinin əməkdaşlığımızın daha da inkişaf etməsinə və güclənməsinə təkan verəcəyinə əminliyini bildirdi.

Azərbaycan Prezidenti Vətən müharibəsi dövründə ermənilər tərəfindən mülki şəxslərimizə qarşı ballistik raketlərin atıldığını, dinc sakinlərimizin qətlə yetirildiyini, eyni zamanda energetika obyektlərimizə də hücumların olduğunu qeyd etdi. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı yenidənqurma işləri barədə məlumat verdi.

Dövlət başçısı COVID-19 pandemiyası zamanı ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına göstərdiyi dəstəyi xatırladı, bunu Azərbaycanın beynəlxalq təşəbbüslərdə fəal iştirak etməsinin daha bir nümunəsi olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Afrika ölkələri ilə sıx əməkdaşlıq əlaqələri qurduğunu qeyd etdi.

Söhbət zamanı iqlim dəyişiklikləri barədə fikir mübadiləsi aparıldı.

Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

## "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında" 2023-cü il fevralın 24-də Daşkənd şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2023-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" 2023-cü il fevralın 23-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2023-cü il*

# Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin görüşü keçirilib

**Mayın 18-də Azərbaycan Respublikasının sədrliyi ilə Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin videokonfrans formatında növbəti görüşü keçirilib.**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

The Non-Aligned Movement

AZƏRTAC Səhiyyə Nazirliyinin Mətbuat xidmətinə istinadla bildirir ki, nazir Teymur Musayevin moderatorluğu ilə keçirilən videokonfrans Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası ərəfəsində Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin qlobal səhiyyə problemləri və onların müvafiq həll yollarını müzakirə etmək məqsədilə təşkil olunub.

Öz çıxışında Azərbaycanın səhiyyə naziri qeyd edib ki, Ümumdünya Səhiyyə Assambleyasının sessiyası ərəfəsində Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin görüşünün təşkil olunması ənənə halını alıb. "Bu, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ictimai səhiyyədə beynəlxalq narahatlıq yaradan COVID-19-la bağlı fövqəladə vəziyyətin yekunlaşdığını elan etdiyindən sonra Ümumdünya Səhiyyə Assambleyasının ilk sessiyası olacaq", - deyə nazir vurğulayıb.

Teymur Musayev 2020-ci ilin əvvəlində dünya ölkələrinin COVID-19 pandemiyasına məruz qaldığı dövrdə Azərbaycanın Hərəkata sədrliyinə məsuliyyətlə yanaşmasını diqqətə çatdırıb. O, Azərbaycanın pandemiya ilə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün bir sıra təşəbbüslər irəli sürdüyünü deyib: "Azərbaycan 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürdü. Zirvə toplantısında məlumat bazası hazırlamaq üçün Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılması qərara alındı. ÜST pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin ehtiyaclarını müəyyən etmək üçün bu məlumat bazasına istinad edib.

Prezident İlham Əliyevin təklifinə əsasən, 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş, dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası təşkil olundu. Həmçinin COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun növbəti Zirvə görüşü bu il martın 2-də Azərbaycanın paytaxtında əyani iştirakla uğurla keçirilib".

Öz çıxışlarında Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirləri qeyd ediblər ki, Azərbaycanın sədrliyi dövründə təşkilatın beynəlxalq arenada rolu və nüfuzu əsaslı şəkildə artıb, bu mühüm platforma çərçivəsində ölkələr arasında çoxtərəfli əməkdaşlıq yeni səviyyəyə çatdırılıb. Onlar həmçinin qlobal pandemiya böhranından sonrakı dövrdə infrastrukturun və xidmətlərin təkmilləşdirilməsinin vacibliyini vurğulayıblar.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli cənab Prezident!

Sizi əlamətdar yubiley - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Heydər Əliyev dünya tarixinə Azərbaycan xalqının ümidlərini doğruldan və arzularını həyata keçirən görkəmli siyasi xadim, müasir Azərbaycan dövlətinin banisi kimi daxil olub. O, doğma xalqının layiqli övladı kimi yeni Azərbaycanın - çiçəklənən və qüdrətli respublikanın inkişafının bünövrəsini qoyub.

Heydər Əliyevin Vyetnam və Azərbaycan arasında dostluq münasibətlərinin inkişafına verdiyi böyük töhfəni minnətdarlıqla qeyd etmək istəyirəm. Bu il biz Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində Vyetnama səfərinin 40 illiyini qeyd edirik. Səfər çərçivəsində həmin vaxt Vyetnamın ən iri infrastruktur obyekti - Txanq Lonq körpüsü açılıb. Yüzlərlə azərbaycanlı mütəxəssis neft hasilatı sənayesinin qurulmasına kömək üçün Vyetnama göndərildi, minlərlə vyetnamlı Heydər Əliyevin Vyetnama səfərindən sonra Bakıda təhsil almağa gəldi.

Tam əminəm ki, Heydər Əliyevin əsasını qoyduğu irsin davamı kimi, Vyetnam və Azərbaycan rəhbərlərinin dəstəyi, həmçinin Vyetnam səfirliyi əməkdaşlarının səyləri ilə bizim ənənəvi dostluğumuz və çoxtərəfli əməkdaşlığımız daha yüksək inkişaf səviyyəsinə çatmaq üçün yeni impuls qazanacaq.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və uğurlar, bütün Azərbaycan xalqına isə əmin-amanlıq, sülh, tərəqqi və müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Danq Min XOY,***
***Vyetnam Sosialist Respublikasının***
***Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri***

Zati-aliləri, möhtərəm cənab Prezident!

Müstəqil Azərbaycan Respublikasının qurucusu Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə dost və qardaş Azərbaycana və onun xalqına, Zati-alinizə, bütün əziz dostlarınıza ən səmimi təbriklərimizi yetirir, rifah, xoşbəxtlik və əbədi firavanlıq arzulayırıq. Biz bosniyalılar Zati-alinizin xalqlar arasında sülh, ədalət, bərabərlik və əmin-amanlığı bərqərar etmək üçün göstərdiyi səyləri yüksək qiymətləndirir və alqışlayırıq. Bütün mənalı ömrünü xalqının tərəqqisinə həsr edən möhtərəm Heydər Əliyevin uzaqgörənliyi, əzmkarlığı və qətiyyəti Azərbaycanın müstəqilliyini möhkəmləndirdi. Müasir müstəqil Azərbaycanla fəxr edir, onun gələcəyinin daha parlaq olacağına inanırıq.

Zati-alinizə xeyir və bərəkət arzulayıram. Dahi insan, uzaqgörən lider Heydər Əliyevin xatirəsini onun 100 illik yubileyi günlərində ehtiramla yad edirik.

*Dərin hörmət və ehtiramla,*

***Nedzad QRABUS,***
***Bosniya və Herseqovinanın***
***İslam İcmasının müftisi***

# Moskvada Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsi üzrə danışıqların növbəti raundu keçiriləcək

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov mayın 18-də Rusiya Federasiyasına işgüzar səfərə yola düşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib. Səfər çərçivəsində mayın 19-da Azərbaycanla Ermənistan arasında "sülh sazişi" layihəsi üzrə danışıqların növbəti raundunun keçirilməsi nəzərdə tutulub.

# Nazirlər Kabineti Ulu Öndərin 100 illiyinə həsr olunmuş kitab-albomu təqdim edib

**Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş kitab-albom nəşr edilib.**




AZƏRTAC xəbər verir ki, Azərbaycan və ingilis dillərində buraxılmış kitab-albomda Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif məqamlarını əks etdirən fotolar yer alıb.

Nəfis tərtibatlı kitab-albom Ümummilli Lider Heydər Əliyevin "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub" fikirləri ilə açılır. Nəşrdə yer alan yüzlərlə foto Ulu Öndərin kəlamları ilə müşayiət olunur.

Nəşrin tərtibatçıları vurğulayırlar ki, Heydər Əliyev Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri sırasında xüsusilə seçilən böyük dövlət xadimidir. O, dərin zəkası və sarsılmaz iradəsi sayəsində ən müxtəlif tarixi dövr və şəraitlərdə müstəsna idarəçilik bacarığı nümayiş etdirib, Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlər göstərib.

1969-1982-ci illərdə Azərbaycanın geridə qalmış respublikadan əsl mənada çiçəklənən diyara çevrilməsi Heydər Əliyevin adı ilə bağlıdır. 1982-1987-ci illərdə o, SSRİ-nin ali rəhbərliyində ən görkəmli simalardan biri olub. 1991-ci ildə Azərbaycan Respublikasının suverenliyinin elan edilməsi ilə Heydər Əliyevin siyasi fəaliyyətinin yeni mərhələsi başlayır. Müstəqilliyin ilk illərində iqtisadi tənəzzül, Ermənistanın hərbi təcavüzü, dövlət idarəçiliyinin iflic vəziyyətə düşməsi ilə müşayiət olunan dərin siyasi böhran şəraitində xalqın Heydər Əliyevin hakimiyyətə qayıtmasına dair çağırışları 1993-cü ildə onun Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə nəticələndi.

Gənc müstəqil respublikaya ən ağır zamanlarda 10 il uğurla rəhbərlik edən dahi şəxsiyyət Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisi sayılır. Onun həyatı və zəngin siyasi fəaliyyəti Azərbaycanın milli dirçəlişinin və müstəqil dövlət quruculuğunun parlaq təcəssümüdür.

Qeyd edək ki, müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvəti hesab olunur. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir. Nazirlər Kabinetinin nəşr etdiyi kitab-albom da məhz həmin məram xidmət edir.

# FHN ilə Beynəlxalq Mülki Müdafiə Təşkilatı arasında əməkdaşlıq münasibətlərinin inkişafı müzakirə olunub

## Beynəlxalq Mülki Müdafiə Təşkilatı Azərbaycan Fövqəladə Hallar Nazirliyinin Akademiyasına xüsusi trenajor kompleksləri verib





**Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun dəvəti ilə Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) Baş katibi xanım Njupuo Yap Mariatunun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**



Bu barədə AZƏRTAC-a Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən məlumat verilib.

Mayın 18-də qonaqlar əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsinə ehtiram ifadə edib, məzarları üzərinə güllər düzüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Daha sonra nazir general-polkovnik Kəmaləddin Heydərov Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi xanım Njupuo Yap Mariatunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan nazir Kəmaləddin Heydərov ölkəmizdə fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması məqsədilə görülən işlər, habelə nazirliyin fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verib. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdrik rəhbərliyi ilə 44 gün ərzində Azərbaycanın şanlı ordusu tərəfindən Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı dədə-baba torpaqlarımızın azad edildiyini, ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğunu qürur hissi ilə qeyd edən nazir Fövqəladə Hallar Nazirliyinin qüvvələri tərəfindən işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən minatəmizləmə fəaliyyəti barədə danışıb.

Nazir Azərbaycanın 1993-cü ildən üzvü olduğu Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə əlaqələrinin yüksək səviyyədə olduğunu məmnunluqla xatırladaraq münasibətlərin daha da genişlənməsinə yeni təkan verən 2018-ci ildə Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Beynəlxalq Mülki Müdafiə Təşkilatı arasında informasiya mübadiləsi Reqlamenti"ni qeyd edib. Əməkdaşlıq münasibətləri çərçivəsində BMMT tərəfindən Fövqəladə Hallar Nazirliyinin Akademiyasına xüsusi trenajor komplekslərinin, o cümlədən bir sıra təlim-məşq avadanlıqları və laborator cihazlarının verilməsinə görə xanım Njupuo Yap Mariatuya təşəkkür edib. Nazir həmçinin Beynəlxalq Mülki Müdafiə Təşkilatının xətti ilə FHN-in Akademiyasında regional və beynəlxalq təlimlərin, seminar və treninqlərin keçirilməsi üçün perspektivlərin nəzərdən keçirilməsini təklif edib.

Səmimi görüşə görə təşəkkür edən Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi xanım Njupuo Yap Mariatu rəhbərlik etdiyi təşkilat tərəfindən görülən işlər barədə ətraflı məlumat verib. Azərbaycan Respublikasının BMMT-nin dəyərli üzvü olduğunu bildirən qonaq münasibətlər çərçivəsində Fövqəladə Hallar Nazirliyinin fəaliyyətini qeyd edib, bu kontekstdə 2013-cü ildə Qəbələ şəhərində keçirilmiş "Mülki müdafiə və əhalinin fəlakət riskinin qarşısının alınmasına hazırlanması" mövzusunda beynəlxalq konfransı xatırladıb. Xanım Njupuo Yap Mariatu BMMT-nın Baş Assambleyasının ötən ilin noyabrında keçirilmiş sessiyasında Azərbaycanın təşkilatın İcraiyyə Şurasına növbəti 4 il üçün yenidən üzv seçilməsinin əhəmiyyətini vurğulayıb. Əməkdaşlıq münasibətlərinin inkişafının hər iki tərəf üçün faydalı olduğunu qeyd edən qonaq bu məqsədlə qarşılıqlı səfərlərin, birgə təlim və seminarların mühüm töhfə olduğunu dilə gətirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər geniş müzakirə edilib.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 159 QƏRAR Bakı şəhəri, 17 may 2023-cü il

**"Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamənin və Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Tibbi sığorta haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 654-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197; 2003, № 6, maddə 342; 2006, № 9, maddə 822, № 11, maddə 989; 2008, № 2, maddələr 116, 125, № 9, maddə 853, № 10, maddə 928; 2009, № 6, maddə 491; 2010, № 8, maddə 764; 2011, № 6, maddə 566; 2012, № 1, maddə 36, № 5, maddə 488, № 12, maddə 1352; 2013, № 5, maddə 576, № 7, maddə 876, № 8, maddə 998, № 10, maddə 1211, № 11, maddə 1463; 2016, № 4, maddə 778, № 5, maddə 965; 2017, № 2, maddələr 276, 299, № 5, maddələr 978, 982; 2018, № 5, maddə 1120, № 11, maddə 2443, № 12 (II kitab), maddə 2737; 2019, № 1, maddə 154, № 3, maddə 569, № 12, maddə 2094; 2020, № 10, maddə 1291; 2021, № 4, maddə 411, № 7, maddə 881; 2022, № 4, maddə 385, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə"yə 4 nömrəli əlavə - "Avadanlığın təxmini siyahısı"nın "II. AVTOMOBİL NƏQLİYYATI VASİTƏLƏRİNİN İSTİSMARININ ƏSASLARI KABİNETİ (SİNFİ)"nin 6-cı hissəsində "mal-nəqliyyat" sözləri "elektron əmtəə-nəqliyyat" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan və Xorvatiya dost ölkələrdir



**Mayın 18-də Milli Məclisin Sədri Sahibə Qafarova parlamentin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün Azərbaycanda səfərdə olan Xorvatiya Respublikası parlamentinin Sədr müavini Davorko Vidoviç ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova dəvəti qəbul edib səfərə gəldiyinə və xüsusi iclasda iştirakına görə Davorko Vidoviçə təşəkkürünü bildirib. O, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin misilsiz xidmətləri barədə danışaraq deyib ki, Ulu Öndər Heydər Əliyev görkəmli dövlət xadimi və siyasi xadim olmaqla yanaşı, xalqının taleyini dəyişdirən böyük lider, əvəzolunmaz şəxsiyyətdir. Heydər Əliyev erası Azərbaycanda quruculuq, inkişaf, sabitlik, tərəqqi və müstəqillik dövrü kimi xarakterizə olunur.

Görüşdə bildirilib ki, Azərbaycan və Xorvatiya dost ölkələrdir. Ölkələrimizi strateji tərəfdaşlıq münasibətləri birləşdirir. Qarşılıqlı səfərlər münasibətlərimizin daha da inkişafına xidmət edir. Bu mənada dövlət başçıları səviyyəsində həyata keçirilən səfərlərin və görüşlərin xüsusi əhəmiyyəti qeyd olunub.

Ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərin də rolu qeyd edilərək bildirilib ki, hər iki ölkənin qanunverici orqanlarında dostluq qrupları fəaliyyət göstərir. Parlamentarilərimiz arasında təmasların artması münasibətlərin daha da dərinləşməsinə töhfə verə bilər.

Milli Məclisin Sədri Sahibə Qafarova regionda baş verən hadisələr, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri barədə də məlumat verib.

Xorvatiya parlamentinin Sədr müavini səfərə dəvətə və göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. Dost Azərbaycanda olmaqdan məmnunluqlarını bildirən Davorko Vidoviç ölkəsinin Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduğunu vurğulayıb. O, ölkəmizə səfəri çərçivəsində Xarici İşlər və İqtisadiyyat nazirliklərində görüşlər keçirdiyini, ictimai xidmətlər sektorunda Azərbaycan brendi olan "ASAN xidmət"lə tanış olduğunu, Ermənistanın işğalından azad olunmuş Ağdama səfər etdiyini bildirib və təəssüratlarını bölüşüb. Qonaq deyib ki, Xorvatiya minalardan əziyyət çəkən ölkə kimi minatəmizləmə sahəsində təcrübəyə malikdir.

Görüşdə Azərbaycanla Xorvatiya arasında müxtəlif sahələrdə əlaqələrin inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan mühəndislik elminin perspektiv məsələləri ilə bağlı beynəlxalq forumda təmsil olunub

**Beynəlxalq Mühəndislik Akademiyasının təşkilatçılığı ilə Moskvada "Mühəndislik elminin perspektiv məsələləri" mövzusunda keçirilən XIV Beynəlxalq Elmi Forumda ölkəmizi Azərbaycan Mühəndislik Akademiyası təmsil edib.**



Akademiyadan AZƏRTAC-a bildirilib ki, hibrid formatda keçirilən forumda 8 ölkədən, Rusiya Federasiyasının 22 regionundan 100 təşkilatın nümayəndələri iştirak ediblər.

Forumu giriş sözü ilə Beynəlxalq Mühəndislik Akademiyasının prezidenti akademik Boris Qusev açıb. Beynəlxalq tədbirdə Azərbaycan Mühəndislik Akademiyasının prezidenti akademik Arif Paşayevin "Mühəndis kadrlarının intellektual potensialı - Azərbaycanın strateji resursudur", Əhəd Canəhmədov və Maksim Cavadovun "Tribokontaktların enerji səviyyələri və materialların triboloji xüsusiyyətlərinin qiymətləndirilməsi" mövzularında məruzələri dinlənilib.

Hər iki məruzə rəğbətlə qarşılanıb və forumun məqalələr toplusunda nəşr olunması tövsiyə edilib.

Bütövlükdə topluya 65 məqalənin daxil edilməsi tövsiyə olunub.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 17-18-də Salyan Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Rayon polis şöbəsinin inzibati binasında Hacıqabul, Kürdəmir, Salyan, Şirvan şəhər və rayonlarından qəbula gələn 153 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 19-u Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 72 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

* * *

Mayın 18-də baş prokuror Kamran Əliyev Yevlax Rayon Prokurorluğunun inzibati binasında Yevlax, Bərdə, Tərtər, Goranboy, Xocalı rayon, Mingəçevir və Naftalan şəhər sakinləri, həmçinin digər bölgələrdən olan vətəndaşlarla görüşüb.

Qəbulda iştirak edən 81 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

# Tbilisidə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub

**Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev və ADA Universitetinin rektoru Hafiz Paşayev Gürcüstanda səfərdədirlər.**

AZƏRTAC xəbər verir ki, nazir Emin Əmrullayev və rektor Hafiz Paşayev Tbilisinin mərkəzindəki Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.






# ADA Universiteti ilə Gürcüstanın üç universiteti arasında əməkdaşlıq müqavilələri imzalanıb









Tbilisidə səfərdə olan Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev mayın 18-də Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ADA Universitetinin rektoru Hafiz Paşayev, Azərbaycanın bu ölkədəki səfiri Faiq Quliyev və digər rəsmi şəxslər iştirak ediblər.

Söhbət zamanı Azərbaycan ilə Gürcüstan arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Hər iki ölkədə Azərbaycan və gürcü dillərində tədris aparılan məktəblərin fəaliyyəti, bu məktəblər üçün dərsliklərin qarşılıqlı mübadiləsi də müzakirə mövzusu olub. Eyni zamanda tələbə və şagird mübadiləsinin vacibliyi vurğulanıb.

Sonda ADA Universiteti ilə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti, Gürcüstan Texniki Universiteti və Kutaisi Beynəlxalq Universiteti arasında əməkdaşlıq haqqında müqavilələr imzalanıb.

Sənədləri ADA Universitetinin rektoru Hafiz Paşayev və Gürcüstanın İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin, Gürcüstan Texniki Universitetinin, Kutaisi Beynəlxalq Universitetinin rektorları imzalayıblar.

Görüşdən sonra Emin Əmrullayev və Hafiz Paşayev Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində olublar.

# Azərbaycanın Beynəlxalq Valyuta Fonduna ehtiyacı yoxdur

## Fond Azərbaycandakı ofisinin bağlanması barədə qərar qəbul edib

**Beynəlxalq Valyuta Fondu Azərbaycandakı ofisini 2023-cü ilin iyun ayının sonunda bağlamaq haqda qərar qəbul edib.**

Fondun Yaxın Şərq və Mərkəzi Asiya Departamentindən Azərbaycanın Maliyyə Nazirliyinə ünvanlanmış məktubda belə bir qərarın verilməsinin səbəbi kimi Azərbaycanın güclü iqtisadiyyata və maliyyə ehtiyatlarına malik olması, yaxın gələcəkdə ölkəmizlə BVF arasında proqram xarakterli əməkdaşlığın gözlənilməməsidir.

Məktubda qeyd olunur ki, ofisin bağlanması BVF-nin Azərbaycanla əlaqələrini zəiflətməyəcək, Azərbaycanın inkişaf strategiyası ilə bağlı iqtisadi və maliyyə siyasətini müzakirə etmək üçün müntəzəm missiyalar təşkil edəcək, zərurət yarandıqda texniki yardım göstərəcək.

Qeyd edək ki, müstəqilliyinin ilk illərində iqtisadi sahədə də ciddi böhranlarla üz-üzə qalan Azərbaycan Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra iqtisadi inkişaf dövrünə qədəm qoydu. Ümummilli Liderin neft strategiyası uzun zamana hesablanmış böyük siyasi addım idi və bu gün onun müsbət nəticələri özünü göstərməkdədir.

AZƏRTAC ölkəmizin iqtisadi inkişafı ilə bağlı bir sıra məqamlara nəzər salır.

Təsadüfi deyil ki, 2020-ci il üzrə "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə Azərbaycan 166 ölkə arasında 54-cü pillədə qərarlaşıb. Ümumi daxili məhsul (ÜDM) 3 dəfə artıb, Azərbaycanda yoxsulluq 49 faizdən 5 faizə enib.

Azərbaycanın xarici dövlət borcu dünyada ən aşağı səviyyədədir. Bu göstəriciyə görə Azərbaycan dünyada 9-cu yerdədir. Neft ixrac edən dövlətlər arasında ən az xarici dövlət borcu olan Azərbaycandır. Azərbaycanın valyuta ehtiyatları xarici dövlət borcundan 10 dəfə çoxdur.

Dövlət başçısı çıxışlarının birində bu uğurlardan danışaraq deyib: "İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bizim valyuta ehtiyatlarımız 65 milyard dollara çatıb, xarici borcumuz 6 milyard dollardan bir qədər çoxdur. Yəni bizim valyuta ehtiyatlarımız xarici borcu təxminən 10 dəfə üstələyir. Xarici borc isə ümumi daxili məhsulumuzun cəmi 9-10 faizini təşkil edir".

Son 20 ildə Azərbaycanın iqtisadiyyatına 260 milyard dollardan çox sərmayə yatırılıb. Beynəlxalq Valyuta Fondunun özünün statistikasına görə, hazırda Azərbaycan iqtisadiyyatı alıcılıq qabiliyyəti paritetinə görə Cənubi Qafqaz regionunun ümumi iqtisadiyyatının 70 faizini təşkil edir.

Azərbaycan enerji sahəsindən əldə olunan gəlirlərin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə xüsusi əhəmiyyət verir. Bu məqsədlə 1999-cu ildə Dövlət Neft fondu yaradılıb. Yarandığı vaxt aktivlərinin 270 milyon dollar təşkil etdiyi fondun bu günə olan aktivlərinin həcmi ölkənin ümumi daxili məhsulunu üstələyir. Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdədir.

Pandemiya dövründə Azərbaycan tərəfindən fərdi qaydada 14 ölkəyə, eyni zamanda Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstərilib.

Bütün bunları nəzərə alaraq demək lazımdır ki, Azərbaycan artıq borc alan dövlətdən donor dövlətə çevrilib və beynəlxalq kredit təşkilatlarının maliyyə vəsaitlərinə ehtiyacı yoxdur. Cari ilin sonunadək Beynəlxalq Valyuta Fondunun Azərbaycandakı ofisinin bağlanması barədə qərar heç də təəccüblü deyil. Fondun bu qərarını Azərbaycanın artıq güclü iqtisadiyyata və böyük maliyyə ehtiyatına malik olması ilə izah edib. Əslində bu qərar Azərbaycanın iqtisadi inkişaf sahəsində əldə etdiyi böyük uğurların daha bir təsdiqidir.

Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində Qarabağı və Şərqi Zəngəzuru erməni işğalından azad etdi. Bu gün heç bir beynəlxalq kredit təşkilatının yardımı olmadan Azərbaycan hökuməti işğal dövründə dağıdılmış yaşayış məntəqələrini öz gücü ilə bərpa edir. İşğaldan azad edilən ərazilərdə Füzuli və Zəngilan Beynəlxalq Hava limanları artıq istifadəyə verilib, Laçında Beynəlxalq Hava Limanının inşası isə davam edir. Qarabağda alternativ enerji istehsalı üçün stansiyalar yaradılır, yollar salınır, infrastruktur layihələri həyata keçirilir. Ümumilikdə Azərbaycan bu günədək Qarabağın bərpasına 9 milyard manata yaxın vəsait sərf edib.

Beynəlxalq Valyuta Fondunun 2021-ci il üzrə "Dünyanın iqtisadi məzənnəsi" adlı hesabatında göstərilib ki, Azərbaycanın ÜDM-i 2023-cü ildə 2,6 faiz proqnozlaşdırılır. Bu proqnoz ölkə iqtisadiyyatının inkişaf tempinin göstəricisidir. Ötən 2022-ci ildə ÜDM 2021-ci ilə nisbətən 4,6 faiz artaraq 133 milyard 825,8 milyon manat, qeyri-neft-qaz sektorunda isə 9,1 faiz artaraq 69 milyard 826 milyon manat təşkil edib. Qeyd edək ki, Dünya Bankının 2023-cü il üçün "Qlobal İqtisadi Perspektivlər" hesabatına əsasən, Azərbaycan üzrə verilən proqnozlarda real ÜDM-in artım tempi müsbət olaraq qalır. 2023-cü ildə Azərbaycan iqtisadiyyatında artım dünya ilə müqayisədə 1,1 faiz, ECA regionu ilə müqayisədə isə 2,7 faiz daha yüksək olacaq. Bu inkişaf tempi onu deməyə əsas verir ki, artıq Azərbaycan orta yüksək gəlirli statuslu ölkələr sırasındadır və milli iqtisadi strategiyasını öz gücü və imkanları hesabına icra edir.

Bu gün Azərbaycan TANAP və TAP vasitəsilə Avropaya qaz ixrac edir, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars dəmir yolu kimi beynəlxalq iqtisadi layihələrin müəllifidir və bu layihələr Azərbaycan büdcəsinə valyuta axınını təmin edir. Gələcəkdə Zəngəzur dəhlizinin işə salınması Naxçıvan ilə Azərbaycanın digər regionlarının, eləcə də Türkiyə ilə Orta Asiya respublikalarının nəqliyyat baxımından birləşməsini təmin edəcək. Ümumilikdə isə Avropa ilə Asiyanı birləşdirəcək "Şərq-Qərb" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas hissəsi olan Zəngəzur dəhlizi Azərbaycana həm iqtisadi, həm də siyasi dividend qazandıracaq. Milyardlarla dollar həcmində ticarət dövriyyəsi məhz bu dəhlizlə reallaşacaq ki, bu da ölkəmizə əlavə valyuta axınını təmin edəcək.

Yuxarıda deyilənləri nəzərə alaraq Azərbaycanın Beynəlxalq Valyuta Fondu kimi quruma ehtiyacının olmadığı və bunun fond tərəfindən də başa düşüldüyü aydın olur.

# Güc və söz sahibi

## Türkiyə hərbi sənayesi inqilabi yenilikləri ilə dünyaya meydan oxuyur











*Əvvəli 1-ci səh.*

Son 5 ildə qardaş ölkənin müdafiə sənayesinin istehsal etdiyi hərbi texnikalara nəzər yetirək:

- "Bayraktar TB2" PUA-sı;
- "Akıncı" PUA-sı;
- "Qizil alma" İnsansız Qırıcı Təyyarəsi;
- "KAAN" Milli Döyüş Təyyarəsi;
- "Yeni Altay" tankı;
- "Super Şimşək" təyyarəsi;
- "TCG Anadolu" hərbi gəmisi;
- "ANKA-3" Qırıcı Pilotsuz Təyyarə Sistemi;
- "ATAK-2" 2500 at gücündə mühərrikə sahib olan helikopter.

Türkiyədə hər il keçirilən "TEKNOFEST" festivalında müdafiə sənayesi yeni silahlar, texnikalar təqdim edir. İstanbul şəhərində, Atatürk Hava Limanında Türkiyənin Havaçılıq, Kosmos və Texnologiya Festivalı - "TEKNOFEST-2023"də də bu hal yaşandı.

102 fərqli kateqoriyalarda 41 yarış üzrə 1 milyondan çox layihənin iştirak etdiyi festivalda "Bayraktar Qızıl alma", "Bayraktar Akıncı" və ilk dəfə olaraq "Bayraktar-TB3" pilotsuz uçuş aparatları da ziyarətçilərə təqdim olundu.

Bütün bunlarla yanaşı, ölkənin quru qoşunları da hər cür müasir müdafiə sistemləri ilə təchiz edilib və bu proses davam etdirilir. Belə ki, Quru Qoşunlarının bazasına milli imkanlarla istehsal edilən "Yeni Altay" tankları daxil olub. Bu tank ilk prototipindən fərqli olaraq müasir döyüş şərtlərinə uyğun olaraq yenilənib.

Türkiyə Silahı Qüvvələrinin son illər həyata keçirdiyi əməliyyatlar çərçivəsində əldə etdiyi təcrübə ilə bağlı əlavə xüsusiyyətlər qazanan milli tank davamlılıq və təhlükəsizlik baxımından rəqiblərini üstələyir. 120 mm və 55 kalibrli topla təchiz edilən müasir tankın atəş sistemi çox güclüdür. Zərbə gücü baxımından böyük tutuma malik olan yeni hərbi maşın azı 8 kilometr məsafədəki hədəfi vura biləcək. "Yeni Altay" keyfiyyət baxımından dünyanın ən yaxşısı kimi tanınan "Leopard" tankları ilə müqayisə edilir.

Türkiyəli mühəndislər tərəfindən hazırlanan tank 12.7 mm və 7.62 mm silah sistemləri ilə təchiz olunub. Tankın hazırlanmasının ilkin mərhələsində 200-dən artıq atış icra edilib.

Göründüyü kimi, Türkiyə yerli və milli müdafiə sənayesi tarixində, demək olar ki, hər gün yeniliyə imza atır. "TCG Anadolu" gəmisi, "Qızıl alma", "ANKA-3", "ATAK-2" kimi milli layihələr arasına artıq yeni nəsil texnikaları daxil edilir.

Müstəqilliyimizin yenidən bərpasından sonra tarixi köklərə dayanan Azərbaycan-Türkiyə əlaqələri müasir inkişaf dövrünə keçid edib. Ulu Öndər Heydər Əliyevin Türkiyə prezidentləri ilə səmimi dostluq münasibətləri bu əlaqələrin inkişafına təkan verməklə yanaşı, yeni mərhələnin əsasını qoyub. Bünövrəsi Heydər Əliyev tərəfindən qoyulan iki qardaş ölkənin əlaqələri bu gün ənənəyə sadiq olaraq Prezident İlham Əliyevin fəaliyyəti sayəsində yüksələn xətlə tarixinin ən möhtəşəm dövrünü yaşamaqdadır. Hər iki ölkənin liderləri - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan arasındakı sarsılmaz qardaşlıq münasibətləri bunun bariz təcəssümüdür.

Bu bir həqiqətdir ki, məhz İlham Əliyevin prezidentliyi dövründə qardaş Türkiyə ilə əlaqələr inkişaf edərək ən yüksək zirvəyə çatıb. Demək olar ki, bütün sahələrdə Türkiyə ilə əməkdaşlıq, ikitərəfli əlaqələr yeni yüksəliş mərhələsindədir. Bu qardaşlığın, dostluğun, dəstəyin nümunəsinə 44 günlük Vətən müharibəsində və qardaş ölkədə baş verən zəlzələ zamanı şahid olduq.

İkinci Qarabağ müharibəsi başladığı gündən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və digər dövlət rəsmiləri Azərbaycanın haqq savaşında yanında olduqlarını və sona qədər Azərbaycanı dəstəklədiklərini bəyan etdilər. Deyilənlərin əyani şahidi də olduq. 44 gün ərzində hər bir türkiyəli Azərbaycanla ürəklərinin bir döyündüyünü, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi üçün aparılan savaşda daim bizə dəstək olduqlarını müxtəlif şəkildə nümayiş etdirdilər. Müharibədən sonra isə Türkiyə şirkətləri ərazilərimizin bərpa-yenidənqurma işlərində Azərbaycana böyük dəstək oldular və bu gün də proses davam etməkdədir.

Əlbəttə ki, Türkiyənin yeni-yeni pilotsuz uçuş aparatları və digər uğurları Azərbaycanı da sevindirir. Xüsusən də ölkənin ilk milli Silahlı İnsansız Hava Aparatlarının (SİHA) istehsalçısı olan "Baykar" şirkətinin yeni-yeni müasir savaş sistemlərini təqdim etməsi dünyanın diqqətini növbəti dəfə Türkiyəyə yönəldib.

Dünyada tayı-bərabəri olmayan Azərbaycan-Türkiyə qardaşlığı iki ölkənin strateji müttəfiqliyini ən yüksək zirvəyə qaldırıb. Şad gündə də, dar gündə də bir-birinə hayan olan, dayaq duran, əlindən gələni əsirgəməyən iki qardaş arasındakı münasibətlər dünyaya nümunə kimi təqdim edilməkdədir.

Türkiyənin hərbi qüdrətinin artması həm də Azərbaycanın güclənməsi deməkdir. Dost və qardaş ölkə ilə müdafiə sənayesi sahəsindəki əməkdaşlıq keçmişdə olduğu kimi, indi də yüksək səviyyədədir. Azərbyacanla Türkiyə arasında bu günə qədər keçirilən birgə hərbi təlimlərin sayı yüzlərlə ölçülür ki, buna da hər hansı bir digər ölkənin nümunəsində rast gəlmək mümkün deyil.

Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlıq təkcə iki qardaş ölkənin hərbi potensialının artırılması baxımından deyil, həm də bölgədə sülh və təhlükəsizliyin təmini baxımından mühüm əhəmiyyət kəsb edir.

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun əldə etdiyi Zəfər nəticəsində Cənubi Qafqazda yaranan yeni geopolitik güc balansını təhlil edərkən Türkiyə-Azərbaycan ordularının hərbi əməkdaşlığının necə böyük rola sahib olduğuna hər kəs şahidlik etdi. Əlbəttə ki, iki qardaş ölkə arasında hərbi əməkdaşlığın dərinləşdirilməsi regionda davamlı sülhün təminatı olacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Ombudsman "İnsan Hüquqları Aylığı"nın elan olunması ilə bağlı müraciət yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) "İnsan Hüquqları Aylığı"nın elan olunması ilə bağlı müraciət yayıb. Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Bildirilib ki, Azərbaycan ombudsmanı tərəfindən ənənəvi olaraq hər il mayın 18-dən iyunun 18-dək ölkədə "İnsan Hüquqları Aylığı" elan edilir. Bu isə sosial-hüquqi statusundan asılı olmayaraq, hər kəsin - şəhid ailələrinin, müharibə iştirakçılarının, əlilliyi olan şəxslərin, uşaqların, ahılların, qaçqınların, keçmiş məcburi köçkünlərin, miqrantların və əhalinin digər həssas qruplarının hüquqlarının müdafiəsi və təbliği sahəsində fəaliyyəti gücləndirmək, əldə olunan uğurlar barədə ictimaiyyəti məlumatlandırmaq, qarşıda duran vəzifələri müəyyən etmək, cəmiyyətdə hüquq düşüncəsini və hüquq mədəniyyətini inkişaf etdirmək, ayrıseçkiliyə, korrupsiyaya, zorakılığa, zərərli vərdişlərə qarşı mübarizənin zəruriliyini diqqətə çatdırmaq məqsədinə xidmət edir.



# El yurda qayıdır

## Həsrətin vüsala çevrildiyi növbəti ünvan Laçın olacaq

*Əvvəli 1-ci səh.*

### Böyük qayıdışın ilk mərhələsi

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə Böyük Qayıdışı dair dövlət proqramı da bu xüsusda mühüm rol oynayır. Proqram bərpa prosesinin daha da sürətlənməsinə və Böyük qayıdışın daha tez tam şəkildə həyata keçirilməsinə şərait yaradır.

Proqrama əsasən, Qarabağ və Şərqi Zəngəzurda infrastruktur, sosial inkişaf, iqtisadiyyatın yenidən qurulması, ətraf mühitin tarazlı inkişafı istiqamətində tədbirlər görülür. Dövlət proqramının əsas məqsədləri əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyasının müəyyən edilməsidir.

Beləliklə, sürətli quruculuq işləri sayəsində ötən il iyulun 19-da Böyük qayıdışın ilk mərhələsi Şərqi Zəngəzurla başladı. İyulun 19-25-də dörd köç karvanı ilə 41 ailə - 201 nəfər Ağalıya yola salındı.

Ağalı kəndinə köç son olaraq bu ilin martın 3-də baş tutdu. Belə ki, Abşeron rayonunun Masazır kəndindən sayca səkkizinci köç karvanı yola salındı. Ümumilikdə Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 10 ailə - 44 nəfər doğma yurdlarına köçürüldü.

Köçürülənlər arasında müxtəlif müvəqqəti məskunlaşma obyektlərində çətin və ağır şəraitdə yaşayan 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin sakinləri var idi.

Bu köçürülmə ilə kənddə 86 ailənin - 420 nəfərin daimi məskunlaşması təmin olundu. Bununla da Ağalı kənd sakinlərinin Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən yeni yaşayış sahələrinə köçürülməsinin üçüncü mərhələsi yekunlaşdı. Ağalıya köçün dörd mərhələdə həyata keçirilməsi planlaşdırılıb.

Evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydalar, şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma ilə aparılır.

Xatırladaq ki, "ağıllı kənd" konsepsiyası əsasında qurulan Ağalıda layihənin əsas prioritetlərinə əsasən, göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyin, səmərəliliyin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunması təmin edilib. Kənddə enerjiyə olan tələbat alternativ enerji mənbələri hesabına əldə olunur. Ümumiyyətlə, orada sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıb.

Bundan sonra Böyük qayıdışın növbəti ünvanı Qarabağ oldu. Tərtərin Talış kəndinə bu il martın 16-da ilk köç baş tutdu. İlkin mərhələdə 20 məcburi köçkün ailəsi Talışa köçürüldü. 30 il ərzində Bakı, Bərdə, Tərtər, Samux və Goranboyda əsasən ağır şəraitdə, qəzalı vəziyyətdə olan müvəqqəti məskunlaşma yerlərində yaşayan 90 nəfər uzun illərdən sonra doğma torpaqlarına ayaq basdılar. Talışa köçürülmə növbəti mərhələlərdə davam edəcək.

### 2023-cü il minlərlə laçınlı üçün unudulmaz ilə çevriləcək

Həm Ağalıya, həm də Talışa köçürülən, uzun illər doğma yurda həsrət qalan kənd sakinlərinin həyəcanı, sevinci göz yaşlarına çevrildi. Kiçiyindən tutmuş böyüyünə qədər hər kəs Müzəffər Ali Baş Komandana, ordumuza minnətdarlıqlarını dönə-dönə ifadə etdi. Qocalarımız "ölmədən bu günü də gördüm" deyə şükür edərkən uşaqlar, gənclər daim nənə-babalarından, ata-analarından nağıl kimi dinlədikləri doğma obaya gəlmələrinin sevincini yaşadılar.

İki kəndə köç edən sakinlərdən sonra növbəti müjdəli xəbəri laçınlılar aldı. Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bu il laçınlıların da el-obalarına qayıdacağını xəbər verdi. Dövlət başçımız qeyd etdi ki, Laçın şəhərində geniş quruculuq-bərpa işləri gedir: "...və indi baxacağıq, bu il biz Laçın şəhərinə ilk laçınlıları nə vaxt qaytaracağıq. Bu il Zabux və Sus kəndlərinə də keçmiş köçkünləri qaytaracağıq. Zabux kəndində hansısa varlı erməni tərəfindən evlər tikilibdir. Mən o evləri müvəqqəti olaraq hərbçilərə vermişəm. Mən dedim ki, bizim vətəndaşlar o evlərdə yaşamayacaq. Onlardan biz kazarma kimi istifadə edirik. Amma zabuxlular üçün Zabux kəndində yeni qəsəbə salınır və bu il biz onları oraya göndərəcəyik".

Mart ayında Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Prezidentin xüsusi nümayəndəsi təyin olunması münasibətilə Məsim Məmmədovu qəbul edən ölkə rəhbəri görüş zamanı da Laçına qayıdışla bağlı məsələlərə toxundu. Dövlət başçısı bildirdi ki, artıq iki ildən çoxdur Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb: "Bildiyiniz kimi, Laçın rayonunda beynəlxalq hava limanı inşa edilir. O bölgədə heç vaxt hava limanı olmamışdır və hava limanının yerini müəyyən edərkən böyük çətinliklə üzləşmişik. Biz dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa etdik. Yəqin ki, gələn ilin sonunda, ya da 2025-ci ilin əvvəlində hava limanı istismara veriləcək".

Qeyd edək ki, birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, ya tamamilə əsaslı təmir olunur və 30-dan çox ictimai bina inşa edilir. İşlərin ilin sonuna kimi yekunlaşması gözlənilir. Bununla da 2023-cü il minlərlə laçınlı üçün unudulmaz ilə çevriləcək. Onlar öz doğma diyarlarına qayıdacaqlar.

Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək. Eyni zamanda birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 sakinin yerləşməsi nəzərdə tutulur. Ümumilikdə, bu il və gələn il Laçın rayonuna təqribən 10 minə yaxın keçmiş məcburi köçkün yerləşəcək. Beləliklə, bu il daha bir rayonumuz öz əzəli sakinlərinə qucaq açacaq. Laçınlıların da 30 illik vətən həsrətinə son qoyulacaq.

Nəinki Ağalı, Talış, Laçın, digər bütün şəhər və kəndlərimiz də sürətlə yenidən qurulur və bərpa edilir. Çox keçməz ki, digər keçmiş məcburi köçkünlərimizin də həsrəti sona çatar. Ən əsası onlar bilirlər ki, torpaqlarımız artıq düşmən tapdağından qurtulub, həmin yerlərdə böyük quruculuq işləri gedir. Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərləri, orada gedən yenidənqurma və bərpa işləri ilə yerində tanış olması, yeni obyektlərin, müəssisələrin təməlini qoyması, müxtəlif açılış mərasimlərində iştirak etməsi də bunun əyani sübutudur. Dövlət başçımızın may ayında Qarabağ və Şərqi Zəngəzurdakı 10 günü də bu baxımdan çox mühümdür. Bu səfərində də ölkə rəhbəri işğaldan azad olmuş rayonlara gedərək bir sıra açılış və təməlqoyma mərasimlərində iştirak etdi. Bütün görülən işlər bir daha göstərir ki, həmin ərazilərin bərpası və Böyük qayıdışın tam reallaşması dövlətimizin prioritet istiqamətidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Naxçıvan "ASAN xidmət" mərkəzinin açılışı olub

**Mayın 18-də Naxçıvan regional "ASAN xidmət" mərkəzinin açılış mərasimi keçirilib.**




Açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev iştirak ediblər.

Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, öncə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, önünə gül dəstəsi qoyulub.

Tədbirdə məlumat verilib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli fərmanı ilə yaradılıb.

Naxçıvan "ASAN xidmət" mərkəzi isə ümumilikdə, respublika üzrə 26-cı mərkəzdir.

Mərkəzin tikintisinə 2020-ci ildə başlanılıb. 2023-cü ilin may ayında tikintisi başa çatdırılıb.

"ASAN xidmət" mərkəzində videomüşahidə, görüntüləmə və videonövbə sistemləri, iki ədəd lift, yanğınsöndürmə sistemi, mərkəzləşdirilmiş havalandırma, istilik sistemi, generator və UPS quraşdırılıb.

"ASAN xidmət" mərkəzi Naxçıvan şəhəri Seyid Cəfər Pişəvəri, 7 ünvanında inşa edilib. Ümumilikdə, Naxçıvan Muxtar Respublikasında qeydiyyatda olan 465 min vətəndaşın əhatəsində olan mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək.

Qeyd olunub ki, mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox xidmət həyata keçiriləcək.

Əməkdaşların ümumi sayı 228, könüllülərin sayı 45 nəfər nəzərdə tutulur.

Mərkəzin daxilində vətəndaşların istirahəti üçün "ASAN kafe" nəzərdə tutulub.

"ASAN xidmət" mərkəzinin ərazisində 50 avtomobil üçün parklama yeri yaradılıb.

# Moskvada Azərbaycan Elm və Mədəniyyəti Günləri keçirilir

**Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru Aqil Şirinov Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Moskva İslam İnstitutunda Azərbaycan alimlərinin, tanınmış mədəniyyət və elm xadimlərinin qatıldıqları Azərbaycan Elm və Mədəniyyəti Günlərində iştirak etmək üçün Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində səfərdədir.**



AİI-nin rektoru səfər çərçivəsində bir sıra görüşlər keçirib.

A.Şirinov öncə Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru, professor Damir Muhetdinovla görüşüb. Görüşdə Azərbaycan İlahiyyat İnstitutu ilə Moskva İslam İnstitutu arasında imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən baş tutacaq bir sıra tədbirlər barədə fikir mübadiləsi aparılıb.

İlahiyyat İnstitutunun rektoru daha sonra Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri Müfti Şeyx Ravil Qaynutdinlə görüşüb. Dini lider iki ölkə arasında elmi əlaqələrin və dost münasibətlərin inkişafından məmnunluğunu ifadə edib, eləcə də Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbriklərini bildirib. Ümummilli Liderin yubileyi ilə əlaqədar Moskva İslam İnstitutunda Azərbaycan alimlərinin, tanınmış mədəniyyət və elm xadimlərinin iştirak etdikləri Azərbaycan Elm və Mədəniyyəti Günlərinin keçiriləcəyini diqqətə çatdırıb. O, AİI rektoru Aqil Şirinovu da burada görməkdən məmnun olduğunu bildirib. Rektor Aqil Şirinov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi münasibətilə keçirilən tədbirə görə minnətdarlığını bildirib.

Görüşdə tərəflər arasında təhsil və elm sahələrində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi haqqında ətraflı fikir mübadiləsi aparılıb.

AİI rektoru Aqil Şirinov səfər çərçivəsində Moskva Cümə Məscidini ziyarət edib. Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi sədrinin müavini Rafiq Fattahetdinovun 50 illik yubileyi ilə əlaqədar Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsində təşkil olunan ziyafətdə iştirak edib.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Ulu Öndərin 100 illiyi münasibətilə "Qızıl Şah" 3-cü Milli Kulinariya Çempionatı keçirilir







**Mayın 18-də "InterFood 2023" Beynəlxalq Qida Sənayesi Sərgisi çərçivəsində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Qızıl Şah" 3-cü Milli Kulinariya Çempionatına start verilib.**

AZƏRTAC xəbər verir ki, yarışma Azərbaycan Kulinariya Mütəxəssisləri Assosiasiyasının təşkilatçılığı, Dövlət Turizm Agentliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Kulinariya Mərkəzi və "CEO Azerbaijan" MMC-nin dəstəyi ilə keçirilir.

İki gün ərzində Milli Kulinariya Çempionatında 100-dən çox iştirakçı "Gənc aşpaz", "Böyük aşpaz" və "Qənnadçı aşpaz" kateqoriyaları üzrə yarışacaq. Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş yarışmanın sonunda ən yaxşı 100 iştirakçının reytinqi müəyyənləşdiriləcək.

Çempionatın münsiflər heyətində İtaliya, Böyük Britaniya, Serbiya, ABŞ, Xorvatiya, Rusiya, Monteneqro və digər ölkələrdən olan Ümumdünya Kulinariya Cəmiyyətləri Birliyinin ("Worldchefs") hakimləri təmsil olunur.

Bu il "Qızıl Şah" Milli Kulinariya Çempionatı Azərbaycanda ilk dəfə olaraq rəsmi "Worldchefs" çempionatı statusu ilə keçirilir. Bu isə Milli Kulinariya Çempionatının qaliblərinin, yarışmanın nəticələrinin və praktika keçən münsiflərin sertifikatlarının Beynəlxalq Kulinariya Cəmiyyəti tərəfindən birbaşa tanınmasına imkan yaradır.

Qeyd edək ki, Milli Kulinariya Çempionatı çərçivəsində "Worldchefs"dən gələn münsiflər və iştirakçılar üçün müxtəlif mövzularda seminarlar da təşkil edilib. 2019-cu ildən bəri keçirilən çempionat azərbaycanlı kulinarlara öz peşəkarlıqlarını nümayiş etdirməyə, beynəlxalq səviyyəli yarışlarda iştirak etməyə imkan yaradır.



Azərbaycanın QURTULUŞ salnaməsi:
Heydər Əliyevdən İlham Əliyevə
30

# Ulu Öndər milli-mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət yetirirdi

**Ulu Öndər Heydər Əliyev xalqın tarixinin hər səhifəsinin qədrini bilib, olanların qayğısına qalmağa, təhlükədən qorumağa, pozulanları bərpa etməyə çalışıb və bütün dövləti bunun üçün səfərbər edib.**



Özünün də dediyi kimi, *"Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir"*. Bir dövlətin hərbi gücü zəruridir, çünki namərd qonşular bunu şərtləndirir. Lakin milli-mənəvi güc bir millətin varlığının identikliyinin qorunması üçün zəruridir, yoxsa heç bir hərbi müdaxilə olmadan özü-özünü daxildən məhv edər.

Hər xalqın eposu olmur. Qəhrəmanların şəninə çox nəğmələr qoşulsa da, nağıllar, dastanlar söylənsə də, bu, hər zaman epos səviyyəsinə qədər qalxmır. Dastanlar məhz bir millətin vətəninin qorunmasının, torpağı vətənə çevirib sevdirən qəhrəmanların tarixi olanda eposluq səviyyəsinə ucala bilir. Azərbaycan belə nadir xalqlardan biridir. Bu danılmaz həqiqəti bilən Ulu Öndər onu hər kəsin də dərk etməsini təmin etmək üçün eposların, dastanların yubileylərini nəinki dövlət, hətta dünya səviyyəsində qeyd etməyi vacib sayırdı. 2000-ci ildə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının iclasında deyirdi: *"Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqının ən qədim mədəniyyət, ədəbiyyat, mənəviyyat abidəsidir. Ona görə də, demək, bu, bizim ana kitabımızdır. Bu kitabın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. İnsanlar bütün bunları nə qədər çox bilsələr, millətini, xalqını, vətənini və müstəqil Azərbaycanı da bir o qədər çox sevəcəklər. Bu, bizim xalqımızın çoxəsrlik tarixində yeni bir mərhələdir"*. Hər nə qədər eposlar, dastanlar qəhrəmanlığın, şərəf mübarizəsinin tərənnümü olsa da, onlar dinc dövrün məhsuludur. Bu o deməkdir ki, xalqın qılıncı ilə yanaşı, qələminin də gücü var. Əslində, Heydər Əliyevin XX əsrdə etdikləri məhz qələmin gücünün nümayişi idi.

Türkün vətəni qılıncı çatan, atının dırnağı dəyən hər yerdir. Bunu sübut etmək üçün Ulu Öndər dünyanın hansı bucağında bir azərbaycanlı mütəfəkkir, dövlət xadimi olubsa, mütləq onu millətinə xatırlatmağı özünə borc bilib, çünki özünün də vurğuladığı kimi, *"Beləliklə, xalqımız öz tarixini, keçmişini daha dəqiq bilərək daha da məğrur insan, azərbaycanlı, vətəndaş olur. Bu, çox mühüm məsələdir. Çünki dövlət müstəqilliyini əldə etmək, dövlət quruculuğunda dəyişikliklər yaratmaq və hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə getmək böyük bir prosesdir"*.

Bu işlər hələ Sovet İttifaqı dövründə də aparılırdı. 1972-ci ildə Aşıq Ələsgərin 150, 1973-cü ildə Nəsiminin 600, 1981-ci ildə Nizami Gəncəvinin 840, Aşıq Alının 180 illik yubileylərinin beynəlxalq səviyyədə keçirilməsi, heykəllərinin ucaldılıb, haqlarında filmlərin çəkilib, araşdırmaların aparılması Moskva səviyyəsində gedən gərgin müzakirələrin, güclü siyasətin nəticəsi idi. Məqsəd öz müstəqil varlığını, kökünün mövcudluğunu daim xatırlamaq və xatırlatmaq idi. Bütün bunlar millətlərin kimliyini yox etməyə çalışan imperiya siyasətinə tamamilə zidd idi. Lakin əldə olunan uğurlu nəticələrdən belə görünür ki, Heydər Əliyev hər dəfə öz məqsədinə nail ola bilib.

Tarixi köklərinin sabitliyindən əmin olan, arxasında onun qayğısını çəkən dövlətin olduğuna inanan millətin özgüvəni də böyük olur. Dövlət nə qədər mürəkkəb bir sistem olsa da, hər vətəndaş orada öz yerini görməyənə qədər, Vətənlə arasında mənəvi bağ da yaranmır. Azərbaycan dünya coğrafiyasının ən uğurlu məkanlarından birində - Şərq və Qərbin qovşağında, zəngin təbii sərvətli ərazidə yerləşir. İnsanları da bu təbiətə uyğundur. Təsadüfi deyil ki, dünya düşüncə tarixində Azərbaycan mütəfəkkirlərinin də layiqli imzaları var, NASA-nın kosmosa göndərdiyi "Yerdən səslər" arasında Azərbaycan muğamı da səslənir, nadir istedadlar sırasında azərbaycanlıların da adı çəkilir. Elə bu səbəbdəndir ki, Azərbaycan qədimdən bəri həm uzaq yerlərin işğalçılarının diqqətini cəlb edib, həm də yaxın qonşuların məkrli planlarının mərkəzində olub. Bu məkanın tükənməz təbii sərvətlərinə, əlverişli coğrafi yerləşməsinə sahib olmaq istəyən xainlər çoxdur. Hünər bu xainlik arasında özünə inamı qoruyub saxlamaq, öz mənəviyyatına sadiq qalmaqdır. Heydər Əliyev deyirdi: *"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, bizim xalqımız, Azərbaycan xalqı, millətimiz, yəni hər bir Azərbaycan övladı bütün xarici və daxili aləmi ilə çox gözəldir"*. Bu, ölkə rəhbərindən nəinki öz dövlətinin vətəndaşlarına, hətta bütün dünya azərbaycanlılarına ünvanlanmış bir çağırışdır: harada olursunuzsa olun, sizin gözəl, fəxr ediləsi bir Vətəniniz var.

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günündə dünyanın 70-dən çox ölkəsində həmvətənlərimiz daxili bir cazibə qüvvəsi ilə üzünü Azərbaycana tutur. 2002-ci ildə həmin gün Ulu Öndər öz təbrikində deyirdi: *"Azərbaycan xalqı uzun əsrlər boyu yadelli işğalçıların zülmlərinə məruz qalmış, öz şərəfli tarixini şəhidlərinin al qanı ilə yazmışdır. Bu ağır zərbələrə ləyaqətlə sinə gərən soydaşlarımız bir çox hallarda doğma torpaqlarından uzaq düşmüş, Vətənindən ayrı yaşamağa məcbur olmuşlar. Lakin öz xalqının taleyini, gələcəyini düşünən qardaş və bacılarımız Azərbaycanın istiqlal mücadiləsini bir an belə yaddan çıxarmamış, müstəqil dövlətçiliyimiz uğrunda fəal mübarizə aparmışlar"*. Heydər Əliyev xarici səfərləri zamanı mütləq orada olan azərbaycanlılarla, tələbələrlə görüşməklə yanaşı, oranın torpağında uyuyan görkəmli azərbaycanlı şəxsiyyətlərin məzarlarını da ziyarət edirdi. Bunu imperiya dövründə də edirdi, müstəqillik qazanandan sonra da. Belə ki, 1970-ci ildə Azərbaycan KP MK-nın birinci katibi kimi Suriya Ərəb Respublikasında səfərdə olanda o, dahi şair Nəsiminin, 1993-cü ildə isə müstəqil Azərbaycan Respublikasının Prezidenti olaraq Fransaya ilk səfərində XX əsrin əvvəllərində Azərbaycan Respublikasının ilk qurucularından olmuş və qürbətdə vəfat etmiş Əlimərdan bəy Topçubaşovun Sen-Klu qəbiristanlığındakı məzarını ziyarət etmişdi. Bu, görkəmli Azərbaycan oğullarının ruhuna ehtiram, eyni zamanda uzaq məsafədən öz vətənləri ilə arada görünməz müqəddəs bir əlaqənin bərpası idi.

Bəli, hər xalqın taleyində enişlər, yoxuşlar, uğurlu günlərlə yanaşı, ağır sınaqlar da olur. Bunların hamısından eyni şərəflə keçib inkişafını davam etdirməyin ən vacib şərtlərindən biri millətin özgüvəninin qorunmasıdır. Bu, haradansa kənarda təlqin olunan bir hiss deyil, xalqın öz ruhuna mənsub olmalıdır. Məhz xalqın ruhunu tanıyan və sevən şəxs nəinki o hissin varlığından xəbərdardır, həm də onun sarsılmaması, daha da möhkəmlənməsi üçün əlindən gələni edir. 1990-cı il 20 Yanvar hadisələrini təhlil edən Ulu Öndər çıxışlarının birində deyirdi: *"Xalqımız əsrlər boyu belə mərhələlərdən keçərək bu günə gəlib çatmışdır. Əgər XX əsri götürsək, 1918-ci ildə, 1920-ci ildə Azərbaycan xalqının başına gələn bəlalar, faciələr məlumdur. 1937-1938-ci illərin faciələri də məlumdur. Ancaq 1990-cı ilin yanvarında, əsrimizin sonuna yaxın baş vermiş hadisələr əvvəlkilərin heç biri ilə müqayisə oluna bilməz. Çünki bu dövr Azərbaycan xalqının artıq milli oyanış, öz mənliyini sübut etmək, milli azadlıq hisslərini aşkara çıxarmaq, büruzə vermək mərhələsi idi"*. Güclü, özünə güvənən vətəndaş güclü dövlət deməkdir. Bunu bilən həqiqi lider də dövlətini məhz daxildən gücləndirməyə çalışır - hər vətəndaşının ruhunu sabitləşdirməklə, onun özgüvənini artırıb, şəxsiyyətinə dəyər verməklə.

Azərbaycan xalqı XX əsrin əvvəllərində bir dəfə cümhuriyyət qurub, cəmi 23 ay sonra ondan məhrum olmaq kimi acı bir təcrübə yaşamışdı. Eyni əsrin sonlarında yenə qanı, canı bahasına müstəqillik qazananda eyni qorxu, təşviş haradasa şüuraltında yaşamaqda idi. Ümumiyyətlə, 90-cı illər bütün postsovet məkanında qeyri-müəyyən, hətta təhlükəli illər idi: 70 illik imperiya dağılmış, yeni qurulan sistemlərin nə qədər uzunömürlü olacağı böyük bir sual altında idi. Belə bir vaxtda, 1994-cü ildə bağlanmış "Əsrin müqaviləsi" Azərbaycanın gələcəyini bir növ 30 illik müddətə "sığortaladı". Söhbət hansısa iqtisadi gəlirdən, xarici şirkətlərlə əməkdaşlıqdan yox, məhz Azərbaycan vətəndaşında yaradılan inamdan, əminlikdən gedir. Həmin müqavilənin imzalanmasında Ulu Öndər öz nitqində bu məqamı vurğulamışdı: *"Müqavilə 30 il müddətinə bağlanır. Deməli, qarşımızda uzun bir yol var və böyük işlər, böyük vəzifələr durur"*. "Əsrin müqaviləsi" neft şirkətləri ilə əməkdaşlıq adı altında dünyaya Azərbaycanın varlığının, müstəqilliyinin, superdövlətlərlə bərabərhüquqlu tərəfdaş olmaq gücünün bəyanı idi.

Xalq öz kökünü tanıdığı qədər ucadır və özünə kimliyini təsdiq etdiyi qədər hörmətə layiqdir. Ulu Öndər Heydər Əliyev bunu bütün dərinliyi ilə dərk edirdi və ona görə də onu həm dövlətin prioritet məsələləri sırasına daxil edirdi, həm də onların qorunmasını şəxsən özünün ən böyük məsuliyyəti hesab edirdi.

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü,***
***fəlsəfə üzrə elmlər doktoru***




# Ümummilli Liderin adına layiq

**"Bakı-Ekspo" Mərkəzində iki gün öncə işə başlayan sayca 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı ("Caspian Agro") və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi ("InterFood Azerbaijan") sərgiləri Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.**

Azərbaycanda aqrar sahənin inkişafı birbaşa Ulu Öndərin adı ilə bağlıdır. Təkcə sovetlər zamanında deyil, müstəqillik dövründə də Ümummilli Lider kəndliyə torpaqdan, xüsusilə əkinçiliyin "qızıl fondu" sayılan suvarılan torpaqlardan daha səmərəli istifadə etməyin yollarını, forma və üsullarını, kənd təsərrüfatını daha sürətli inkişaf etdirməyin mümkünlüyünü öyrətmişdi.

Sərginin smart bölmələri kənd təsərrüfatında tətbiq olunan innovativ texnologiyalar, kənd təsərrüfatı təyinatlı texnikalar, müasir suvarma sistemləri, elektron kənd təsərrüfatı, istixana bölmələri, eləcə də pilotsuz uçuş aparatları, IT xidmətləri, əşyaların interneti, süni intellekt, alternativ enerji mənbələrindən ibarətdir. Bu baxımdan sərginin fəaliyyət göstərdiyi ötən gün Kənd Təsərrüfatı Nazirliyinin təmsil olunduğu pavilyonda Heydər Əliyevin 100 illiyinə həsr edilmiş təqdimat xüsusilə diqqət çəkdi. Həmin pavilyonda elmi-tədqiqat institutlarının ən son uğurları, Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı və təşəbbüsü ilə keçirilmiş bir sıra startap müsabiqələri qaliblərinin məhsulları, "yaşıl enerji" mənbələrinə dair qurğu və məhsullar da nümayiş olunurdu.

Diqqətçəkən maraqlı məqam odur ki, kənd təsərrüfatı sənayesinin aparıcı iştirakçılarını, yerli və xarici ekspertləri, o cümlədən idxalçılar, ixracatçılar, distribütorlar, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər də daxil olmaqla, minlərlə peşəkar ziyarətçi auditoriyası bu beynəlxalq tədbirə toplaşmışdır. Sərgidə Azərbaycanla yanaşı, ABŞ, Böyük Britaniya, Almaniya, İtaliya, Niderland, Çexiya, Polşa, Avstriya, İspaniya, Latviya, Estoniya, Gürcüstan, Qazaxıstan, Rusiya, Türkiyə, İsrail və Hindistan şirkətlərinin məhsulları da nümayiş olunur.

Kənd təsərrüfatının müxtəlif sahələrini əhatə edən panel müzakirələrdə Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin tərəfdaşlığı ilə "Aqrar İnnovasiyalar Forumu" tədbirlər planına uyğun keçirildi. Forumun önəmi ondan ibarət idi ki, sərgiyə gələn ziyarətçilər aqrar sahənin yenilikləri ilə tanış oldular, kənd təsərrüfatında istifadə edilən innovasiyaların üstünlüklərini öyrəndilər. Bundan başqa, sessiyalar zamanı ölkədə kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər də müzakirə olundu və bu sahədə tətbiq edilən innovativ həllər və nəticələr barədə informasiya-məsləhət xarakterli məlumatlar bölüşdürüldü.

Məlumdur ki, ölkəmizdə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların və müasir texnologiyaların tətbiqi dövlət tərəfindən dəstəklənir. Çünki bu gün kənd təsərrüfatının intensiv inkişafı həm də aqrar sektorda innovasiyaların tətbiqindən birbaşa asılıdır. Aqrar sahədə innovasiyalardan istifadə günümüzün çağırışı olduğundan 16-cı "Caspian Agro" və 28-ci "İnterFood Azerbaijan" sərgiləri də ondan yan keçmədi. Məsələn, sərgilər çərçivəsində Aqrar İnnovasiyalar Forumu təşkil olundu. Forumda "Kənd təsərrüfatının inkişafında Heydər Əliyevin uğurlu aqrar siyasəti", "Kənd təsərrüfatında innovativ həllərə əsaslanan texnologiyalar", "Orqanik kənd təsərrüfatı", "Rəqəmsal kənd təsərrüfatı", "Yaşıl kənd təsərrüfatı" və digər mövzular müzakirə edildi.

Bundan başqa, sərgilərdə KOBİA-nın dəstəyi ilə qida sənayesi və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim etdilər. Sərgi çərçivəsində açıq sahədə kənd təsərrüfatında istifadə edilən texnikalar nümayiş olundu. "InterFood Azerbaijan" sərgisi çərçivəsində dekorativ yeməklərin kompozisiyasından ibarət "Qida - sənət əsəri" sərgisi, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Qızıl Şah - Qızıl Yüzlük" III Milli Kulinariya Çempionatı da maraqla izlənildi. Regionlardan gələn sahibkar və fermerlərin sərgi ərazisi ilə tanış olmaları üçün təşkil edilmiş infoturlar isə sərgiyə xüsisi rəng qatdı.

Sərgi salonunda nümayiş olunan yarış və müsabiqələrin qalib aqrar startapçıları tərəfindən arıçılıqda "varatoz" gənəsinə qarşı mübarizə, ənənəvi balıqyetişdirmə üsullarını hidroponik əkinçiliklə birləşdirən sistem, bioqaz, alternativ enerji mənbələrindən əldə edilmiş hidrogen qazı, "ağıllı istixana" idarəetmə sistemi, alaq otlarını lazer sistemi ilə təmizləyən aqrorobot, avtomobillər üçün portativ qida bloku, külək və günəş izləmə qurğuları, idarəolunan günəş panelləri, uzaqdan idarəolunan sayğaclar, külək turbinləri, iqlim stansiyası, dəqiq suvarma idarəçiliyi üçün sensor, suvarmada istifadə edilən günəş enerjisi ilə işləyən inventorlar Azərbaycanda aqrar sektorun bugünkü uğurlarından xəbər verirdi.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərgilərlə açılış günü tanış oldular. Dövlət başçısı və birinci xanım sərgidə "Grow Group Azərbaycan", "Maschio Gaspardo", "New Holland", "Rostselmaş", "MySilo", "Rauch Landmashchinen", "SwissGrow", "AfiMilk", "Gowan", "Can-Pa" şirkətlərinin, Çexiyanın, İtaliyanın, Belarusun, Gürcüstanın, ABŞ-nin və Niderlandın stendlərinə baxdılar. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikaları, əkin-biçin aqreqatları və kənd təsərrüfatı məhsulları təqdim olunurdu. Kənd Təsərrüfatı Nazirliyinin pavilyonunda Ümummilli Lider Heydər Əliyevə həsr olunan xüsusi təqdimat hazırlanmışdı. Təqdimatda bildirildi ki, ölkəmizdə bütün sahələrdə innovasiyaların və müasir texnologiyaların tətbiqi dövlət tərəfindən dəstəklənir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***



# Sülh müqaviləsi imzalansa da, imzalanmasa da qazanan Azərbaycandır

## Bakı 44 günlük müharibədə yaratdığı reallıqları öz milli maraqlarına uyğun daha da gücləndirib



**Dünən Hayastan tərəfindən Azərbaycana qarşı növbəti dəfə hərbi təxribat törədildi. Budəfəki təxribat zamanı ordumuzun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən bir neçə mövqeyinə qarşı Hayastan döyüş PUA-ları ilə hücum edib. Brüssel görüşündən sonra bu hadisənin baş verməsi bir daha İrəvanın sülhün əldə edilməsində maraqlı olmadığını göstərir.**

### Hayastanın ənənəvi ssenarisi

Brüssel görüşündən əvvəl də Hayastan silahlı bölmələri Kəlbəcər istiqamətində Azərbaycan Ordusunun mövqelərini atəşə tutmaqda davam edirdi. Mayın 10-dan başlayaraq Hayastanın Basarkeçər rayonundakı bölmələri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisindəki mövqeləri artilleriyadan və minaatanlardan atəşə tutulmuş, zərbə PUA-ları tətbiq edilmişdi. Lakin düşmən niyyətinə çata bilməmişdi. Baş verən döyüşlərdə düşmənə layiqli cavab verilmiş, ermənilərin törətdikləri təxribatların genişlənməsinin qarşısı qətiyyətlə alınmış və Ermənistana xeyli zərər vurulmuşdu. Xüsusən bölmələrimiz tərəfindən hava hədəfləri vaxtında aşkar edilmiş və radioelektron mübarizə vasitələrinin tətbiqi nəticəsində onlar hədəfə çatmadan zərərsizləşdirilmişdi.

Hayastanın son təxribatlarının Brüssel görüşündən əvvəl və sonra baş verməsi bir daha İrəvanın ənənəvi davranışlarını üzə çıxarır. Başqa cür desək, bu təxribatlar Azərbaycana tanış ssenaridir. Bu ssenarilərin tarixi isə hələ Vətən müharibəsindən əvvəlki dövrə gedib çıxır. O zaman danışıqlar prosesində imitasiya yolu tutan Hayastan Azərbaycanın təzyiqlərindən çıxış yolu kimi hərbi təxribat törətmiş və bununla da status-kvonun uzadılmasına çalışmışdı. Hansısa irəliləyiş məqamında və hansısa razılaşma üçün şərait yarananda İrəvan cəbhə xəttində təxribat törətmişdi. Hətta işğalı davam etdirmək üçün danışıqlar zamanı Ermənistan prezidentinin tualet bəhanəsi ilə aradan çıxdığı vaxtlar da olub.

Ötən ilin sentyabrında baş verən hərbi toqquşma da Hayastanın sülh prosesini pozmaq niyyətinin nəticəsi idi. Həmin döyüşlərdən bir neçə gün əvvəl, avqustun 31-də növbəti Brüssel görüşü keçirilmiş və sülh müqaviləsinin imzalanması istiqamətində işlərin sürətləndirilməsi ilə bağlı razılığa gəlinmişdi. Bununla bağlı hər iki tərəfin xarici işlər nazirlərinə müvafiq tapşırıqlar verilmişdi. Sonrakı günlərdə Azərbaycan dövləti humanizm prinsiplərini rəhbər tutaraq bir neçə erməni hərbçini azad etməklə xoşməramlı niyyətini ortaya qoymuşdu. Buna baxmayaraq, Hayastan mövcud status-kvoya zərbə vurmaq, öhdəlikləri yerinə yetirməmək üçün hərbi avantüraya rəvac vermiş və növbəti dəfə böyük itkilərə məruz qalmışdı.

### Bakının irəli sürdüyü prinsiplər danışıqların əsas tezisləridir

Hayastanla münasibətlərin normallaşdırılması və sülhün əldə edilməsi istiqamətində aparılan danışıqlar tamamilə Azərbaycanın qətiyyətinin və siyasi iradəsinin məzmununa uyğundur. Məsələn, indiyədək keçirilmiş görüşlərin hər birində Bakının irəli sürdüyü prinsiplər əsas tezislər kimi qəbul olunub. Bu görüşlərin heç birində Hayastanın hansısa şərtinin müzakirəsinə imkan verilməyib. O cümlədən Hayastan Praqa görüşündə keçmiş sovet respublikalarının ərazi bütövlüyünü təsdiqləyən Alma-Ata Bəyannaməsinə sadiqliyini ifadə etməklə faktiki olaraq Qarabağın Azərbaycanın ərazisi olduğunu təsdiqləyib.

Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu isə artıq Qərb tərəfindən də qəbul edilməkdədir. Məsələn, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin mayın 14-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Hayastanın baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlamasında "Keçmiş Dağlıq Qarabağ" ifadəsini işlətməsi Avropa İttifaqının Qarabağı Azərbaycanın ərazisi kimi tanımasından xəbər verir. Budəfəki görüşdə Hayastanın bir daha 1991-ci ilin Alma-Ata Bəyannaməsinə, o cümlədən Azərbaycanın 86,600 kvadratkilometr ərazisinin toxunulmazlığına birmənalı sadiqliyini təsdiq etməsi də göstərir ki, İrəvan Qarabağın Azərbaycan ərazisi olduğunu qəbul edir.

### İtirən yalnız haylar olacaq

Bütün bunlardan sonra yenidən Azərbaycana qarşı hərbi təxribatların törədilməsi bir daha Hayastanın münasibətlərin normallaşdırılması prosesindəki destruktiv mövqeyini ortaya qoyur. Görünən odur ki, İrəvan sülh danışıqlarını, kommunikasiyaların açılmasını, ümumilikdə regionda təhlükəsizliyin təmin olunması istiqamətində irəli sürülən bütün təşəbbüsləri və atılan addımları sabotaj etməkdən əl çəkmir.

Təbii ki, "dəmir yumruq" hər zaman yerindədir. Odur ki, Hayastanın istənilən hərbi avantürası onun özünə baha başa gələcək. İndiyədək baş verən bütün hərbi toqquşmalar göstərir ki, itirən məhz Hayastandır. Ona görə regionda sülhün əldə edilməsi Hayastana daha çox lazımdır. Prezident İlham Əliyev bu barədə deyib: "Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə sadəcə sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar. Çünki bütün geosiyasi vəziyyət, - söhbət təkcə regiondan deyil, qlobal vəziyyətdən gedir, - dəyişib. Bizim orada öz yerimiz var. Bu yer çox sabitdir və getdikcə daha da möhkəmlənir. Lakin onlar üçün bu, böyük çağırış olacaqdır".

Azərbaycan inkişaf edən, öz yolu olan, regionda və dünyada söz sahibi kimi yüksək mövqelərə malik dövlətdir. 44 günlük müharibədən ötən müddətdə Azərbaycan yaranmış reallıqları öz milli maraqlarına uyğun daha da gücləndirib. İndi Hayastan daha çox dalana dirənib. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin Hayastana gediş-gəlişi isə yalnız dövlətimizin yaratdığı sərhəd-buraxılış məntəqəsindən keçməklə mümkündür. Görünən odur ki, itirən yalnız Hayastandır və bu gedişlə Qafqazın bu süni dövlətinin gələcəyi də sual altına düşəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Qərbi Azərbaycan İcmasının bəyanatları beynəlxalq təşkilatlar tərəfindən maraqla qarşılanır

## Azərbaycan dövləti soydaşlarımızın hüquqlarını təmin etmək üçün lazımi tədbirlər görür

**Qərbi Azərbaycan məsələsinə davamlı diqqət ayıran Prezident İlham Əliyev çıxışlarında hər zaman xüsusi qeyd edir: "Bu gün sirr deyil ki, Qərbi Azərbaycan İcması uzun illər deportasiyaya məruz qalmış icma kimi öz hüquqlarından məhrum idi. Əlbəttə ki, Qarabağ dərdi, problemi olan yerdə Qərbi azərbaycanlıların hüquqlarından danışmaq bəlkə də vaxtından əvvəl açılan bir atəşə bənzəyə bilərdi. Amma bu gün hesab edirəm ki, biz tam haqlı olaraq bu mövzunu artıq beynəlxalq arenaya çıxarmışıq... Əlbəttə ki, Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar, bu, onların hüququdur, bütün beynəlxalq konvensiyalar bu hüququ onlar üçün tanıyır. Biz də Azərbaycan dövləti olaraq əlimizdən gələni etməliyik ki, bu hüququ təmin edək".**

Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrini özünün fəaliyyət istiqaməti kimi qəbul edən Qərbi Azərbaycan İcması tarixi faktlara, beynəlxalq konvensiya və beynəlxalq hüququn prinsiplərinə əsaslanan Sülhsevər Qayıdış Konsepsiyasını nüfuzlu təşkilatlarda ciddiliyi ilə müzakirəyə çıxarıb. Qeyd edək ki, Qərbi Azərbaycan İcması artıq 190 ölkədə tanınır. Bu gün haqlı olaraq "Qərbi Azərbaycan" mövzusu artıq beynəlxalq müstəvidə haqqın, ədalətin tələbinə çevrilib. Bu problemin konsepsiyasını tərtib edən icmanın qısa zaman kəsiyində böyük uğurlara imza atması qürurvericidir. Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətinin Birləşmiş Millətlər Təşkilatının (BMT) rəsmi sənədi kimi yayılması bu qurumun ilk uğuru oldu.

"Qərbi Azərbaycandan etnik təmizləmə, soyqırımları nəticəsində qovulmuş, sıxışdırılıb çıxarılmış, deportasiya olunmuş soydaşlarımızın qeydiyyatının aparılması vacib və ümummilli məsələdir. Təəssüf ki, uzun illər bu iş lazımi səviyyədə aparılmayıb. Qərbi Azərbaycan İcması yaranan gündən biz bu məsələni önə çəkdik, çünki insan haqları üzrə təməl hüquqları pozulan insanların hüquqlarını tələb ediriksə, ilk növbədə onların dəqiq siyahısı ortada olmalıdır. Biz bu siyahıyaalmaya sonuncu deportasiyadan - 1987-1991-ci illər hadisələrindən başlamışıq. Hazırda biz siyahıyaalmanı 300-ə yaxın yaşayış məntəqəsi üzrə tamamlamaqdayıq. Söhbət 300 min nəfərə yaxın insandan gedir". Bunu mətbuata açıqlamasında Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, deputat Əziz Ələkbərli bildirib.

İcma sədrinin sözlərinə görə, faktlar əsasında arayışlar hazırlanır: "Qərbi Azərbaycan İcmasında 1987-1991-ci illər deportasiyası zamanı indiki Ermənistan ərazisində ermənilər tərəfindən öldürülmüş, döyülmüş, şikəst edilmiş, evi, əmlakı talanmış, yandırılmış, bir sözlə, fiziki, maddi və mənəvi təzyiqə məruz qalmış insanlarımızın siyahıları üzrə dəqiqləşdirmələr aparılır və şahid ifadələri, sənədlər əsasında arayışlar hazırlanır".

Daha sonra o vurğulayıb ki, biz bununla kifayətlənməyəcəyik. Təkcə sonuncu deportasiya zamanı yox, ümumilikdə son 200 il ərzində Qərbi Azərbaycanda soydaşlarımız etnik təmizləməyə məruz qalıb: "Bununla bərabər mədəni irsimiz mənimsənilib və ya məhv edilib. Təkcə son yüz ildə dörd dəfə kütləvi deportasiya və soyqırımına, bütün əsr boyu isə etnik təzyiqlərə və köçlərə məruz qalmışıq. Bunların hamısının dəqiq qeydiyyatı aparılır və Ermənistandan hesabı sorulacaq. Tarixi ədalətin bərpa olunmasının zamanı gəlib".

İcmanın Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi Vaqif Şadlinski bildirir ki, beynəlxalq müstəvidə Qərbi Azərbaycanla bağlı aparılan işlər Qayıdış Konsepsiyasının qəbulu ilə daha da sürətləndirilib. Yanvarın 31-də BMT Katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Bu, Qərbi azərbaycanlıların haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ilk ən mötəbər və genişmiqyaslı sənəddir. Bundan başqa, ötən yarım ilin müşahidələrindən məlum olur ki, beynəlxalq müstəvidə Qərbi Azərbaycan məsələsinə maraq artmaqda davam edir. V.Şadlinski cari il yanvarın 23-də Türkiyə səfiri Cahit Bağçının, fevralın 4-də isə bir qrup türk deputatın icmanı ziyarət etdiyini xatırladaraq belə təşəbbüslərin davamlı olacağını söylədi.

İcmanın Ağsaqqallar Şurasının sədr müavini əminliklə bildirdi ki, Ulu Öndərin rəhbərliyi ilə hazırlanıb referendumla qəbul edilən, insan hüquqları və demokratiya prinsiplərinə əsaslanan Azərbaycan Respublikasının Konstitusiyası və azərbaycançılıq məfkurəsi ilə dövlət müstəqilliyinin milli ideoloji və hüquqi çərçivəsi müəyyənləşdirilib və istiqlalımızın əbədiliyi və dönməzliyi təmin edilib.

"Göyçə mahalı, Zəngəzur deyəndə xalqımızın ürəyi ağrıyır, xalq o torpaqların arzusu ilə yaşayır" sözləri ilə xalqımızın iztirablarını dilə gətirən Ümummilli Lider Heydər Əliyev Qərbi Azərbaycan mövzusuna bütövlükdə Azərbaycan xalqının mənafeyi və ədalət prinsipindən çıxış edərək böyük diqqət göstərib. Ulu Öndər Azərbaycan ərazilərinin Ermənistana verilməsi, azərbaycanlıların oradan zorla qovulmasına dair tarixi faktları və azərbaycanlı qaçqınların geriyə qayıtmaq hüququ məsələsini ən mötəbər beynəlxalq platformalarda dilə gətirib. Ulu Öndər Heydər Əliyevin azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi şəkildə deportasiyasına siyasi-hüquqi qiymətin verilməsi haqqında 1997-ci il dekabrın 18-də verdiyi fərman, ölkənin milli qanunvericiliyində qaçqınların geri qayıtmaq hüququnun təsbit edilməsi və onlara göstərilən sosial dəstək Qərbi azərbaycanlılar tərəfindən heç vaxt unudulmayacaq.

Məsələ ilə bağlı Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədr müavini Ramil Həsən bildirir ki, Prezident İlham Əliyevin ötən il 24 dekabr tarixində, öz doğum günündə "Mən ailəmlə bərabərəm" tarixi fikrini ifadə edərək icmanın inzibati binasının açılış mərasimində ifadə etmiş olduğu bütün fikirlər Qərbi azərbaycanlıların, o cümlədən bütün dünya azərbaycanlıların məqsəd və məramı, yol xəritəsi olmalıdır. Qarabağ savaşında, Türkiyəyə verdiyimiz dəstəkdə olduğu kimi, birləşməli, bir olmalı və beynəlxalq hüququn bütün üstünlüklərindən, hüquqlardan faydalanaraq, Ermənistan hökumətindən tələb edərək təhlükəsiz şəkildə geri qayıdışımızın təminatını həyata keçirməliyik: "1800-cü illərdə belə siyahıyaalmada əhalinin əksəriyyətinin azərbaycanlılar göstərilən İrəvan quberniyasından tutmuş Zəngəzur, Vedibasar, Göyçəyə qədər əksəriyyəti azərbaycanlılar idisə, bu gün orada bir nəfər də olsun Azərbaycan əsilli insan yaşamır". Artıq Ermənistan monoetnik dövlətə çevrilmişdir. Görünən odur ki, hayların yeritdiyi bu iyrənc siyasət iflasa uğramaqdadır. Dövlət başçısı İlham Əliyevin də qeyd etdiyi kimi, əgər Ermənistan özünü dünyada, sözün həqiqi mənasında, hüquq tərəfdarı, beynəlxalq hüquqa riayət edən bir ölkə kimi göstərmək istəyirsə və monoetnik şəkildə bir kimliyə sahiblikdən çıxıb, artıq dünyanın bir parçası olmaq istəyirsə, öncəliklə Qərbi Azərbaycandan olan soydaşlarımızın yurdlarına qayıtmaqla bağlı haqlı tələblərinə qulaq asmalı və bu tələblərimizin həyata keçirilməsini təmin etməlidir. İcma olaraq bütün xalqımızın birlik və bərabərliyi içərisində öz hüquqlarımızı beynəlxalq təşkilatlar və təsisatlar vasitəsilə Ermənistan hökumətindən tələbetmə prosesinə start vermişik. Atılacaq addımların əksəriyyəti beynəlxalq strukturlar, o cümlədən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, İnsan Hüquqları Komissarlığı kimi bir çox beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyətə söykənir, siyasi və mülki hüquqlar konvensiyası, qaçqınlarla bağlı olan beynəlxalq paktlar və konvensiyalar kimi bir çox beynəlxalq sənədlərə əsaslanır. Əsas əməkdaşlıq edəcəyimiz struktur BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı olacaqdır. BMT-nin rəsmi sənədlərində Qərbi Azərbaycan kəlməsi, sözün həqiqi mənasında, beynəlxalq bir termin olaraq qəbul olundu və bu sənədin BMT-nin rəsmi sənədi kimi yayılması ilə beynəlxalq münasibətlər sistemində belə bir icmanın varlığı, Qərbi Azərbaycanın mövcudluğu tanındı. Bu, bizim ilk mərhələdə atdığımız uğurlu addımlardan biridir. Hüquq da, qanun da bizim tərəfimizdədir. Biz tələb edirik ki, beynəlxalq hüquq normalarına əsaslanan qayıdışımız təhlükəsiz şəkildə həyata keçirilsin".

Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin bütün sahələrdə apardığı uğurlu siyasət Vətən həsrəti ilə yaşayan Qərbi azərbaycanlılara ən böyük təsəlli və onların haqq işinin yaxın gələcəkdə öz həllini tapacağına zəmanətdir. Ata vəsiyyətini yerinə yetirib Şuşa şəhəri daxil olmaqla Azərbaycan torpaqlarını haylardan azad etmiş Müzəffər Ali Baş Komandan İlham Əliyevin bir neçə gün öncə məhz mədəniyyət paytaxtımızda Ümummilli Liderin 100 illik yubileyini qeyd etməsi, haqq-ədalətin təntənəsi Qərbi azərbaycanlıları gələcəyə daha nikbin baxmağa inandırır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycana qarşı istənilən təhdid iflasa məhkumdur

**"İranda hər kəs, bütün dairələr, nəhayət, anlamalıdır ki, hədə və terror dili Azərbaycanla işləməyəcək. Onlar bunu nə qədər tez anlasalar, biz normallaşma əlamətlərini bir o qədər tez görə bilərik".**

Bu fikirləri Prezident İlham Əliyev cari il mayın 3-də Qarabağın Zəfər qalası Şuşadan bəyan etmişdi və xüsusilə vurğulamışdı ki, bizim hüquq-mühafizə qurumlarımız çox səmərəli işləyir. Biz gizləndiyi yerdən asılı olmayaraq, hər kəsi tapıb, məsuliyyətə cəlb edə bilirik.

Elə mayın 16-da İran xüsusi xidmət orqanları tərəfindən maddi maraq və dini təbliğat yolu ilə ələ alınmış bir qrup Azərbaycan vətəndaşının respublika ərazisində sabitliyin pozulması məqsədilə törədəcəyi cinayət əməllərinin qarşısının ölkəmizin xüsusi xidmət orqanları tərəfindən qətiyyətlə alınması da bunu təsdiqlədi.

Bu həm də din pərdəsinə bürünərək dinsiz əməllərlə məşğul olan İrana, eləcə də Azərbaycana düşmənçilik edən və daxili sabitliyimizi pozmaq istəyən məkrli ölkə və qurumlara lazımi cavab, tutarlı tərs şillə oldu.

### Fars-molla rejimi dini inanclardan sui-istifadə edir

Həmin tarixdə Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun mətbuat xidmətlərinin yaydığı birgə məlumatdan bəlli oldu ki, Azərbaycanda İran xüsusi xidmət orqanları tərəfindən maddi maraq və dini təbliğat yolu ilə ələ alınmış və "Kərimə" dövləti qurmaq istəyən "müqavimətçi dəstə" saxlanılıb. Müəyyən edilib ki, İran xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Rufulla Axundzadə və oğlu Əlmürsəl Axundzadə ölkə ərazisində silahlı iğtişaşlar törətməklə Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi yolu ilə "Kərimə" dövlətinin qurulması, ictimaiyyət arasında tanınan və vəzifəli şəxslərin həyatına sui-qəsdlərin təşkil edilməsi məqsədilə müqavimətçi dəstələr təşkil etmək barədə xüsusi fəaliyyət planı hazırlayıblar.

Bu fakt aydın şəkildə ortaya qoyur ki, fars-molla rejimi insanlarımızın dini inanclarından sui-istifadə edərək ölkəmizdə daxili sabitliyi pozmaq üçün xain cəhdlər edir.

Bu fakt bariz şəkildə ona da dəlalət edir ki, İran cidd-cəhdlə Azərbaycana qarşı davamlı olaraq beynəlxalq hüquq və münasibətlərə zidd əməllər sərgiləyərək ölkələrimiz arasındakı bütün körpüləri yandırmaq üçün böyük çaba sərf edir.

Bəs bu şeytan yuvasına çevrilmiş molla rejiminin Azərbaycana düşmənçiliyinin əsl səbəbi nədir!?

### Torpaqlarımızın işğalı İrana sərf edirdi

Səbəb isə ermənipərəst İranın Azərbaycanın Vətən müharibəsində qazandığı zəfəri hələ də həzm edə bilməməsidir. Nədən ki torpaqlarımızın Hayastan tərəfindən işğalı digər xain qonşumuza çox sərf edirdi. Buna görə idi ki, 30 illik işğal müddətində İran riyakarlıqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyib, digər yandan təcavüzkar Ermənistana hər cür dəstək göstərib.

Faktlarla sübut olunub ki, fars rejimi torpaqlarımız işğalda olarkən ərazilərimizin talanmasında birbaşa iştirak edib. Hayastan Qarabağda sökdüyü evlərdən əldə olunan tikinti materiallarını, həmçinin bu ərazidəki meşələrimizdə qiymətli ağacları qıraraq İrana satıb.

Ermənistan Azərbaycanın işğal edilmiş Qarabağ ərazilərinə İran İslam İnqilabı Keşikçiləri Korpusunun təşkilatçılığı ilə yük maşınlarında yanacaq və silah daşıyıb. Azərbaycanın işğal altında olan əraziləri həm narkotik plantasiyalarının yaradılması, bu maddələrin istehsalı, həm də Şərqdən Qərbə doğru gedən narkotrafik marşrutu kimi istifadə olunub və bu işdə İran xüsusi fəallıq göstərib.

Özünü islam təəssübkeşləri sayan İran rəhbərləri heç zaman Xocalı soyqırımı, işğal dövründə Azərbaycan ərazilərindəki məscidlərin, dini abidələrin yerləyeksan olunması, təhqir edilməsi, minlərlə müsəlmanın qətlə yetirilməsi barədə "qardaşı" Hayastana bir kəlmə də söz deməyib.

### Azərbaycanın tələbləri legitim və əsaslıdır

44 günlük müharibə zamanı da fars rejimi bizim qarşımızda, düşmənimizin yanında oldu, ona hər cür yardım göstərdi. Vətən müharibəsindən sonra isə açıq düşmənçiliyə keçən İran Azərbaycana qarşı təxribatçı əməllərə, terrora əl atdı.

"Müsəlman" qonşumuz Azərbaycan sərhədində hərbi təlimlər keçirdi, Qafanda konsulluğunu açdı, öz istehsalı olan silahları Hayastana hədiyyə etdi.

Dinsiz İran bu il yanvarın 27-də Tehrandakı səfirliyimizdə qanlı terror aktı həyata keçirdi, martın 28-də isə Milli Məclisin deputatı Fazil Mustafaya qarşı terror aktı törətdi. Deputata qarşı İranın törətdiyi bu terror əməlinin üstünü təhlükəsizlik xidmətimizin əməkdaşları dərhal açdı. Eləcə də Azərbaycanda İranın yaratdığı casus şəbəkələri ard-arda ifşa edildi. Bunlardan biri də mayın 16-da üzə çıxarıldı. Bununla da bir daha sübut edildi ki, Azərbaycan güclü dövlətdir və İranın xüsusi xidmət orqanlarının meydan suladığı, terror həyata keçirdiyi bəzi ölkələrə bənzəməz. İranın, yaxud da hər hansı digər ölkənin Azərbaycanda törətmək istədiyi istənilən antimilli fəaliyyətin qarşısı qətiyyətlə alınır və alınacaq.

Eyni zamanda İranın dövlətçiliyimizi hədəfə alan bu xain əməlləri ölkələrimiz arasındakı münasibətlərə böyük zərbə vurub və bu halın normallaşması isə elə İranın özündən, Azərbaycana qarşı mənfur əməllərinə son vermәsindən birbaşa asılıdır.

Mayın 3-də Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda dövlət başçısı İlham Əliyev də söylədi ki, Azərbaycan ilə İran arasında münasibətlər hazırda heç zaman olmadığı qədər çox aşağı səviyyədədir: "Biz İran rəsmilərindən bəzi məktublar almışıq. Bəzi telefon danışıqları olub ki, münasibətlər normallaşsın. Lakin birmənalı olaraq, tələblərimiz legitim və əsaslıdır. Əgər bu tələblər yerinə yetirilərsə, onda biz normallaşma haqqında danışa bilərik. Əgər yox, bu, belə də qalacaq".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# REGİONLAR



## Sənaye parkları Böyük qayıdışa hesablanıb

**İşğaldan azad edilmiş rayonlarda iqtisadiyyatın dirçəldilməsi istiqamətində mühüm addımlar atılır. Bunlardan biri də Qarabağ və Şərqi Zəngəzur bölgəsində Prezident İlham Əliyevin iştirakı ilə təməlləri qoyulmuş "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarıdır.**

Hər iki sənaye parkı düşmənlərdən təmizlənmiş ərazilərə yeni nəfəs verilməsinə, iqtisadiyyatın inkişafının sürətləndirilməsinə və yeni iş yerlərinin yaradılmasına xidmət edəcək. Bu yönümdən atılan addımlar ilk növbədə dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsas tərkib hissəsi kimi əhalinin məşğulluğunun təmin olunmasına öz müsbət təsirini göstərəcək. Bu da o deməkdir ki, erməni vandallarından təmizlənən Qarabağ və Şərqi Zəngəzur Böyük qayıdışa hazırlanır.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının gələcək fəaliyyəti Zəngəzur dəhlizinin açılması ilə yaranacaq tranzit potensialını artıracaq, bərpa-quruculuq layihələrinin reallaşmasını sürətləndirəcək. O üzdən parka sahibkarlar indidən xüsusi maraq göstərirlər. Artıq beş sahibkarlıq subyekti parkın rezidenti, bir sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb.

"Araz Vadisi İqtisadi Zonası" logistik imkanlar baxımından əlverişli ərazidə - yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir. Bu da investorların diqqətini cəlb edən şərtlərdəndir. Çünki həmin yollar Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq. Bu da imkan verəcək ki, sənayeləşmə prosesi nəzərdə tutulduğu kimi mərhələlərlə həyata keçirilsin. İlkin mərhələdə sənaye parkına 32, 7 milyon manat investisiya qoyulacaq, burada 420-dən çox daimi iş yeri yaradılacaq.

Görülən işlər bölgənin qeyri-neft sənayesinin sürətli inkişafında böyük rol oynayacaq. Eyni zamanda məhəllələr respublikamızın ixrac potensialının artırılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabət qabiliyyətli sənayenin inkişafına, ölkəyə valyuta axınının və investisiyaların artmasına əlavə imkanlar açacaq. "Yaşıl enerji" və təmiz ətraf mühit, sənaye və kənd təsərrüfatının kompleks inkişafı, eləcə də turizm potensialından geniş istifadə kimi məsələlər önə çıxacaq. Bütün bu layihələri həyata keçirmək üçün 200 hektar ərazini əhatə edən sənaye parkının prioritet istiqamətləri olaraq logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin və s. təşkili müəyyənləşdirilib.

"Araz Vadisi İqtisadi Zonası" sənaye parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. Parkın ərazisi tam olaraq minalardan və hərbi sursatlardan təmizlənib. Burada fəaliyyət göstərəcək işçilərin və sahibkarların rahatlığının təmin edilməsi üçün mobil şəhərcik salınıb. Şəhərcikdə yataqxana, yeməkxana, ofis, tibb məntəqəsi və aptek, market, qarışıq mallar mağazası, anbar, camaşırxana, bərbərxana, nəzarət buraxılış məntəqəsi quraşdırılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri görülüb.

Sənaye parkının ərazisində tikinti aparılacaq sahənin su ilə təmin edilməsi üçün subartezian quyusu qazılıb. Bundan əlavə, ərazidə 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb. Günəş enerjisindən qidalanan panellərdən istifadə edilməklə işıqlandırılan parkda topoqrafik və mühəndis-geoloji tədqiqat işləri də yekunlaşıb. Hazırda inzibati binanın tikintisi işləri, rezidentlər üçün infrastruktur sisteminin qurulması, əraziyə dəmir yolu xəttinin çəkilməsi üçün layihələndirmə istiqamətində işlər görülür.

Azərbaycanda fəaliyyət göstərən digər sənaye parklarında olduğu kimi, "Araz Vadisi İqtisadi Zonası"nda da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, parkın rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s.) təmin edilir, qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak və torpaq, gəlir və ya mənfəət vergilərindən, həmçinin istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar. Bunlarla yanaşı, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən rezidentlərə hər cür təşkilati dəstək tədbirləri göstərilir. Bunlar da hələ hamısı deyil. Bu ildən etibarən Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlar üçün əlavə güzəştlər tətbiq edilir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Goranboyda təbii fəlakətin fəsadları aradan qaldırılır



**Xəbər verildiyi kimi, Goranboy rayonu ərazisinə yağan güclü leysan yağışları və dolu çaylarda suyun səviyyəsini artıraraq fəsadlar törədib.**

Ümumilikdə 3436 təsərrüfatı əhatə edən 1 şəhər, 3 qəsəbə və 8 kəndə, o cümlədən Börü və Gürzallar kəndlərinin yol infrastrukturuna, Dəliməmmədli şəhəri, Aşağı Ağcakənd, Yuxarı Ağcakənd və Qazanbulaq qəsəbələrində, Borsunlu, Yəhərçi Qazaxlar, Sarov, Veyisli, Sarovlu və Muzdurlar kəndlərində bir neçə fərdi yaşayış evinə, iri və xırdabuynuzlu mal-qaraya, ev quşlarına və əkin sahələrinə ziyan dəyib.

Baş vermiş təbii fəlakətlə bağlı rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev əlaqədar yerli qurumların rəhbərləri ilə birgə Gürzalılar kəndində ziyan dəymiş fərdi təsərrüfatlarda olub, dəymiş ziyanın müəyyən edilməsi və fəsadların aradan qaldırılması ilə bağlı aidiyyəti şəxslərə tapşırıqlar verib. Rayon icra hakimiyyəti yanında Fövqəladə Hallar Komissiyası baş vermiş təbii fəlakət nəticəsində dəymiş ziyanın öyrənilməsi və fəsadların aradan qaldırılması istiqamətində işlərə başlayıb.

## Yeni yaşayış məntəqəsi qazlaşdırılır

**Regionların sosial-iqtisadi inkişafı IV Dövlət Proqramı çərçivəsində Şəmkir rayonunda da davamlı olaraq infrastruktur və sosial layihələr icra edilir.**



Bu sırada "Azəriqaz" İstehsalat Birliyi tərəfindən rayonun yaşayış məntəqələrinin qazlaşdırılması, habelə qaz təchizatı sisteminin yenidən qurulması ilə bağlı işlərə start verilib. Aşağı Seyfəli kəndində 300 abonentin məskunlaşdığı yeni yaşayış massivinin qazlaşdırılması üçün layihə üzrə ümumi uzunluğu 4161 metr olan ana xəttin və ümumi uzunluğu 7 767 metr olan daxili qaz xətlərinin çəkilməsi işləri aparılır. Qaz xətlərinin çəkilişi başa çatdırıldıqdan sonra abonentlərin mənzillərinə qaz sayğacının quraşdırılmasına başlanacaq.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Qubada Vətən müharibəsi qazilərinin ev şəraitləri yaxşılaşdırılır

**Bir müddət əvvəl Ərməki kənd sakini qazi Elgün Nəsrullayevin ev şəraiti yaxşılaşdırıldı. Elgünün toy məclisi də rayon rəhbərliyinin dəstəyi ilə keçirildi. Heydər Əliyevin doğum günündə qaziyə Quba şəhərində təmtəraqlı toy edildi.**

Bu günlər rayonun Alpan kəndində yaşayan qazi, 2-ci qrup əlil Fərid Əmiyev səyyar qəbul zamanı ev şəraitinin yararsız olduğunu bildirmişdi. Rayon rəhbərliyi Alpan kəndinə gəlmiş və qazinin yaşayış şəraiti ilə yerində tanış olmuşdur. Rayon icra hakimiyyətinin başçısı Ziyəddin Əliyev Fəridin evinin inşasının başa çatması üçün lazım olan köməyin ediləcəyini bildirmiş və yerindəcə tədbirlər görmüşdür.

Qazi Fərid ailəsinə kömək edənlərə minnətdarlığını bildirir. Vurğulayır ki, dövlətin göstərdiyi qayğıkeşlik insanların həm maddi, həm də mənəvi rahatlığının təminatıdır: "Bütün bunlara görə sağ olun!"

Rayon icra hakimiyyəti isə belə tədbirlərin davamlı olacağını deyir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Salyanda 8 kəndi magistralla birləşdirən yollar yenidən qurulur

**Salyan rayonunun Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistralını Şorsulu, Boranıkənd, Seyidlər, Dayıkənd, Sarvan, Bəydili, Qızılağac və Alçalı kəndləri ilə birləşdirən avtomobil yolları əsaslı şəkildə yenidən qurulur.**

Ümumi uzunluğu 33 km olan yolda işlər layihə üzrə texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək sürətlə aparılır.

Yolların eni 8,5-9 metrə qədər genişləndirilir. Bura 6 metr hərəkət hissə və 1-1,5 metr çiyinlər daxildir. Aparılan genişləndirmə işləri öz növbəsində bütün hərəkət iştirakçılarının normal və təhlükəsiz hərəkətinə hesablanıb.

Artıq sadalanan işlər layihənin 4 km uzunluğa malik Boranıkənd hissəsində yekunlaşıb. Hazırda bu hissədə yol əsasının tikintisi icra olunur. Sözügedən yolun 2 km-lik hissəsində əsasın alt qatı artıq inşa edilib.

Layihənin ümumi uzunluğu 3 km təşkil edən Dayıkənd və Sarvan kəndləri hissələrində torpaq işləri, yararsız qruntun qazılması, torpaq yatağının genişləndirilməsi işləri davam edir. 2,5 km uzunluğa malik Şorsulu kəndi hissəsində isə qazıntı işləri icra olunur.

Layihənin sonuncu mərhələsində km göstəricisi, yol nişanı və avtobus dayanacaqlarının quraşdırılması və yolun üfüqi nişanlanma xətlərinin çəkilməsi ilə sözügedən yollarda müasir yol infrastrukturu yaradılacaq və vətəndaşlarımızın istifadəsinə veriləcək.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*



## Müasir dövrdə aqrar sektorun inkişafı innovasiyaların tətbiqindən asılıdır

**Müasir dünyada aqrar sektorun inkişafı yeniliklərin və innovasiyaların tətbiqi üzərində aparılır ki, bu da səbəbsiz deyil. İldən-ilə kənd təsərrüfatı məhsullarına tələbat artır, bazar qiymətləri də təbii ki, bu artıma "laqeyd" qalmır. Üstəgəl istehsalı artırmaq üçün bahalı texnika və innovasiyaların tətbiqi.**



Bəs ölkəmizin aqrar sektoru zamanın nəbzi ilə ayaqlaşa bilirmi?

2004-cü ildən bəri Azərbaycanda regionların sosial-iqtisadi inkişafına dair müvafiq dövlət proqramları icra edilir. Bu hesaba aqrar sektorun siması müasirləşir, tətbiq olunan yeni texnologiyaların, müasir kənd təsərrüfati sistemlərinin siyahısı genişlənir. Artıq bölgələrdə fermerlərə bir sıra zəruri xidmətlər məhz elektron platformalar üzərindən təqdim olunur və yeni tətbiqlərin hesabına bu prosesin əhatə dairəsi və sürəti artır. Nəticədə geniş şaxələnmənin və bir çox sahədə məhsuldarlığın artmasını müşahidə edirik. Ən vacibi isə odur ki, vətəndaş-məmur münasibətlərinin intensivliyi minimuma enir, operativlik artır. Bir sözlə, onun şahidi oluruq ki, kənd təsərrüfatında müxtəlif aqrar xidmətlərin innovativ texnologiyalar üzərindən təqdimatı işlərin səmərəli qurulmasına imkan verir. Bürokratik maneələr tədricən aradan qalxır, şəffaflıq təmin olunur, əlavə vaxt itkisi tədricən aradan qaldırılır.

Azərbaycanda innovasiyaların tətbiqində müşahidə edilən tendensiyalardan biri də fermerlərin köməyinə yerli istehsal olan aqrorobot qurğularının gəlməsidir. Kənd Təsərrüfatı Nazirliyi bildirir ki, tətbiq edilən sensorlar əkin sahələrində torpağın nəmliyi, qida maddələrinə olan ehtiyacı və digər məlumatları almaq və ötürmək qabiliyyətinə malikdir. Bu isə ona imkan verir ki, bitkiçilikdə maddi və əmək resurslarına, həmçinin suvarma suyuna əhəmiyyətli dərəcədə qənaət edilsin, habelə daha keyfiyyətli və bol məhsul almağa zəmin yaransın.

Bu gün ölkəmizin aqrar sektorunda tətbiq edilən innovasiyalar xaricdən ixrac olunmaqla yanaşı, həm də yerli mütəxəssislər tərəfindən hazırlanır. Qeyd etmək vacibdir ki, müasir kənd təsərrüfatı texnikası, texnologiya və avadanlıqların yerli imkanlar hesabına istehsalı və tətbiqi dövlət tərəfindən ciddi stimullaşdırılır. Məsələn, Aqrar İnnovasiya Mərkəzi ilə "İdrak Texnoloji Transfer" MMC birlikdə heyvandarlıqda yaşıl yem istehsalı üçün hidroponika üsulu ilə istehsal edilmiş yem konteyneri hazırlamışdır. Bundan əlavə, aqrorobot qurğularının tətbiq ediləcəyi gün də uzaqda deyil. Artıq onların təqdimatı keçirilmişdır. Bütün bunlar onu deməyə əsas verir ki, kənd təsərrüfatı innovasiyaları və aqrar innovasiya sistemləri aqrar sektorun müxtəlif sahələrinə nüfuz etmək, istehsal olunan məhsulların çeşidini şaxələndirmək, qidalılıq dəyərini artırmaq imkanlarına malikdirlər.

Azərbaycanda innovasiya sistemlərini bir neçə yerə bölmək mümkündür. "Məhsul innovasiyaları" inkişaf etmiş toxum sortlarını və heyvan cinslərini, kənd təsərrüfatı maşınlarını, suvarma sistemlərini, binaları və yeni funksional xüsusiyyətlərə malik qidaları əhatə edir. "Seleksiya" isə kənd təsərrüfatı bitkilərinin yeni sort və hibridlərini, heyvan növləri və quşların çarpazlaşdırılmasını, zərərvericilərə davamlı bitki və heyvan növlərini əhatə edir. Aqrar sektorda geniş tətbiq edilən müasir və dəqiq texnologiyalardan biri də normallaşdırılmış fərqli veqetativ indeks (NFVİ) analizidir. Bu, əkin sahələrinin səmərəliliyinin artırılması, maya dəyərinin azalması, ətraf mühitin qorunması və məhsulun artırılmasına yönəlmiş texnologiyadır.

Beləliklə, aydın görünəni odur ki, bu gün kənd təsərrüfatı sahəsində innovasiyaların tətbiqi aqrar sektorun dinamik inkişafını şərtləndirən əsas amillərdəndir. Amma həm innovativ inkişaf elm tutumludur, həm də böyük həcmdə investisiya tələb edən prosesdir. Ona görə də ölkə iqtisadiyyatının aqrar sektorunda innovasiya mühitinin yaradılması, innovativ texnika və texnologiyalara əlçatanlığın artırılması və yeni texnologiyalara adaptasiyanın sürətləndirilməsi üçün dövlətin dəstəyi vacibdir. Azərbaycanın bu sahədə son illər qazandığı təcrübə nəinki özümüzə böyük fayda gətirir, həm də bütün dünyanın marağına səbəb olur. Bu yaxınlarda Macarıstanda ölkəmizin aqrar sahədəki dövlət dəstək mexanizmləri barədə təqdimatın keçirilməsi bunu sübut edir. Təqdimatda dönədönə vurğulanmışdır ki, Azərbaycanın bu sahədəki nailiyyətləri müsbət nəticə kimi tətbiq edilir və öyrənilir.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Daşkəsəndə kənd təsərrüfatı məhsulları istehsalının artacağı gözlənilir

**Daşkəsən dağlıq ərazidə yerləşdiyindən burada əkinçiliyin inkişaf etdirilməsi elə də asan deyil. Ona görə də istehsal edilən bütün məhsulların rentabelli olması üçün mövcud imkanlardan maksimum istifadə edilir.**



Rayonun əkinçiləri əsasən kartofçuluq, tərəvəzçilik, qismən də taxılçılıqla məşğul olurlar. Bu məhsulların hamısı dəmyə şəraitində yetişdirilir. Yerli iqlim şəraiti ilə əlaqədar cari il Daşkəsəndə əkin işlərinə bir qədər gec, aprel ayından başlanılmışdır. 1000 hektardan artıq sahədə müxtəlif bitkilər əkilmişdir. Bunun 605 hektarı yazlıq və payızlıq dənli bitkilər, 349 hektarı kartof, 38 hektarı tərəvəzdir. Fermerlər havaların əlverişli keçməsindən istifadə edərək əkilmiş məhsullara aqrotexniki qaydalarla qulluq edirlər.

Daşkəsən Aqrar İnkişaf Mərkəzinin direktoru Rahil Həsənovun dediyinə görə, bu il Daşkəsəndə daha çox kənd təsərrüfatı məhsulu istehsal olunacaq. Bunun üçün istehsalçılar dövlətin onlar üçün yaratdığı şəraitdən maksimum istifadə etməyə çalışırlar.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 10 dekabr (Çərşənbə axşamı günü) tarixli 61-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Səşənbə, 6 rəbiüləvvəl sənə 1337.
10 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## TELEQRAF XƏBƏRLƏRİ

### Qarabağda

Ağdamdan Azərbaycan Hökumətinə böylə bir teleqraf çəkilmişdir:

İngilis və fransız heyəti, Andraniklə məhəlli [yerli] ermənilərin müsəlmanlar əleyhinə heç bir təcavüzdə bulunmayacaqları vədinə zamin olduqdan sonra, dünən Tərtərə varid olmuşdur [gəlmişdir].

Dünən Şuşadan rəsmi xəbər alınmışdır ki, ermənilər Zabux dairəsində müharibə başlayıb, bir neçə evləri yandırmışlar. Şuşa və Əsgəran ətrafında olan dağlarda 400-500 nəfərdən ibarət müsəlləh [silahlı] erməni dəstələri zahir olmuşlardır. Müttəfiq dövlət nümayəndələrinin və ermənilərin vədi məlum olduğu kimi, əhval dəxi də fənalaşmışdır. Ermənilərə məlumdur ki, Türkiyə əsgərlərinə ermənilərə güllə atmamaq əmri verilmişdir. Bu şəraitlə [bu şərtlərdə] şübhə yoxdur ki, Şuşa asanlıqla ermənilərin tö'məsi [yemi] olacaqdır. Erməni dəstələrinin Şuşa və Əsgəran yaxınlığında nümayan olmaları [görünmələri] yolu bağlamaq arzusu ilə həll [izah] edilir. Şuşanın özündə bir çox ermənilərin əsgəri libasda zahir olmaları həyəcana bais olub, silah daşımağa qadir olan müsəlmanları şəhəri tərk etməyə məcbur etmişdir. Bu tövr kəskinləşmiş halət çox davam edə bilməz. Xahiş edirik, ingilis və Türkiyə komandanlığı sazişə girəsiniz və bir çarpışma üz verdikdə, bu çarpışmanı dəf etmək üçün türklərə müsaidə [icazə] verilməsinə nail olasınız. Bununla bərabər xahiş edirik Tomsona bəyan edəsiniz ki, bu əhvalı nümayəndələrlə deyil, ancaq onun özünün iştirakı və ciddi tədbirləri ilə xilas etmək olar.

*Milli Komitə üzvləri:*
*Y. Musayev, Əli bəy Behbudov*

### Gürcü Teleqraf Acentəliyindən

* Vladiqafqaz simsiz teleqraf stansiyası Nauendən böylə bir teleqraf qəbul etmişdir: Almaniyanın sabiq Kronprinsi Hollandiya sərhədində qaçmaq istədikdə, alman revolyusionerləri tərəfindən güllələnmişdir.

* Müttəfiq dövlətlərin dəniz qüvvələri Sevastopoldadır.

* Almaniya əsgərləri şərqi əyalətləri təxliyə etməkdədirlər. Hal-hazırda Livoniyada alman əsgərləri Dvina nəhrini keçməkdədirlər. Krımda olan alman əsgərləri Sevastopoldan dəniz təriqi [yolu] ilə Nikolayevə hərəkət edirlər ki, sonradan dəmiryol ilə azim olacaqlar [hərəkət etsinlər].

### Royter teleqrafları

* Lehistan əsgərləri ukraynalıları əzərək Brest-Litovsk və cənubundakı yerləri işğal etmişlərdir.

* Türkiyənin hamı hərbi gəmiləri Müttəfiqlərə təslim edilib, İstanbula cəm edilmişlərdir. "Qyoben" gəmisi ilə dörd alman sualtı qayığı və Rusiya Qara dəniz donanması dəxi Müttəfiqlərə təslim edilmişdir.

* Çörçil Dandidə söylədiyi nitqində demişdir ki, İngiltərə nümayəndələri Sülh Konfransında bütün Avropada məcburi olan mükəlləfiyyəti-əsgəriyyənin [hərbi mükəlləfiyyətin] ləğvini tələb edəcəklərdir.

* Belçika kral və kraliçası Parisə varid olmuşlardır [getmişlər]. Yelisey sarayında onların şərəfinə kəşidə edilən [tərtib edilən] ziyafətdə təbrik nitqləri söylənmişdir.

* Lord Robert Sesil ingilis Cəmiyyəti-Əqvam [Millətlər İttifaqı] şöbəsi başçısı sifəti ilə Sülh Konfransında iştirak edəcəkdir.

* Vilson Konqreni [Konqresi] açdıqda, bahar fəslində sülh elan ediləcəyi ümidini izhar etmişdir [bildirmişdir]. Dənizlər üçün təzə məramnamə hazırlanması arzu edilir. Çünki, Amerikanın məramnaməsini gələcək ümumcahan siyasətinə tətbiq etmək rəva deyildir.

* Berlində bolşevik inqilabı təyid [təsdiq] olunmayır. Biləks [əksinə], Amsterdam teleqrafı xəbər verir ki, cəbhədən gələn xassə alaylar [qvardiya alayları] Ebert Hökuməti tərəfinə keçmişlərdir.

* "L. A." qəzetəsi deyir ki, Hollandiya Hökuməti, kayzeri Müttəfiqlərə verməkdən qəti surətdə imtina etməlidir.

## QƏZETƏLƏRDƏN

* General Denikin Zaqafqaziya Milli Şurası nümayəndələrinə xəbər vermişdir ki, rusların rus təbəəsi olduqları bəyanatını nəzərə almayıb, gürcü əsgərləri cərgəsinə dəvət edilmələrini səhv və tezliklə ləğv edilməli əd [hesab] edir.

* Xarici İşlər Nəzarətindən [Nazirliyindən] alınan xəbərlərə görə, Müttəfiqlər bolşeviklərlə mübarizə etmək üçün Yassıda müfəssəl bir plan hazırlamışlardır. Müttəfiq dövlət əsgərlərinin üssül-hərəkəsi [bazası, hərəkət mərkəzi] Ukrayna olacaqdır. Müttəfiqlər Ukrayna, Murman və Pribaltik tərəflərindən Petroqrad üzərinə hücum edəcəklərdir. Müttəfiqlər birinci növbədə Moskvanı işğal etməyə çalışacaqlardır.

* "P. K." qəzetəsi xəbər verir ki, təşrini-saninin [noyabrın] 8-ində Kiyevdə bolşevik simsiz teleqrafından bu sözlər tapılmışdır: "İmperialistlər Baltik dənizində ağalıq edib, Kronşdadtı güllələyirlər."

* Romaniyadan Kiyevə iki dəstə Amerika zabitləri gəlmişlərdir. Verilən xəbərlərə görə, Amerika zabitləri izhar etmişlər ki, iki həftədən sonra Kiyevə iki Amerika əsgəri firqəsi [diviziyası] gələcəkdir.

* General Bertlonun komandası altında Novı Bessarabiyada Müttəfiq dövlət dəstələri Tuna nəhrini keçib Odessaya hərəkət edirlər.

### Tersk oblastında

"Yedinaya Rossiya" qəzetəsi Tersk oblastında vaqe olan hadisələri böylə yazır:

Qafqaziya ordusu komandanının qardaşı G. F. Biçeraxov tərəfindən Kazak Xalq Şurası paytaxtı elan edilən Mozdok şəhərinin bolşeviklər tərəfindən zəbt edilməsi haqqında ən mövsuq [mötəbər] xəbərlər alınmışdır. Tersk oblastında çoxdan bəridir ki, hadisələr vaqe olmaqdadır. Könüllü orduya çoxdan məlumdur ki, Tersk kazakları bolşeviklər tərəfdarı olmasalar da, hər halda bolşevizm fikri kazaklar arasında möhkəm bina salmışdır. Bolşevizmlə zəhərlənmiş kazakların bir hissəsi də bolşeviklərlə həvəssiz mübarizə edir. Ancaq Tersk kazaklarının az bir hissəsi bolşeviklərlə ürəkdən mübarizəyə qalxmışdır. Böyük zəhmətlərdən sonra Kazak Xalq Şurası öz arasından Müvəqqət Hökumət intixab etmişdir [seçmişdir]. Bu hökumət heyətinə G. F. Biçeraxov, Pyatiqorsk şəhər rəisi Orlov və bir nəfər Semyonov nam [adlı] daxil olmuşlardır. Bu hökumət 18-dən 55 sinnə [yaşa] qədər olan kazakları silah altına dəvət edib, böyük bir ordu vücuda gətirmişdir. Bu ordu ədədcə artıq idiysə də, lakin ordu arasında bolşevizm ruhu olduğundan, təşkilat cəhətdən xeyli zəif olub əməliyyati-hərbiyyəni idarə edici başçıları yox idi. Hərçənd, rəsmi surətdə əməliyyat işləri general Mistulovun əlində idiysə də, həqiqətdə bütün işləri Biçeraxov iki nəfər yoldaşları ilə idarə edirdi.

Təşrini-saninin [noyabrın] ibtidalarında [əvvəllərində] Tersk ordusu xəbər almışdır ki, Könüllü ordu Mədən Sularında olan bolşeviklər əleyhinə hücuma keçəcəkdir. Tersk ordusu da var qüvvəsi ilə çalışıb, bolşevik əsgərlərinə müsəlləh [silahlı] surətdə Svyatoy Krestə çəkilmək imkanını verməməli idi. Tersk ordusu bu vəzifəni öhdəsinə almışdı. Sol cənahda bir dəstə qoyulmuşdu ki, Kabarda vasitəsi ilə Könüllü ordu, Kirovun osetin dəstəsi və Serebryakovun komandası altında olan kabardin dəstələri ilə münasibatı [əlaqəni] saxlamışdı. Təşrini-saninin 5-ində Tersk ordusu öz vəzifəsi ifası üçün bolşeviklər əleyhinə hücuma başladıqda, düşmənin ədədcə artıq və mükəmməl surətdə silaha malik olması anlaşılmışdır. Tersk ordusu hücumu bolşeviklər tərəfindən dayandırıldıqdan sonra, bolşeviklər özləri hücuma keçib Tersk ordusunu Proxladnıya və daha da geriyə çəkilməyə məcbur etmişlərdi. Tersk ordusunun geri çəkilməsinə ümdə səbəblərdən biri də kazaklar arasında olan bolşevik təşviqatçıları olmuşlardır. Bunlar kazakları inandırmışlar ki, kazakların bolşeviklərlə heç bir işləri olmayıb, ancaq onlar ələlümdə [əsasən] əksinqilabçılarla mübarizə edirlər. Bolşeviklər öz qalibiyyətlərinə ümidvar olub az bir qüvvə ilə hərəkət edirmişlər. Tersk kazakları geri çəkilməkdə davam edib, az bir müddət ərzində Mozdoka qədər çəkilmişlərdir. Tersk Hökuməti burada bolşeviklərə müqavimət göstərmək istəmişdir.

Məlum olduğu üzrə, Mozdok şəhəri də az bir müddətdən sonra süqut etmişdir. Mozdok əhalisinin halı məlum deyildir. Zənn edildiyinə görə, Müvəqqət Hökumətlə əsgərlər Kizlyara çəkilmişlərdir. Kazak Xalq Şurasının tarixi bu qərar üzrə qurtarmışdır.

Nəql edirlər ki, Tersk ordusu komandanı general Mistulov bolşeviklərin hücumunu bildikdən sonra ağlaya-ağlaya öz kazaklarının yanına gəlib, onlardan bir hissəsinin bolşeviklər əleyhinə hücuma razı olduqlarını xahiş etmişdir. Lakin, bolşevik təşviqatçılarının sayəsində kazaklar hücuma razı olmadıqda general, kazakların yanındaca özünü öldürmüşdür.

General Kolesnikovun dediyinə görə, Proxladnı işğal edildikdə bolşeviklər cavan kazakları qırıb, arvadların və qızların namusuna təcavüz etmişlərdir. Bolşeviklərin cənuba tərəf hücum edəcəkləri xəbərləri yalandır. Mövsuq [etibarlı] xəbərlərə görə, bolşeviklər bu qış fəslini rahat keçirməkdən ötrü Tersk oblastını zəbt etmişlərdir.

**Fransa nümayəndəsi**

Fransa zabiti Şardinye Bakıdan Tiflisdəki Ermənistan mürəxəssliyinə [nümayəndəliyinə] xəbər vermişdir: Ən yaxın zamanda Ermənistana Fransa nümayəndəsi gələcəkdir.

**Suxumda ingilislər**

Təşrini-saninin [noyabrın] 29-da İngiltərə minanosu [torpedo gəmisi] eskadrası müdiri öz məiyyəti ilə [müşayiət edənlərlə] Suxuma varid olmuşdur [gəlib çatmışdır].

**Potidə ingilis vaporları**

Təşrini-saninin 30-da Suxuma getmiş ingilis hərbi vaporları Potiyə gəlmişlər.

## PARLAMAN ƏTRAFINDA

Bakı Erməni Milli Komitəsi Azərbaycan Rəisi-vükəlasına [Baş nazirinə] böylə bir ərz-hal göndərmişdir:

*"25 noyabr 1918-də Hökumət, Erməni Milli Komitəsinə təklif etmişdir Azərbaycan Parlamanında iştirak üçün beş məbus [millət vəkili] göndərsin. Bunun cavabında Erməni Milli Komitəsi məzkur [deyilən] məsələni müzakirə edərək, Azərbaycanda ermənilərin imdiki vəziyyət və həyatı şəraiti altında Parlamana məbus göndərməyi qeyri-mümkün əd [hesab] etdi. Azərbaycan Parlamanı bir zamanda açılır ki, Bakı erməniləri külli miqdarda dinc erməni əhalisinin ancaq Müttəfiqlər qoşunu vürudu [gəlişi] ilə xitam-pəzir olmuş [sona çatmış] qırğın və talanına bais müdhiş sentyabr hadisəsini keçirmiş və bu günədək minlərcə erməni əsiri külli tələfatı mövcib [itkilərə yol açan] ağır şərait altında qalmaqdadırlar. Bu hadisələrdən dolayı, Bakı erməni [əhalisi] müğayiri-insaniyyət [insanlığa sığışmayan] dəhşət və kabus keçirməklə bərabər, vəziyyət və şəraiti-hazirə [hazırkı şərtait] imkan versəydi, erməni milləti nahiyənin mədəni quruluşunda birgə çalışmaq üçün Parlamana daxil olmağı mümkün əd [hesab] edərdi. Fəqət, Bakı erməniləri, siyasi və milli-mədəni mənafecə Azərbaycanın sair yerlərindəki ermənilərlə ayrılmaz bir rabitədədir. Halbuki, bir ildən bəri cəbrən [zorla] və qəsdən yol bağlanıb sərbəst gediş-gəliş kəsildiyindən, öz camaatının kökünü və əksəriyyətini təşkil edən qismi ilə əlaqəsi kəsilmiş olduğundan, bittəb' [təbii ki], qabaqca onlarla bir yerdə mühüm məsələləri və övzanı [vəziyyəti] müzakirə etmədən və sair ermənilərin qərar və təsəvvüratını [fikirlərini] bilmədən, Bakı Erməni Milli Şurasının imkanı və ixtiyarı yoxdur [ki], Parlamanda ümumi erməni mənafeyini nümayiş etdirsin və onların ehtiyacatının qanuni müdafeyi [müdafiəçisi] olsun. Buna görə, Bakı Erməni Milli Şurası Azərbaycan türklərinin kəndi müqəddəratını kəndi əlinə almaq və sərbəst milli-mədəni tərəqqi hüququna malik olduğunu etirafla [qəbul edərək], şəraiti-hazirə mövcibincə [hazırkı şərtlər daxilində] Azərbaycan Parlamanına nümayəndə göndərməkdən imtinaya məcbur olur.*

*Sədr, Şura müdiri, katib."*

---

Həman iclasda isbati-vücud [iştirak] edən İctimaiyyuni-İnqilabiyyun Firqəsi [Sosialist İnqilabçılar Partiyası] nümayəndəsi, komitənin qəbul etdiyi bu qərarnamənin məzmununa kifayət etməyərək, sosial-revolyusionerlər namından [adından] böylə bəyanat vermişdir:

*"Sosial-revolyusioner firqəsinin Bakı təşkilatı, Azərbaycan türklərinin müqəddərati-milliyyələrini öz əllərinə almaq ideyasını təbrik edir. Türklər öz müqəddəratlarını müttəhid [birləşmiş; vahid] Rusiya Federasyonu daxilində öz əllərinə almalıdırlar. Azərbaycan Cümhuriyyəti, zəhmətkeş xalqın tərəqqisini o vaxt təmin edə bilər ki, böyük Rusiya Federasyonunun müsaviül-hüquq [bərabərhüquqlu] bir üzvü olsun. Azərbaycan Parlamanı ancaq məhəlli [yerli] parlaman, müttəhid Rusiya Parlamanı ola bilər. Milli parlaman olmaq üzrə o vaxt səlahiyyətdar olar ki, demokrasi əsaslar üzərinə seçilsin. Bu mülahizə ilədir ki, biz Azərbaycan Cümhuriyyətinin istiqlalını qəbul edəmməriz və şimdiki əsasla çağırılmış Parlamanı nə həqiqi hakimiyyətə malik, nə də məhəlli parlaman deyə tanıya bilmərik. Biz var qüvvəmizlə çalışacağız ki, Azərbaycan Cümhuriyyəti Rusiya Federasyonunun bir üzvü olsun və Azərbaycan müqəddəratını dürüst əsaslarla seçilmiş parlaman vasitəsilə demokratiya [xalq] təyin və həll etsin. Ermənisan, Gürcüstan və sair cümhuriyyətlərə də qarşı bizim rəftarımız eynidir."*

## BÜTÜN AZƏRBAYCAN VƏTƏNDAŞLARINA

Millətdaşlar! Vətəndaşlar!

Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanının açıldığı münasibətilə sizləri təbrik ediriz.

Təbrik ediriz azəri türklərini ki, ürəklərinin dərin guşələrində əzizlədikləri böyük əməlləri [arzuları] hasil olubdur.

Təbrik ediriz müsavat məfkurəsi ilə mə'nus olan [bərabərlik məfkurəsinə isinişmiş] millətdaşlarımızı ki, bu gün onlar Azərbaycan fikrinin qövldən feilə [sözdən işə] gəlməsini göstərən bir böyük vəq'əni [hadisəni] dəxi seyr edirlər.

Təbrik ediriz firqəçi yoldaşları ki, qaldırdıqları Azərbaycan bayrağı bu gün millət vəkillərinin başları üzərində pərçəməndaz olur [dalğalanır].

Təbrik ediriz bütün vətəndaşları ki, haqq, ədalət və müsavat nigahbanı [keşikçisi] olan bir müəssiseyi-hürriyyət təşkil olunur.

Əvət, böyük fikrin, fikri-istiqlalın, Azərbaycan hürriyyət və istiqlalının arzukeşləri [arsusunda olanlar] sevinsin! Bu arzu yolunda şəhid düşən, bu arzu ilə ölən millətdaş və vətəndaşların da ruhu şad olsun.

Azərbaycan Məclisi-Məbusanı açılır. Fəqət, vətəndaşlar, biliniz ki, bu gündən bizə böyük və olduqca müşkül imtahan günləri başlayır. Azərbaycan Məclisi-Məbusanı bizə bir imtahandır. İmtahan göstərməliyiz. Həddi-rüşd və büluğa yetmiş [həddi-büluğa çatmış] vətəndaşlar olduğumuzu isbat etməliyiz. Bu imtahanı millətin vəkilləri, vəzirləri [nazirləri] verdikləri kimi, millət özü də bu imtahana girməlidir. Millət, Məclisinin dalında durmaz, onun qərarlarına tabe olmaz, onun ehtiramını saxlamazsa, biliniz ki, vətəndaşlar, Məclis öz-özünə heç bir şey edə bilməz.

Bu gün hər şeydən əvvəl Azərbaycan istiqlalını qurtarmaq lazım. Çünki, olduqca ağır bir vəziyyət, müşkül bir əmr [hal; iş] altındayız. Bunun üçün də daxili nizaları [çəkişmələri] şiddətləndirməyərək bütün firqələr birləşməli, vətən və hürriyyəti-vətən [vətənin azadlığı] naminə birləşməlidirlər.

Beşinci ilə varan millətlər qovğası indi xitama erir [sona çatır]. Bu müharibənin nəticəsində o müharibə qədər müəzzəm [əzəmətli] bir hadisə zühur edir. Millətlər, hürriyyət və istiqlal bayrağı açır. İstibdadlar yıxılır. Dünya xəritəsi yeni hökumətlərlə boyanır. Millətlər azad və müstəqil olacaq. Dünya azad millətlərdən ibarət bir "Cəmiyyəti-Əqvam" [Millətlər Cəmiyyəti] şəklinə girəcək.

Millətlərin hürriyyəti, millətlərin cəmiyyəti. İştə, bu günün siyasəti, bu günün şüarları!

Paytaxtımızda bulunan Müttəfiq dövlətlərin bayraqlarında dəxi bu cümlələr yazılıdır. Müttəfiqlər bu gün bayraqlarında yazılan bu şüarı bilfeil [əməli olaraq] haqqımızda tətbiq etməmişlərsə də, bilmisal bunun Sülhi-Ümumi Konqresində həll olunacağını rəsmən elan etmişlərdir.

Sülhi-Ümumi Konqresi, vətəndaşlar, istiqlal paylayacaq deyə düşünülməsin! Çünki bu, kəndisini aldatmaq olar. Konqre israr və istehqaqla [israrla və haqqı çataraq] istənilən istiqlalları təsdiq edəcək. Bunun üçün çalışalım, hər növ şəxsi mənfəətlərin üstünə çıxalım, özümüzü unudalım, millətimizi düşünəlim, Məclisimizlə müttəhid [bir, birgə] olalım! İşlərimizi, idarəmizi yoluna qoyalım! O zaman əmin olalım ki, haqqımızı alarız.

Vətəndaşlar! "Cəmiyyəti-Əqvam" beş sənəlik qital [qırğın] nəticəsində millətlərin vicdanından doğmuş öylə aləmlər işıqlandırıcı bir günəşdir ki, feyzi bütün aləmə şamildir. Çalışalım, səy edəlim, qardaşlar, ki Azərbaycan üfüqü bu günəşin üzünə hail [pərdə, örtü] olacaq buludlar və dumanlarla örtülməsin. Bu isə bizim əlimizdədir. Bunun üçün bütün firqələr müttəhid olmalı, bütün təbəqələr təhəmmül etməli [dözüm nümayiş etdirməli], Məclisi-Millinin dalında səddi-İsgəndər kimi durmalıdır.

İştə, vətəndaşlar, bu gün Azərbaycan Məclisi-Məbusanının açıldığı gündə sizi fədakarlığa, ittihada dəvət ediriz. Müttəhid və fədakar olalım tainki:

Yaşasın Azərbaycan Cümhuriyyəti!

Yaşasın Cəmiyyəti-Əqvam!

*Türk ədəmi-mərkəziyyət firqəsi*
*"Müsavat" Mərkəzi Komitəsi*

## ÖZGƏYƏ QUYU QAZAN ÖZÜ DÜŞƏR

Dörd-beş sənəlik aləmşümul [bütün dünyanı əhatə edən], qanlı, dəhşətli bir dövlətlər qovğasının şahidi olduq. Miləli-mütəməddinənin [mədəni millətlərin] bir-birinə və başqalarına etdiklər zülmü sitəmləri, cövrü cəfaları, vəhşiyanə hərəkətləri, pozulan müahidələri [sazişləri], yıxılan məbədləri, güclülər tərəfindən zəiflərin həqqi-həyatına olan təərrüzləri [hücumları], zəhərli dumanları, ağır topları, tankları və daha bilməm nələri gördük, eşitdik. Bunlar həp "cahangirlik" [imperializm] xülyasının səmərəsi idi. Böylə bir xülya, milyonlarca bəşər qanı tökdürdü. Müntəzəm şəhərləri, minlərcə kəndləri məzaristana döndərdi. Milyonlarca qızıl sərf etdirdi. Topraqları bəşər qanı ilə boyatdı. Fəqət, nəticə nə oldu? "Aləmə hakim olmaq" arzusu ilə yaşayanlar, fikirləri başqa millətləri əzmək, məhv etmək olanlar öz istədiklərinə nail ola bildilərmi? Xeyr, olammadılar. Hətta, imdiyə qədər xırda millətləri pənceyi-ahənini [dəmir pəncəsi] altında saxlayan hakimi-mütləqlərin özləri də ortadan qalxdılar. Xırda millətlər isə məhv edilmək əvəzinə öz hürriyyəti-şəxsiyyələrini, sərbəst və müstəqil yaşamağa haqlı olduqlarını qazanmaq üçün meydana atıldılar. "Ya şərəfli həyat, ya namusla ölüm" şüarı ilə silaha sarıldılar, qurbanlar verdilər və hələ verirlər. Böylə isə, heç mümkün deyil ki, yaxın bir zamanda xırda millətlərin hüquqi-ixtiyaratı özlərinə çatmasın. Heç mümkün deyil ki, şahidi olduğumuz bu böyük müharibə "böyük fikirlər" arzularda oyatmasın. Ədəbiyyat, sənət, fəlsəfə, hüquq, əxlaq və beynəlmiləl əlaqə bütün-bütünə başqa bir şəkil və rəng almasın.

Bu qanlı cəng-cidal qurtardığı və ümumsülh müahidəsi [sazişi] imzalandığı gün insanların dimağlarında [şüurlarında] böylə böyük təbədüllat [dəyişiklik] başlayacaqdır: artıq, aləmə hakim olmaq fikri bir fərziyyat olaraq qalacaqdır; artıq, kimsə qol qoyduğu beynəlmiləl müahidələri pozmağa cürət etməyəcəkdir; kimsə başqa millətlərin istiqlalına, hürriyyəti-şəxsiyyəsinə toxunmaycaqdır; artıq, "özünə rəva görmədiyin şeyləri özgəyə də rəva görmə" kimi əski həqiqət, kimsənin istehzasını mövcib [istehzasına səbəb] olmayacaqdır. Çünki, bəşər doğru yoldan çıxdığının, Cənabi-haqdan üz döndərdiyinin, zahiri təcəm-mülata [görünüşə] vaxtını sərf etdiyinin səmərəsini gördü. Təbiri-axərlə [başqa sözlə] fəlakətdən fəlakətə uğradı. "Yuxarı başa" keçmək fikrində oldu da, ən alçaq dərəkələrə [uçurumlara] düşdü. Başqalarını əzmək istədi də, özü əzildi. Çünki, bəşər doğru düşünməyirdi. Öz səadətini, həmnövünün [həmcinsinin] yıxılıb yaxılmağında görürdü. Fəqət, yıxdı, yaxdı da sərmənzili-səadətə [səadət mənzilinə] vasil olammadı və olammazdı.

Deməк, bu qanlı müharibə, bu fəlakət, bu inqilab, insanları "mənəviyyata" tərəf yönəldəcək, zəiflərin hüquqi-ixtiyaratına toxunmamağı öyrədəcək və "özgəyə quyu qazan özü düşər" kimi atalar sözünün dəyişilməz əxlaqi cahanşümul bir qanun olduğunu göstərmiş olacaqdır.

*Hüseyn Mirzəcamalov*

## PARLAMANIMIZ MÜNASİBƏTİLƏ

Keçən gün, 1337-ci tarixi-hicri ikinci rəbiül-əvvəldə Azərbaycan dövləti Parlamanının güşadı [açılışı] tamam Azərbaycan təbəələri üçün tarixi bir eydi-bimisal [misilsiz bayram] olduğu izharimin-əlşəmsdir [günəşdən də parlaq həqiqətdir]. Hər tərəfdən, hər şəhərdən, hətta qəsəbələrdən belə rəis Məhəmməd Əmin Rəsulzadə həzrətlərinin adına göndərilmiş teleqramları "Azərbaycan" qəzetəsinin sütununda, "Rossiya" otelində, tənha xüsusi nömrəmdə əyləşərək mütaliə edirdim. Hər bir yazılmış kəlmələr mənə təzə bir ruh verirdi. "Yaşasın, Azərbaycan istiqlaliyyəti!", "Yaşasın Azərbaycan Cümhuriyyəti!" sözlərini ürəyimdən keçirib qəzetəni ta axıra kimi mütaliədən keçirib də gördüm ki, bizim 170 min nüfusa malik o qədim, o mötəbər, o istiqamətli [mətin] Şamaxı şəhərinin cəmiyyəti-xeyriyyəsindən, milli komitəsindən, "Müsavat" şöbəsindən, "Nicat" şöbəsindən, şəhər idarəsindən əsla bir nişan, bir əlamət yoxdur və nə də görülməyir. Təcili düşündüm ki, ey dili-qafil, sənin vətənin viranə qalmış, sənin cəmiyyətlərin tarümar olmuş, cəmiyyətlər üzvlərinin çox hissəsi məhvü nabud olmuşdur [məhv olmuş, yox olmuşdur].

Bunu fikir etdikcə, tənha otaqda yetim uşaq kimi zar-zar ağlamağa başladım. Gözlərim çəhar ətrafı [dörd tərəfi] axtarırdı ki, bəs, hanı mənim yoldaşlarım, hanı mənim arxadaşlarım?

Eyvah! Onlardan daha bir də xəbər gəlməz.

Onlar özlərini, övladlarını, mal-əmlaklarını ilk addımda vətənə, millətə, Cümhuriyyətə qurban verdilər. Burası lövhdən [lövhədən] pozulmayan, yaddan fəramuş olunmayan [yaddan çıxmayan] bir şeydir.

Bu gün onların ruhları şadlanan bir gündür. Şad olsun o mərhum, mərhumələrin ruhları.

Əvət, mən, Cəmiyyəti-Xeyriyyə üzvlərindən, Milli Komitə əzasından, "Nicat" şöbəsinin və "Müsavat" şöbəsinin tərəfindən, mən Şəhər İdarəsinin üzvlərindən olub da özümü bizzat vicdanən borclu bilib, həman cəmiyyətlər tərəfindən və Şəhər İdarəsi namından [adından], bəlkə bilümum [bütün] vətəndaşlarım tərəfindən Azərbaycan Parlamanının bunca təntənəli surətdə güşadını təbrik edib, deyirəm:

Yaşasın Azərbaycan dövləti!

Var olsun Azərbaycan istiqlaliyyəti!

Paydar, bərqərar olsun [var olsun, əbədi olsun] Azərbaycan Cümhuriyyəti!

*Əhməd bəy Atamalıbəyli*

## MİLLİ QAYƏMİZ

Coğrafiya alimlərinin təyininə nəzərən, Qafqaziya dağları Balkan silsiləsinin bir hissəsi olub, sonradan vücuda gəlmiş Qara dəniz vasitəsilə bir-birlərindən ayrılmışlar. Əslən bu iki ölkənin dağları bir müttəsil [ardıcıl] silsilə təşkil edirlərmiş. Təbiətin bu qanunu siyasi üfüqümüzə də təsir edərsə, yəni Qafqaziya yalnız cəhəti-coğrafiyyədan deyil, siyasətcə də Balkanların mabə'di [davamı] olarsa, eyvah!

Bu bir fikirdir ki, Qafqaziyanı sevən vətəndaşları təşvişə salıb, ciddi təlaşa düşürməlidir. Balkan demək, siyasət şahmatının taxtası deməkdir. Mədəni Avropa, Şərq aləminə yürütmək istədiyi hər bir cərəyanı Balkan pəncərəsindən yürütməyə adət etmişdi. Odur ki, bir çox nahaq müharibələrə meydan olmuş Balkan, adəta bir millətlər məzaristanı olub qalırdı. Hər bir daşı qaldırsanız onun altında ya bir türk şəhidi, yaxud sair balkanlı millətlərin bir nəfərinin qəbrini bulursunuz. Türklər, bolqarlar, serblər, yunanlar müharibə edir, bir-birlərini tələf edirlərdi. Nəticədə isə özgələri qazanırdı.

Köhnə Rusiya ortalıqdan qaldırıldıqdan sonra, Balkan əhəmiyyəti-siyasiyyəsini bir dürlü qaib etdi [itirdi]. Fəqət, onun yerini imdi də onun təbii mabə'di Qafqaziya tutacağı görünür kimidir. Balkanlarda dağıdılmış əqrəb yuvası imdi də bizim vətənimizdə toplanmaq istəyir. Lakin, son beş sənə çox böyük təcrübələr verdi, pək böyük şeylər öyrətdi. Müharibədən əqdəm [qabaq] bəzi xırda millətlər özgələrin siyasətlərinə vasitə olmaqla bir çox hadisələr törəyirdisə də, imdi artıq millətlərdən bunu bəkləmək olmaz. İmdi hamını danışdıran, hərəkət verib siyasi meydana tullanmağa vadar edən yalnız "istiqlaliyyət" məsələsidir. Müstəqil olmaq, kəndi başına yaşamaq. İştə, bütün kiçik millətlərin şüar və arzusu. Qafqaziya millətləri də xətti-hərəkətlərini bu bina üzərində qurmaq istəyirlər. Hələ, Gürcüstan bu xüsusda bəzi müvəffəqiyyətlər də qazanaraq müstəqil yaşamaq istədiyini hər an sübuta da qalxışır. Azərbaycan Cümhuriyyətinin mövqeyi nisbətən başqa isə də, yenə çalışmalı, bu gün hər millətin aşkarən tələb etdiyi haqqa nail olmalıdır. Müstəqil yaşamaq istədiyimizi bütün siyasətimizin əsasına qoymalıyız. Zira, böylə olmazsa, Balkanların kiçik millətləri kimi, yabançı siyasətlərə alət olub, get-gedə iqtisad və mədəniyyətcə inhitata [tənəzzülə] uğrayacağımızı görməliyiz. Nümunə gözümüzün önündədir. Balkanlarda oynanılan rolları düşünmək üçün tarixə müraciət etmək belə lazım deyil. Bu, həpimizin yadında olsa gərək.

Bu gün hər birimizi bir məfkurə, bir ideal ruhlandırmalıdır: istiqlal. Hangi əqidədən, partiyadan, klubdan olursaq, yenə də bizi bu müqəddəs, ümidverici kəlmə birləşdirməlidir. İstiqlal dedikdə, artıq bütün mənsubiyyətlər, siyasi məsləklər ortadan qalxaraq, yalnız müstəqil Azərbaycan qalır ki, onu yaşatmağa hamımız namusumuzla borcluyuz. Bu gün bizi xaricdən və daxildən bir çox təhlükələr hədələyirsə, bir çoxları bizim istiqlalımıza xain nəzərlə baxırsa, yenidən bizi əski sərhədlərə qaytarıb, əski zəncirlərlə boğmaq istəyirsə belə, biz kəndi amalımızı açıqdan-açığa bütün Avropaya, bütün cahana bildirməliyiz.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 10 dekabr (Çərşənbə axşamı günü) tarixli 61-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Bir millətin səsini kəsmək, onu susdurmaq əsla qabil deyil. İstiqlal fikri bu gün bir neçə nəfərə məxsus olmayıb, ümum millətin tələb etdiyi, çalışdığı bir əməldir [arzudur]. Bu əməli təcəssüm etdirməyə isə toplanmış Parlamentomuz borcludur.

Vətənimizi Balkan xarabalarına müşabeh [oxşar] etməmək, onu yabançı ayaqlara tapdaq etməmək üçün mütləqa müstəqil olmalıyız. İdealsız bir millət, bir hökumət yaşamaz deyirlər.

İştə, yeni doğmuş Azərbaycanımızın idealı: istiqlaliyyət və onun hüsulu yolunda səbat!

*Əli Yusif*

## AZƏRBAYCANDA

* Zaqatal quberniyası qubernatorunun verdiyi məlumata görə, orada "ispanyol nəzləsi" [ispan qripi] kəsbi-şiddət etməkdədir [şiddətlənməkdədir]. Əhalinin qismi-əzəmi [böyük hissəsi] işbu xəstəliyə düçar olmuşdur. Bir həkim, beş feldşer kifayət etməyir. Qubernator, Səhiyyə Nəzarətinə müraciətən müavinəti-tibbiyyə [tibbi yardım] göndərilməsini rica etmişdir.

* Kanuni-əvvəlin [dekabrın] 4-dən Daxiliyyə Nəzarətinə [Daxili İşlər Nazirliyinə] teleqrafən xəbər verilir ki, Qazax əhalisi ilə Tiflis quberniyası əhalisi miyanındakı [arasındakı] əlaqəni yaxşılaşdırmaqdan ötrü, Qazax qaim-məqamı ilə Tiflis qəzası qaimməqamı və Gürcüstan sərhəd qarovulu müdiri Saloğluna getmişlər. Burada bir çox məsələlərdən əlavə, Saloğlu əhalisinin Qarayazı otlaqlarından, dəmiryolundan, o tərəfdəki yataqlardan istifadə etmələri də müzakirə edilmişdir. Gürcüstan Cümhuriyyəti nümayəndəsi bu məsələni qəti surətdə rədd etmiş və demişdir ki, bu məsələni Ziraət Nəzarəti həll etməlidir. Qubernator rica edir ki, bu məsələ tezliklə həll edilsin. Zira ki, Saloğlu əhalisinin Qarayazı meşəsinə keçmələri gürcüləri əsəbiləndirir. Əlavə, ermənilər də Qazax qəzası yay otlaqlarının yolunu bağlamışlar. Böylə gedərsə əhali müflisliyə məruz qalacaqdır.

## ANALARIMIZ NƏ TÖVR OLMALIDIRLAR?

Məncə, imdiki biz müsəlman övladı, tərbiyəni üç yerdən deyil, iki yerdən almaqdayız. Bizim aldığımız tərbiyənin birincisi ailə içindən, daha doğrusu ana qucağından, ikincisi mühitimizdən; üçüncü olan məktəb tərbiyəsi təsirinin gücü bizə o qədər çatmayır.

Hamının məlumu olduğu kimi, görürüz: oxumamış, oxucu tərbiyəsi ilə böyüməmiş analarımız, övladını necə bəsləyir. Ona necə süd verir, necə yatırır, necə yedirir, nə tövrdə paltar geyindirir və uşağın atasına, əmisinə, dayısına qarşı nə dillər öyrədir. Ailəmiz içində, anamız qucağında aldığımız tərbiyə bu.

Tərbiyəsini böyləcə almış uşaq, ayaq tutub küçəyə çıxdıqda isə özü kimi tərbiyələnmiş bir mühitin içinə girir. İki tərbiyəsizlik o zaman birləşib uşağın zehninə yerləşir. Vücudumuz böyləcə tərbiyəsizliklə əhatə olduğu halda məktəbə gediriz. Məktəbdən dönüb həmin ailənin, həmin mühitin arasına daxil oluruz. Məktəbdə aldığımız tərbiyə həmin gündə sönüb gedir. Böylə bir tərbiyə ilə böyümüş məsum uşaq, zəhmətlər çəkib ali məktəblər, hətta darülfünunlar təhsilini ikmal etmiş olduğu halda tərbiyəsində, əxlaqında genə nöqsanlıq görünür.

Tərəqqi tapmış camaatlar ilə imdiki biz müsəlmanların arasında olan tədənni [mədəni səviyyə], tərəqqi təfavütləri həmin ana qucağından, mühit arasından başlayır. Hər kəs tərbiyəsini özünəməxsus ailədən və mühitdən alıb, ərseyi-cahanda ərzi-vücud etməkdədir [cahan səhnəsində özünü göstərməkdədir]. Bizdə müsəlman uşağı doğulduğu gündən etibarən Fransada namuslu bir firəng ailəsinə daxil etdirilib də on ildən sonra alınarsa, tərbiyəsi başqa firənglərdən zərrəcə nöqsan olmaz. Onun kimi də bir firəng uşağını imdiki bizim ailəmiz tərbiyəsinə versələr, o firəngin də tərbiyəsi biz müsəlmanların tərbiyəsindən yuxarı çıxammaz.

Nemescədən ruscaya tərcümə edilmiş 20 cilddən ibarət, məhzən [sırf] uşaqlara məxsus bir qamus [ensiklopediya] nəzərimdədir. Kainatda insana ən yaxın əlaqəsi olan nə varsa, burada uşaq dili ilə anladılır. Uşağa öylə şeylərdən məlumat verilir ki, bizim məktəb müəllimlərimizdən belə bəzilərinin o məlumatdan xəbəri olammaz.

Uşaq bunları nə zaman və harada öyrənir? Öz evində və ailəsi içində. Məktəbdən qayıdıb, nahardan sonra, istirahət vaxtında, anası ilə söhbət əsnasında, qucaqda aldığı tərbiyədən sonra böylələrini də ananın yanında öyrənir.

Böylə anaların tərbiyəsinin təsiridir ki, Parisi toplamaq üçün ən uzaq vuran toplar icad edən və Londonu bombardman üçün çepelin ixtira eyləyən nemes böyüdür və genə öylə analar tərbiyəsinin nəticəsidir ki, o kimi ixtira və icad sahibi nemeslərin qolunu geri qatlayan ingilis, amerikan, firəng vücuda gətirir. Bizim imdiki analarımızın vücuda gətirdiyi nə? Cümləmizə məlum.

Həzrəti Peyğəmbər zamanına, bizdən daha yaxın vaxtlara baxar isək, o vaxtların müsəlmanları şəriətə, dinə bizdən artıq aşina olduqları kimi, içlərindən kişilər qədər oxumuş xatunlar da zühur etməkdə olduğunu görürüz. Fəqət bunların camaat işləri başında duran hökumətin mərifəti, bəsirəti sayəsində zühura gəlmiş olduğunu da müşahidə ediriz. Avropanın ortasında, Əndəlüsdə müsəlman padşahlığı hökmran olduğu zamanlarda, hökumət, camaatı elmə, elm təhsilinə o qədər həvəsləndirirdi ki, hər kəs bu həvəs sayəsində elm və fənn arxasınca qoşardı. Hökumət hər kəsdən artıq elm və fənn sahiblərinə məhəbbət və ehtiram etməklə, onları layiq olduqları mənsəblərə təyin edirdi və hər qism elm və fənnə dair vəsilələr hazır edirdi. Camaat da böyləliklə məhəbbət və ehtiram, rəğbət və təşviq gördükdə, içlərindən böyük-böyük alimlər, təbiblər, mühəndislər, siyasilər və qeyri fənn sahibləri zühur etməkdə idi.

O zamanların xatunları da böylə idi. Əndəlüs padşahlarından Məlik Həkəm böylə oxumuş xanımlardan sərf [qrammatika] və hesab elmində artıq məlumat sahibi olan Linə xatunu öz dəftərxanasına alıb, kitabət [katiblik] xidmətinə təyin etmişdi və ən gözəl xətt ilə məşhurə olan Fatimə xatunu mötəbər kitabların üzündən götürüb yazmağa məmur qılmışdı. Kurtubalı Əhmədin qızı Aişə xatun bimisl [misilsiz] bir şairə olduğu kimi, kitab və risalələr mütaliəsinin çoxluğu ilə də məşhurə idi. Cəfər bin Nəsirin qızı Xədicə xatun həm şairə idi, həm də musiqi elmində mahirə idi. Öylə ki, musiqi alatını [alətlərini] tərənnüm etdiyi halda hər kəsi heyran və bihuş edirdi. Əbu Yaqubun qızı Məryəm xatun, Əndəlüs qalasının İşbiliyə şəhərində bir məktəb təsis etmiş və özü kimi bir çox şagirdlər yetişdirmişdi. Raziyə xatun dəxi nəzmi-kəlam [söz, şeir söyləmək] və hüsni-səliqə xüsusunda məşhurə olduğu kimi, şərq məmləkətlərini səyahət etməklə də bir səyyahəyi-müştəhirə [tanınmış səyyah] olmuşdur və genə, Əndəlüs padişahlarından Məlik Hişam 11 yaşında taxta əyləşdiyi zaman uşaqlığına görə hökumət işini yürüdəmmədiyi mülahizəsi ilə anası Səbihə xatun siyasət elminə aşina, səltənət işinə mahirə, əql və dirayəti ilə məşhurə bir xatuni-fəridə [misilsiz xatun] olduğu üçün hökumət işini idarə etməyə vüzəra, vükəla tərəfindən vəsiyyə (vəkilüs-səltənə) [vəkil] təyin olunmuş, uzun müddət hökumət işlərini kamali-nizam və tərəqqi ilə idarə etmiş, dünyadan getmişdir. Oğlu Məlik Hişam cavanlıq saiqəsi [cavanlığının sövq etməsi] ilə sarayda eyş-işrətə məşğul olmaqla hökumət işlərinə qarışmadığı üçün müşarileyha [adı çəkilən] Səbihə xatun vəfat edincəyə dəkin hökumət başında durmuşdur.

Hələ bir neçə xatunun tərcümeyi-halını yazdığımızda görürüz ki, o zamanki müsəlman xanımlarında bir çox elmə, fənnə aşina analarımız var imiş.

Əcəba, o zaman vücuda gələn böylə analar hər zaman vücuda gələmməzmi?

*M. Ayn. Mirbağırzadə*

## TƏSHİH [DÜZƏLİŞ]

Dünkü nömrəmizdə "Təəssürat" sərlövhəli məqalənin son cümləsində "ediləcəyinə" kəlmə[si] əvəzinə xəta olaraq "edilməyəcəyinə" sözü tərtib edilmişdir. Bu surətlə təshihi-keyfiyyət edərək "Cavan Parlamanımızın birinci iclasından hasil olan təəssürat gələcək əndişələrimizin zail edilməyəcəyinə" cümləsini böylə oxumağı xahiş edəriz:

*"Cavan Parlamanımızın birinci iclasından hasil olan təəssürat, gələcək əndişələrimizin zail ediləcəyinə ümidlər verib, indiki övzamızın da bir dərəcəyə qədər hiss etdiyimiz ağırlığı müqabilində qəlbimizdə təsliyətamiz bir hiss oyadır."*

## BAKI XƏBƏRLƏRİ

* Azərbaycan İctimaiyyuni-İnqilabiyyun [Sosialist İnqilabçılar] Firqəsinin Bakı komitəsi ümum yoldaşları seşənbə [çərşənbə axşamı] günü, kanuni-əvvəlin [dekabrın] 10-unda, axşam saat 4-də Türk Ocağında vaqe olacaq iclasa dəvət edir. Müzakirə ediləcək məsələlərin mühüm olduğu üçün hamı yoldaşların gəlmələri və gecikməmələri mütəmənnadır [xahiş olunur].

* Zaqafqaziya Şeyxülislamı, Ədyan Nəzarətinə [Dini Etiqad Nazirliyinə] kanuni-əvvəlin [dekabrın] 2-də müraciət edib, vəzifəsindən istefa verməsini bildirmişdir. Nəzarət, şeyxülislam həzrətlərinin millət yolundakı fəaliyyətini nəzərə alaraq, Gəncə Ruhani məktəbinin müdirliyini təklif etmişdir.

* Bələdiyyə İdarəsi əhaliyə elam edir [bildirir] ki, şəhər kitabxanası bayram günlərindən siva [başqa], hər gün saat 1-dən 4-ə dək, axşam 5 yarımdan 7 yarımadək açıqdır.

**İngilislərdən ötrü benzin**

Ticarət və Sənaət Nəzarəti Bakı mövqifi [stansiyası] müdirinə müraciətən ingilis qoşunları üçün ərzaq və mühümmat [ləvazimat] cəm edən komitədən Batuma göndərmək üçün altı vaqon benzin qəbulu barəsində lazımi binagüzarlıqda bulunsun [sərəncam versin].

**Gürcüstandan ötrü neft**

Ticarət və Sənaye Nəzarəti Gürcüstan siyasi mürəxəssliyi [nümayəndəliyi] Azərbaycan Türuq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] və Xariciyyə Nəzarəti ilə Azərbaycan sərhədindəki cövhər yolu və Gürcüstandan keçən neft yolu Batumadək işləməsi barəsində etilafa [uzlaşmaya] gəlmişdir. Bu etilaf mövcibincə [uzlaşmaya əsasən] Gürcüstan tranzit müqavilənaməsi imza edilincə və Gürcüstan-Azərbaycan siyasi nümayəndələrinin etilafı olmayınca neftdən istifadə etməməlidir.

**Batum üçün neft**

Ticarət və Sənaye Nəzarəti, Xalq Təsərrüfatı Şurasına əmr vermişdir ki, Batum üçün 1 milyon put neft buraxsın.

**Müsəlləh [silahlı] soyğunçuluq**

Kanuni-əvvəlin [dekabrın] 3-də Şamaxı qəzasının Qaraduzlu kəndinin sakini Ağaməhəmməd Əhməd oğlu 6-cı dairə polis müfəttişliyinə xəbər vermişdir ki, Xırdalan kəndindən Qaraduzlu kəndinə getdiyi vaxt iki nəfər naməlum müsəlləh bədəfkarlar [bədniyyətlər] onun 2200 rublə pulunu, iki girvənkə qənd, iki girvənkə çörəyini alıb Xırdalan mövqifinə [stansiyasına] tərəf getmişlərdir.

**Qənd itmiş**

İşbu günlərdə məlum olmuşdur ki, "Samopomoş" istehlak cəmiyyəti anbarından 600 put qənd yox olmuşdur. Anbarda olan qəndin miqdarı min put imiş. Qənd bu ilin zərfində bir çox əşxas [şəxslər] və cəmiyyətlər tərəfindən həcz [müsadirə] edilir, əhaliyə verilməyirmiş.

Denildiyinə görə, cəmiyyət axirüləmr qənddən manpası qayırmaq xəyalında imiş. Şimdi məlum olur ki, qəndin çox hissəsi anbardan yox olmuş. Əvvəlcə 100 put, sonra da 500 put oğurlanır. Şayiata [şayiələrə] görə 500 put qəndi kim isə Balaxanıya fəhlələrə vermək üçün aparıbmış. Fəqət, kimin naminə, kim tərəfindən aparılıb məlum deyildir. Cəmiyyətin idarəsi iclaslarında bu məsələ qalxdıqda, məsələni yaddan çıxarmaq istəyirlər. Halbuki, qəndin fiyatı çox böyükdür. Bazarda qəndi 32 rubləyə satırlar. Beləliklə, yox olmuş 600 putun qiyməti 768 min rublə edir.

* Ərzaq Nəzarəti, Türüq və Məabir Nəzarətinə müraciətən xəbər vermişdir ki, dəmiryolu məmurini [məmurları, işçiləri] Bakıdan aparılan ərzaqdan ötrü heç bir vəsiqə tələb etməyirlər. Ərzaq Nəzarəti müvəkkili rica etmişdir ki, bu barədə lazımi binagüzarlıqda bulunsun [sərəncam versin].

* Ərzaq Nəzarəti müvəkkili Türüq və Məabir Nəzarətinə müraciətən rica etmişdir ki, Poylu mövqifindən bəri dəmiryolu ilə kənd cəmiyyətləri tərəfindən aparılacaq toxum üçün növbəsiz vaqon versinlər. Zira ki, işbu toxum Abşeron şibhi-cəzirəsindəki [yarımadasındakı] zəmilərdə əkiləcəkdir.

* Ərzaq Nəzarəti, Hərbiyyə Nəzarətinə müraciətən Şəki dairəsindəki qoşunlar üçün 1919-cu sənədə nə qədər taxıl və ələf və ləzgi şalı lazım olduğunu isticvabda bulunmuşdur [soruşmuşdur].

* Ərzaq Nəzarətinə Tiflis və Tazəşəhərdən ötrü, ərzaq ilə mübadilə 30 min ton put neft, 10 min put cövhər, min put benzin, 5 min put makina yağı təklifi varid olmuşdur [gəlmişdir]. Ərzaq Nəzarəti müvəkkili mübadilə komisyonuna müraciətən işbu iqdamata [əməliyyata] girişməyi tövsiyə etmişdir.

## ƏRZAQ İŞLƏRİ

Bakı Ərzaq idarəsinin gündəlik məlumatına görə, kanuni-əvvəlin [dekabrın] 5-də Bakıya daxil olan ərzağın miqdarı:

Dəmiryolu ilə buğda 4423 put, kartof 2363 put.

Kanuni-əvvəlin 6-da: buğda 1336 put, un 44 put, kartof 800 put.

Kanuni-əvvəlin 7-də: buğda 5239 put, un 207 put, arpa 1677 put.

Kanuni-əvvəlin 8-də: buğda 5113 put, un 1692 put, arpa 5085 put, ot 931 put.

* Kurdiladze və qeyriləri Ermənistandan alıb Azərbaycan yolu ilə Gürcüstana apardıqları iki min qaramala yol kirayəsi və qeyrə üçün icazənamə istədikləri üçün Ərzaq Nəzarəti bu barədə Azərbaycan Hökumətinin Gürcüstan vəkili Cəfərov cənablarına yazıb, Cəfərov Gürcüstan yolu ilə də İrana və Batuma Azərbaycandan göndərilən bəzi ərzaq üçün yol icazəsi alınmasını xahiş edir.

* Bakı şəhər Ərzaq idarəsi, Bakıya daxil olan ərzağı həcz [müsadirə] etmək üçün bir nəfər nəzarətçi də göndərilməsini ingilis ərzaq komissarı kapitan İnvuddan xahiş etməyi "Azərbaycan" qəzetəsinin 50-ci nömrəsində müfəssələn dərc edilmişdi. Bu barədə yerli acentələr qarışacağı, qəzetənin həmin nömrəsində Ərzaq Nəzarəti tərəfindən Bakıya gətiriləcək ərzaq sərbəstliyi elanına zidd olmasını və bir neçə dəfə şəhər Ərzaq idarəsi, Ərzaq Nəzarətindən bixəbər ərzaq həcz etdiyini və böyləliklə şəhərə gələcək ərzaq işləri müşkülə uğradığını, bahalıq və qeyrəni nəzərə alıb, şəhər Ərzaq idarəsi həcz işlərinə Nəzarətdən [Nazirlikdən] izinsiz qarışmamasını və ingilis komandası ilə ancaq Nəzarət xəbərdarlığı və razılığı ilə ərzaq işlərində münasibətdə olmağı Ərzaq Nəzarəti şəhər Ərzaq idarəsinə yazıb xahiş edir.

* Kutais şəhərindən Bakıya, Ərzaq Nəzarəti namına [adına] 415 put lobya və Kerç şəhərindən iki min put noxud, Bakıdan Tiflisə göndəriləcək iki vaqon duza əvəz olaraq gətirmək üçün Ağahüseyn Şıxəliyevə Ərzaq Nəzarəti icazənamə vermişdir.

## GÜRCÜSTANDA

Axıskanın işğalı

*"Borba" qəzetəsi kanuni-əvvəlin [dekabrın] 3-də Borjomdan bir böylə teleqram almışdır:*

*"Bu gün bizim qoşunlar Axıskaya daxil oldular. Mesxetiya və Cavaxetiya fərariləri miyanında [arasında] şadlıqdır. Türk sərhəd daşları 1877-ci sənə sərhədinə tərəf aparılır. Müsəlman füqərası, cümhuriyyət qoşunlarını şadlıqla qarşılamışlar. Həyat adi yoluna düşür. İnanıram ki, yorulmuş millət bir daha bəy hökuməti üzünü görməyəcəkdir. Cavaxetiyada da əhval böylədir. Yarın türklər Axalkalakı təxliyə edərək Ərdəhan sərhədinə çəkiləcəklər.*

*Hökumətin xüsusi müvəkkili:*
*Leoroxadze."*

**Ancaparidzenin teleqramı**

Bu yaxınlarda Soçidə bir qurultay iniqad etməkdə [baş tutmaqda] idi. Gürcüstan Cümhuriyyəti Hökumətinin Soçi dairəsini müvəqqəti mülhəq [ilhaq] etməsi məsələsindən dolayı qurultayda öz razılığını bəyanla dərmiyan edir [irəli sürür] ki, Rusiyada demokrasi əsas üzərində hökumət təşkil edərsə, o vaxt Soçi dairəsi o "federasyona" daxil olacaqdır. Qurultay, Kuban nahiyə radasına və Gürcüstan Cümhuriyyətinə birər təbrik teleqramı göndərməyi qət etmişdir.

## TEATRO VƏ MUSİQİ

Bu gün, seşənbə [çərşənbə axşamı] günü, kanuni-əvvəlin [dekabrın] 10-da Hökumət Teatrosunda, bu mövsümdə əvvəlinci dəfə olaraq Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən Üzeyir bəyin məşhur "Arşın mal alan" operettası mövqeyi-tamaşaya qoyulacaqdır. Bu oyunda məşhur aktyorlarımızdan Soltan bəyin rolunu Ələkbər Hüseynzadə, Əsgərin rolunu Sarablı və Vəlinin rolunu isə Hacıağa Abassov ifa edib, Müdiriyyətin təzə qəbul etdiyi artistkaları dəxi iştirak edəcəklərdir. Biletlər teatronun kassasında satılmaqdadır.


**Elan**

Persidski küçədə vaqe [yerləşən] Qasım bəy hamamının müstəciri [icarəyə götürəni] sifətiylə ümum möhtərəm müsəlman xanımlarına bununla elan edirəm ki, bu tarixdən etibarən hamam hər həftə şənbə günləri zənana [qadınlara] məxsus olacaqdır. Və əlavə edirəm, hamam idarəsi hamama gətirilən əlbisə və sair xüsusunda cavabdehəndəliyi [cavabdehliyi, məsuliyyəti] boynundan atır. Hər kəs öz paltarının mühafizəkarı olmalıdır.

Kamali-ehtiramla: Məşhədi Həsən Məşhədi Məhəmmədəli oğlu.

*297 1 - 1*

**OPERETTA**
**AXŞAM TAMAŞASI**

Azərbaycan Hökuməti Teatrosunda
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşlarının Müdiriyyəti
Səşənbə [çərşənbə axşamı] günü rəbiüləvvəl ayının 6-sında
(dekabrın 10-unda) 1337-1918-nci ildə təntənəli bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır.
Üzeyir bəyin yazmış olduğu məşhur
ARŞIN MAL ALAN
operettası, 4 pərdədə.
İştirak edən əşxas [şəxslər] təfsilən proqramda yazılıbdır.
Ancaq bu səfər isə "nökər Vəli"nin rolunu birinci dəfə olaraq
məşhur komik Hacıağa Abbasov cənabları ifa edəsidir.
Böyük musiqi orkestri Üzeyir bəyin
təhti-idarəsində [idarəsi altında].
Biletlər teatrın kassasında
satılmaqdadır. Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Dirijor: Üzeyir bəy Hacıbəyli.
Rejissor: Hüseyn Ərəbli.
Məsul: Xəlil Hüseynzadə.
Müavin: Hacıbaba Şərifzadə.
Müdir: Zülfüqar bəy Hacıbəyli.

*b/20*


**Gəlir vergisi**

Azərbaycan Kazyonnu Palatasının Hökumət gəlir vergisi xüsusunda verdiyi qanunun 77-80-ci maddələr[i] mövcibincə [maddələrinə əsasən] **elan edir:**

a) Kirayənişinlərə, ev və qeyri-mənqul [daşınmaz] əmlak sahiblərinə; b) Dövlət, mənsəb (bəy, tacir və qeyrə) və ictimai (şəhər, kənd idarələri və qeyrə) müəssisələrə, xüsusi şirkətlərə qeyri-mənqul əmlak, ticarət, sənaət və qeyri gəlir verici müəssisə sahibləri və icarədarlarına; c) Səhmdarlar şirkəti və cəmiyyətlərinə, pay şirkətlərinə, səhmdarlar, ticarət və torpaq bankalarına, xüsusən lombardlara və mənqul [daşınan] əşyaya pul və mal buraxan şirkətlərə:

1) Bakı şəhərində, ətrafındakı Belıy qorodda, Bibiheybətdə, mədənlərdə, Balaxanı, Sabunçu, Ramana, Zabrat, Binəqədi və Suraxanı kəndlərində, Sabunçu və Suraxanı kəndləri miyanında [arasında] vaqe mədən dairəsində (Əmirhacıyan və Xilə kəndləri) kənd qeyri-mənqul əmlakı olan yerlərdən siva [başqa] və Gəncə, Nuxu və olan üzvdə Şuşa şəhərlərində olan kirayənişinlər 1918-ci il kanuni-əvvəlin 1-dən gec olmamaq şərti ilə öz ev sahiblərinə və yaxud onları əvəz edənlərə xüsusi vərəqələr üzərində bu vaxta kimi kirayənişin işğal etdiyi mənzildə neçə nəfər mədaxili [gəliri] olan əşxasın siyahısı verilməlidir. Xüsusi mədaxili olan da buraya daxildir.

2) Ev və qeyri-mənqul əmlak sahibləri kirayənişinlərdən aldığı siyahıları və öz siyahısı ilə bərabər 1919-cu il kanuni-saninin [yanvarın] 7-dən gec olmamaq şərti ilə məhəlli [yerli] vergi idarəsi sədrinə təqdim etməlidir.

3) Bu siyahılardan başqa ev və qeyri-mənqul əmlak sahibləri həmin vaxtda, həmin sədrə xüsusi vərəqələr üzərində bunların evlərində və əmlakında vaqe mənzillərin, ticarət və sənaət müəssisələrinin, anbarların, skladların sakinlərinin adlarını verməlidir.

4) Yuxarıda "b" fəslində göstərilən müəssisələr 1919-cu il kanuni-sanidən gec olmamaq şərti ilə bu siyahılar qulluqçular yaşadığı məhəllin sədrinə verilməlidir. Xüsusi vərəqələr üzərində 1915-ci il kanuni-əvvəlin 15-inə kimi qulluqçularının siyahısını verməlidirlər.

5) Səhmdarlar şirkəti, ictimai və qeyriləri "c" maddəsində göstərilən cəmiyyətlər 1919-cu il kanuni-sani 7-sindən gec olmamaq şərti ilə, Azərbaycan Cümhuriyyəsində və əcnəbi məmləkətdə olan səhmdarların və pay sahiblərinin siyahısı və adını və pay sahiblərinin adlarını və ümumi iclasda iştirak üçün təqdim olunan səhmdarlar və pay sahibləri siyahısını, səhm və payların miqdarını Azərbaycan Kazyonnu Palatasına bildirməlidir.

6) Yuxarıda sayılan siyahıları yazmaq üçün vərəqələri şirkət müəssisələr hər gün vaqe olduğu məhəlli idarələrdən, ev sahibləri isə polis idarələrindən alacaqlar.

7) Siyahıları yazmaq qanunu bu vərəqələrdə yazılmışdır. Bu barədə məlumat almaq istəyənlər məhəlli idarə sədrinə müraciət edə bilərlər.

8) Bu siyahıları verməyənlər, vaxtından gec verənlər və siyahını natamam yazanlar hökumət gəlir vergisi qanununun 126-cı maddəsi mövcibincə [əsasında] 100 rubləyə kimi cərimə ediləcəklər.

9) Bakı və Balaxanı-Sabunçu polis dairəsində aşağıdakı məhəlli vergi idarələr təşkil edilmişdir:

| | |
|---|---|
| 1. 1-ci şəhər idarəsi | 1 və 2-ci polis idarələri |
| 2. 2-ci şəhər idarəsi | 10-cu polis idarəsi |
| 3. 3-cü şəhər idarəsi | 3-cü polis idarəsi |
| 4. 4-cü şəhər idarəsi | 4-cü polis idarəsi |
| 5. 5-ci şəhər idarəsi | 5-ci polis idarəsi |
| 6. 6-cı şəhər idarəsi | 6-cı polis idarəsi |
| 7. 7-ci şəhər idarəsi | 7-ci polis idarəsi |
| 8. 8-ci şəhər idarəsi | 8 və 9-cu polis idarələri |
| 9. 9-cu şəhər idarəsi | Sabunçu kəndi və mədəni və Suraxanı, Əmirhacıyan və Bülbülə kəndləri |
| 10. 10-cu şəhər idarəsi | Balaxanı, Zabrat və Binəqədi mədən dairəsi |

*b/13 3 - 3*


**Mama M. K. Şerman**

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə.

*Telefon 24-62*

**Arvad diş həkimi Z. A. Şexter xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş həkimi B. L. Levin**

Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni diş qayırır. Tsitsyanovski caddə nömrə 7, Qubernskinin küncündə.

Qəbul edir: 9-dan 2-yə kimi; 4-dən 7-yə kimi.

*280*

**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Doktor**
**Hacı Fəthullah Ağaəlizadə**

Böyüklərin və uşaqların daxili mərəzlərinə müalicə edir. Xəstələri qəbul edir hər gün səhər saat 8-dən 10-adək və ax-şam saat 4-dən 7-yədək Şamaxı küçə-sində, 14 nömrəli evdə.

Telefon nömrəsi 19-27.

*289*



**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**


## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri: Gürcü Teleqraf Acentəliyindən***

"Almaniyanın sabiq Kronprinsi...": Almaniya imperatoru II Vilhelmin oğlu Fridrix Vilhelm nəzərdə tutulur.

***Teleqraf xəbərləri: Royter teleqrafları***

"Belçika kral və kraliçası Parisə varid olmuşlardır.": Kral I Albert və kraliça Yelizaveta Qabriele nəzərdə tutulur.

"L. A. qəzetəsi deyir ki...": "Lokal-Anzeyqer" qəzeti nəzərdə tutulur.

"…Hollandiya Hökuməti, kayzeri Müttəfiqlərə verməkdən qəti surətdə imtina etməlidir.": Almaniya imperatoru II Vilhelm nəzərdə tutulur.

***Qəzetələrdən***

"P. K. qəzetəsi xəbər verir ki...": "Priazovski kray" qəzeti nəzərdə tutulur.

"…Novı Bessarabiyada…": Bessarabiya 1918-ci ilin noyabr ayının axırlarında Rumıniyaya birləşdirilmişdir. Burada "Novı Bessarabiya" sözüylə, güman ki, Bessarabiyanın bu "yeni" statusu (yeni Bessarabiya) nəzərdə tutulur.

***Qəzetələrdən: Tersk oblastında***

"Kazak Xalq Şurası": Terek Kazak-Kəndli Soveti nəzərdə tutulur.

"…Müvəqqət Hökumət intixab etmişdir.": Terek Respublikası Müvəqqəti Xalq Hökuməti nəzərdə tutulur.

"Svtatoy Krest": Rusiyanın Stavropol diyarında bugünkü Budyonnovsk şəhəri nəzərdə tutulur.

***Parlaman ətrafında***

"25 noyabr 1918-də Hökumət, Erməni Milli Komitəsinə təklif etmişdir Azərbaycan Parlamanında iştirak üçün beş məbus göndərsin.": qəzetdə "25 noyabr" yerinə "25 dekabr" getmişdir.

***Bütün Azərbaycan vətəndaşlarına***

"...bu gün onlar Azərbaycan fikrinin qövldən feilə [sözdən işə] gəlməsini göstərən...": qəzetdə "qövldən feilə" yerinə səhvən "qüvvədən feilə" getmişdir.

"Təbrik ediriz firqəçi yoldaşları ki, qaldırdıqları Azərbaycan bayrağı bu gün millət vəkillərinin başları üzərində pərçəməndaz olur [dalğalanır].": Burada "pərçəməndaz olmaq" obrazlı ifadədir. "Pərçəm" sözü həm bayraq, həm bayraqların ucundakı qotaz mənasına gəlir. Digər tərəfdən bu söz insanın başındakı kəkil, at yaxud aslan yalı mənalarını da verir. "Əndaz" isə "atan; atmaq" mənasında işlədilir. Beləliklə, "pərçəməndaz", "pərçəm atan", yəni "pərçəmini dalğalandıran" deməkdir.

"Səddi-İsgəndər": əfsanəyə görə, Yəcuc-Məcuc qövmünün qarşısını almaq məqsədi ilə İsgəndər Zülqərneynin çəkdirdiyi aşılmaz divar. Burada sarsılmazlıq rəmzi kimi işlədilmişdir.

***Parlamanımız münasibətilə***

"…1337-ci tarixi-hicri ikinci rəbiül-əvvəldə...": Burada tarix, hicri təqvimlə göstərilmişdir; miladi təqvimlə 7 dekabr 1918-ci ilə uyğundur.

***Analarımız nə tövr olmalıdırlar?***

"Çepelin": qazla doldurulmuş uçan aparat, dirijabl.

***Bakı xəbərləri***

"Zaqafqaziya Şeyxülislamı": Axund Məhəmməd Pişnamazzadə nəzərdə tutulur.

"ləzgi şalı": toxunma şal parça növü.

# Məktublar: problemlər, rəylər, təkliflər...






● MƏMNUNLUQ

## Prezidentin sərəncamını Ramazan hədiyyəsi kimi qəbul etdik




**Neçə illər idi olmazın əziyyət çəkirdik. Yolumuzun bərbad hala düşməsi nəticəsində evdən çıxıb ən vacib işimizin arxasınca getməyə həvəsimiz qalmamışdı. Təcili yardım maşınları belə yaşadığımız kəndə, habelə bizimlə qonşu olan yaşayış məntəqələrinə xəstə üstünə gəlməyə çətinlik çəkirdi. Yolumuzun pis vəziyyətdə olması adamların əsəbiləşməsi, narahatlığı ilə bərabər, maşınların çala-çuxurlara düşərək sınıb-dağılmasına da səbəb olurdu.**

Torpaq mülkiyyətçiləri, fermerlər böyük zəhmət, xərc hesabına yetişdirdiyi kənd təsərrüfatı məhsullarını nəinki Bakıya, Sumqayıta, heç qonşuluqdakı Salyan rayonunun bazar-dükanlarına da apara bilmir, əlacsız qalıb dəyər-dəyməzinə satmalı olurdular. Nəticədə kəndli çəkdiyi xərci güclə çıxarır və ya heç çıxara da bilmirdi. Onu da deyim ki, bu səbəblər üzündən kənd cavanları Bakıya üz tuturdular.

Lakin müdriklərimiz "Hər qaranlıq gecənin bir işıqlı gündüzü var" deyiblər. Belə bir işıqlı gün bizim və haqqında söhbət açdığım yolun üstündə yerləşən kəndlərin də axır ki, üzünə doğdu. Prezident Ramazan bayramı axşamı, yəni 20 aprel 2023-cü il tarixdə "Neftçala rayonunun Xanməmmədli-Qaçaqkənd-Qırmızıkənd-Xolqarabucaq- Xəzər avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladı. Bunun əhali tərəfindən hansı sevinc hissləri ilə qarşılandığını sözlə demək çətindir. 15 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən yolun tikintisinə Prezident ilkin olaraq 7 milyon manat vəsait ayırmışdır. Deməliyəm ki, böyük işdir. Qarabağda aparılan genişmiqyaslı layihələrin, o cümlədən yol çəkilişi işlərinin həyata keçirildiyi bir zamanda digər bölgələrin, kənd və qəsəbələrin də diqqətdən qaçırılmaması müsbət haldır.

Artıq yolun çəkilişinə start verilib. Bu xeyirxah işin icrasında əvvəlcədən əhalimiz adından yol inşaatçılarına uğurlar arzulayırıq, "əliniz-qolunuz yorulmasın!" deyirik.

*Abdulla ABDULLAYEV,*
*Neftçala rayonu*
*Qaçaqkənd kənd sakini*

● RAZILIQ

## Akademikin adına layiq

**Qusarda təmirli və abad küçələr çoxdur. Onlardan biri də akademik Zərifə Əliyevanın adınadır. Rayonun mərkəzində yerləşən bu küçədə hündürmərtəbəli yaşayış binaları var. Həmin binalar 70-ci illərdə tikilib. O zamanlar ev növbəsinə dayananlara belə binalardan mənzil verilirdi. Küçədə şəhər təşkilatlarının inzibati binaları da var.**



Son illər yaşayış binalarının təmirinə başlanıb. Xüsusi proqramla görülən işlər nəticəsində həmin binaların bütün kommunikasiya xətləri yenilənib. İlin əvvəlindən isə binaların fasadları dəyişdirilir. Binaların keçidlərinə dəmir qapılar qoyulur, balkonlar təmir edilir, dam örtüyü yenilənir. İki və beşmərtəbəli yaşayış binalarının ətrafında yaşıllıqlar salınır, ağacların kölgəsində oturacaqlar quraşdırılır.

Məhəllə içərisində yeniliklərdən biri də uşaqlarla bağlı əyləncə yerlərinin yaradılmasıdır. Yaşlı adamlar üçün isə üstüörtülü yerlər hazırlanıb. Ərazinin işıqlandırılması da yüksək səviyyədədir. Əvvəllər qaranlıq olan məhəlləmiz indi işıqlığa çıxıb.

Tikilən yeni binaların çoxunun birinci mərtəbəsi ticarət obyektləridir. Bu gün yaşayış üçün nə lazımdırsa, həmin marketlərdə var. Bir sözlə, akademikin adına layiq küçədə yaşamaq xoş və rahatdır.

*Füzuli ŞIXVERDİYEV,*
*Qusar rayonu*

**AZƏRBAYCAN-a cavab verirlər**

## Görülən tədbirlər kifayət edəcəkmi?

**Sizin 27 aprel 2023-cü il tarixli məktubunuza cavab olaraq bildiririk ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2018-ci il 522 saylı qərarı ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"na uyğun olaraq, Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsi, Mətbuat prospekti və Mikayıl Müşfiq küçələrinin kəsişməsində yerləşən "Dağüstü 1 qəbiristanlığı" 1 avqust 2019-cu il tarixdən Yasamal Bələdiyyəsinin balansına verilmişdir. Burada müsəlman, yəhudi və xristian məzarlığı var.**

"Dağüstü 1 qəbiristanlığı" bələdiyyənin balansına veriləndən sonra ilk növbədə vaxtilə yığılıb qalan məişət tullantılarından təmizlənmiş, qəbiristanlığın yerləşdiyi Abbas Mirzə Şərifzadə və Mikayıl Müşfiq küçələrindən giriş hissəsinə qəbiristanlıq haqqında məlumatları əks etdirən iki elan lövhəsi vurulmuşdur. Daimi su xətti çəkilmiş, vətəndaşların qohumlarının dəfn olunduğu ərazini rahatlıqla tapmaları üçün qəbiristanlıq sektorlara bölünmüş, asfalt örtüyü çəkilmiş, işıqlandırma sistemi qurulmuş və təhlükəsizlik kameraları quraşdırılmışdır.

Sektorlar üzrə texniki inventarlaşdırma aparılarkən qəbirlərin yerləşdiyi mühafizə çəpərləri nömrələnmiş, elektron daşıyıcıya yüklənmiş və bu gün də davam etdirilir. Qəbiristanlıqda milli mənsubiyyətindən asılı olmayaraq, dini ayinlərə uyğun dəfn edilən hər bir şəxs bələdiyyə tərəfindən qəbiristanlığa təyin edilən nəzarətçilərin iştirakı ilə dəfn edilir. Bələdiyyə tərəfindən qəbiristanlığa təyin edilən nəzarətçilər qəbiristanlığın ərazisindəki qəbir yerlərinin, piyada səkilərinin və yolların səliqəli saxlanılmasını, qəbiristanlıqlarda yaşıllıqların mühafizəsini və onlara qulluq edilməsini təmin edirlər.

Qəbiristanlıqda fəaliyyət göstərən mollalara nəzarəti bələdiyyə tərəfindən təyin olunan nəzarətçilər həyata keçirir. Qəbiristanlıqda dəfn olunanların qohumları tərəfindən ziyarəti zamanı mollalar dəvət olunur, dini qaydalara uyğun yasin oxunur və ruhuna dualar edilir.

2021-ci ildə "Dağüstü 1 qəbiristanlığı"nda "Ehsan bulağı" tikilmiş və vətəndaşların istifadəsinə verilmişdir. Dini bayramlarda və Novruz bayramında Mənzil-Kommunal Təsərrüfatı Birliyinin əməkdaşları ilə birlikdə genişmiqyaslı təmizlik işləri aparılmış, məişət tullantılarından, alaq otlarından təmizlənmiş və xüsusi texnika vasitəsilə daşınmışdır. Abadlıq və təmizlik işləri hər gün mütəmadi olaraq davam etdirilir.

Hazırda xristian və yəhudi məzarlığında abadlıq və təmizlik işləri aparılır, alaq otlarından təmizlənir, dəmir barmaqlıqlar rənglənir və uçmuş, dağılmış qəbirlər bərpa olunur.

*Tahir MƏMMƏDOV,*
*Yasamal Bələdiyyəsinin sədri*

***Redaksiyadan:*** *Yasamal Bələdiyyəsi bu məktubu qəzetimizin 27 aprel 2023-cü il tarixli sayında dərc edilmiş "Qəbiristanlıqlardakı özbaşınalıqlar" replikasına cavab olaraq göndərmişdir. Xatırladaq ki, adıçəkilən replikada, sərlövhəsindən də göründüyü kimi, qəbiristanlıqlarda, o cümlədən konkret olaraq paytaxtın Yasamal və Abşeron rayonundakı Xırdalan qəbiristanlıqlarında mühafizə sisteminin qurulmaması səbəbindən məzar daşlarının, dəmir çərçivələrin oğurlanması və dağıdılmasından, eləcə də digər neqativ hallardan bəhs edilmişdir.*

*Təəssüf ki, Yasamal Bələdiyyəsi replikada qeyd olunan və bu günədək davam edən belə faktların kökünün kəsilməsi üçün görəcəyi konkret tədbirlər əvəzinə redaksiyamıza 4 illik fəaliyyətləri barədə hesabatını göndərmişdir. Qəzetimizin tənqidi çıxışında qeyd olunan özbaşınalıq, oğurluq hallarının aradan qaldırılması, ərazidə "hökmranlıq" edən şəxslərin kimliyi (onlar bələdiyyə tərəfindən qəbiristanlığa təyin olunan nəzarətçilərdir, yoxsa qeyriləri) barədə bir kəlmə də danışılmır.*

*Əgər kütləvi informasiya vasitəsi kimi təkcə qəzetimizi deyil, bütün ictimaiyyəti rahatsız edən bu problemə münasibət "hesabat səviyyəsi"ndən çıxıb konkret tədbirlərə keçməsə, çətin ki, o, həll olunsun. Həmin problem isə hər birimizin qəbiristanlıqlarda uyuyan əzizlərimizin məzarlarından hələ də arxayın olmamağımızdır. Elə 2018-ci ilin dekabrında qəbiristanlıqların yerli bələdiyyələrin balansına verilməsi barədə hökumətin qərarının məqsədi də bu arxayınsızlığa son qoyulması olmuşdur. İndi qalır həmin etimadı doğrultmaq.*

*Mövzunu diqqətdə saxlayacağıq.*

● PROBLEM

## Terminalların azlığı vətəndaş narahatlığıdır

**Hörmətli redaksiya!**

**Yaşadığımız Qaraməryəm kəndi Göyçay, Ağsu, Ucar və İsmayıllı rayonlarının orta yollarını birləşdirən bir ərazidə yerləşir.**



Kəndimizin əhalisinin sayı ildən-ilə çoxalır. Yaşayış massivinin əhatəsində daha 6 kənd var. Bu da Qaraməryəm kənd qovşağının nə qədər əhəmiyyətli olduğuna bir sübutdur. Kəndimizin və eyni zamanda ətraf 6 kəndin sakinləri əməkhaqqı, pensiya və müavinətlərini almaq üçün çətinlik çəkirlər. Belə ki, kənddə yalnız bir bankın terminalı quraşdırılıb. Amma elələri var ki, onlar yalnız rayon mərkəzində, özü də cəmi bir yerdədir. Kənddən gedirsən (onların çoxu təqaüdçülərdir) və uzun bir növbə ilə üzləşirsən. Növbən çathaçatda məlum olur ki, bankomatda pul qurtarıb. Bəzən terminallara pul yükləmələri saatlarla, günlərlə çəkir. Bu da öz növbəsində həm zaman itkisi, həm də narahatlıq yaradır. Onlarca ticarət obyektinin olduğu bir ərazidə əlavə bank terminallarının quraşdırılması məncə o qədər də çətin deyil.

Ümidvarıq ki, səsimizə səs verilərək qısa bir vaxtda bu problem aradan qaldırılacaq.

*Əlizaman ASLANOV,*
*Göyçay rayonu Qaraməryəm kəndi*

## Fotofakt









*Son vaxtlar şəhərdə sahibsiz itlərin çoxalması ciddi narahatlıq doğurur. Onlar hər yerdədir: küçədə, parkda, binaların həyətlərində, insanların sıx olduğu hər yerdə... Xüsusən azyaşlı uşaqlar və qadınlar sahibsiz itlərin onlara hücum edəcəyindən qorxuya düşür, istiqamətlərini dəyişməyə məcbur olur və ya yaxınlıqdan keçən kimdənsə kömək istəməli olurlar. Vaxtaşırı olaraq sahibsiz heyvanların zərərsizləşdirilməsi yönündə müvafiq işlər görülsə də, təhlükəli vəziyyət qalmaqda davam edir. Təbii ki, sahibsiz heyvanların məhv edilməsi yox, onların sahibsiz heyvanlara qayğı mərkəzlərinə təhvil verilməsi daha məqsədəuyğundur.*

***Fotolar İlham BABAYEVİNDİR***

● DƏYƏR

## Keçmişimizi gələcəyimiz üçün qoruyuruq




**Qubadlı işğal altında olduğu dövrdə rayonumuzun bir çox qurumu Sumqayıtda fəaliyyət göstərib. Onlardan biri də rayon tarix-diyarşünaslıq muzeyidir.**

Sumqayıtda bir neçə ünvanda yerləşən muzey hazırda rayon icra hakimiyyətinin inzibati binasında yerləşir. Muzeydə rayonun bütün kəndləri barədə geniş məlumatlar var.

Muzeyin girəcəyində dövlət atributları yerləşdirilib. "Heydər Əliyev və Azərbaycan" guşəsinin yerləşdiyi böyük zalda Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər var. Burada həmçinin "Heydər Əliyev 100" adlı kitab sərgisi də nümayiş etdirilir. Zalın müxtəlif yerlərində torpaqlarımızın azadlığı yolunda canlarından keçən şəhidlərimiz, kəndlərin və rayonun ictimai həyatında rol oynamış insanlar barədə məlumatlar yer alıb.

Muzeydə nümayiş edilən və yaşı yüz illərlə ölçülən mis, saxsı qablar, məişət əşyaları (cəhrə, həvə, kirkid və sair) bizi keçmişə qaytarır. Burada xalq qəhrəmanı Qaçaq Nəbi və milli qəhrəmanlara aid guşə də fəaliyyət göstərir. Qaçaq Nəbinin şəxsi əşyaları muzeyə gələnlərin diqqət və maraqla izlədikləri eksponatlardır. Muzey işçiləri tərəfindən hazırlanan videoçarxlar sosial şəbəkələrdə nümayiş etdirilir.

Qubadlı şəhidləri, rayona virtual səyahət, rəssam Abbasquluzadə, Aprel döyüşləri və 44 günlük Vətən müharibəsi qəhrəmanlarımızın döyüş yolunu əks etdirən videolar, onların verdiyi müsahibələr onlayn şəkildə yayımlanır.

Muzeyin elektron saytı da fəaliyyət göstərir. Muzey səhifəsinin daim işlək olması əməkdaşlar tərəfindən nəzarətdədir. Məlumat üçün bildirək ki, son illər onlayn şəkildə minlərlə insan muzeyin elektron səhifəsinin izləyicisi olub. Təkcə respublika daxilində deyil, dünyanın bir çox ölkəsindən olan insanlar maraqlı şərhlər yazmış, onların bəziləri sonradan gələrək muzeyi ziyarət etmişlər. Sosial şəbəkələrdən canlı görüşə çevriləcək belə əməkdaşlığın gələcək üçün əhəmiyyəti böyükdür. Bu həm də turizmin inkişafına bir töhfədir.

44 günlük Vətən müharibəsi bizi 30 illik həsrətdən qopardı. Bu gün Qubadlının hər bir sakini rayona dönəcəyi günü gözləyir. Biz muzey işçiləri də rayonumuzda fəaliyyətimizi indidən nizamlamağa çalışırıq. Orada qalan tariximiz canımızın bir parçasıdır. Gələcək nəsillərə onu ötürmək, keçmişin şərəfini yaşatmaq bizim mənəvi borcumuzdur.

*Xatun AĞAYEVA,*
*Qubadlı Tarix-Diyarşünaslıq*
*Muzeyinin direktoru*

● MİNNƏTDARLIQ

## Qazanxananın işindən razı qaldıq

**Hörmətli redaksiya!**

Artıq iki ildir ki, Yasamal rayonunun 2-ci Yeni Yasamal yaşayış massivində istilik sistemi qüsursuz işləyir. 8 saylı İSİS nəzdindəki 336 saylı qazanxana 10 bloklu, 9 mərtəbəli 14 binaya xidmət edir. Biz - Yeni Yasamal yaşayış massivindəki 4 saylı binanın sakinləri 336 saylı qazanxananın fəaliyyətindən yüksək səviyyədə razıyıq və bu razılığımızı qəzetiniz vasitəsilə 336 saylı qazanxananın işçilərinə çatdırmaq istəyirik.

***182 saylı MTK üzvləri:***
***Söhlət Kərimov, İradə Rəhimova,***
***Asif Manafov, Ruslan Mirzəliyev,***
***İqbal Rəhimov, Kəmalə Kərimova,***
***Gülnarə Marduxayeva və başqaları***

● RƏY

## Teleməkanda kiçik sayılan heç nə olmamalıdır



**Mən də bir çoxları kimi televiziya kanallarında adətən xəbərlər proqramlarını izləyirəm. O da yalnız bir telekanalda. Çünki birinə baxdınmı, başqalarını seyr etməyə ehtiyac olmur, hamısı bir-birinin təkrarıdır, lap xəbər saytları kimi.**

Bir də əksəriyyətimizin əsəblərinə toxunan kriminal xəbərlərin ekranlardan düşməməsidir. Bəlkə elə düşünürlər ki, bu, kriminalın qarşısını almağa xidmət edir. Əslində isə belə xəbərlər məktəbli uşaqlarda, gənclərdə kriminala maraq oyadır, onların "tilov"a düşməsinə yol açır.

Qıcıqlandırıcı məqamlardan biri də ekranlarda çıxış edənlərin, müsahibə verənlərin adları və vəzifələrini bildirən titrlərin ekranlardan tez silinməsidir. Heç baş hərfini oxumağa macal tapmırsan. Yaxud da görürsən hansısa rayonun hansısa kəndindən reportaj gedir. Rayonun adı ekranda göstərilsə də, kəndin adı qeyd olunmur. Çox vaxt reportyor da kəndin adını deməyi ya unudur, ya da elə səsləndirir ki, anlamaq olmur.

Ola bilər ki, sadaladığımız bu hallar verilişləri hazırlayanlar üçün kiçik texniki irad kimi görünsün. Lakin bizə elə gəlir ki, teleməkanda kiçik heç nə olmamalıdır.

*Tahir BABAYEV,*
*Bakı sakini*

● GİLEY

## Nə qədər ki, gec deyil...

**Son illər Lerikin dağ kəndlərində olduqca qəribə "vərdiş" yaranıb: ayrı-ayrı adamlar əli haraya çatırsa, oranı dədə malı kimi zəbt edir. Beləcə rayonun çox yerində olan yamaclar, dərə kənarları, su hövzələri, mal-qaranın otlaq sahələri çəpərə alınıb. Hətta bu "çəpərləmə əməliyyatı" kəndləri bir-birinə qarşı qoyur. Hələ qırılan ağacları demirəm...**



Doğrudur, bu barədə bir neçə dəfə cinayət işi açılıb. Amma bunun bir o qədər də təsiri yoxdur. Çəpərlərin sayı gündən-günə artır. Adam var hektarlarla torpağı çəpərə alıb, adam da var bir inəyini otarmağa yer tapmır. Hətta bulaqlar çəpərlənir ki, sonra suyu başqasına pulla satsınlar. Meşəliklərə "sahib" duranlar isə xalqın sərvətini istədiyi kimi talayır.

Əlioba adlanan başdan-başa yamaclıq olan ərazi dövlət tərəfindən örüş yeri kimi saxlanıb. Onun aşağı hissəsindən çay axır. Amma Aküşəpeştə kənd sakinləri buranı elə çəpərə alıb ki, Bradi kəndinin mal-qarası çaya düşüb su içə bilmir. Elə yerlər də var ki, orada vaxtilə istifadə olunan yollar belə tutulub. Hovil, Qılqılov, Vov, Ləkər... kəndlərində də vəziyyət eynidir.

Nə qədər ki, gec deyil, əlaqədar təşkilatlar bu özbaşınalığın aradan qaldırılması üçün ciddi tədbirlər görməlidir.

*Zəfər ORUCOĞLU,*
*Lerik rayonu Bradi kənd sakini*

◆ Jurnalist araşdırması

# Kürdə suyun səviyyəsi yenə azalacaqmı?

## Su ehtiyatlarından səmərəli istifadə hələ də problem olaraq qalır

**Çayların suyunun formalaşmasında iqlim amilləri mühüm rol oynayır. Elə ona görə coğrafiyaşünaslar bildirirlər ki, çaylar iqlimin məhsuludur. Bunun nəticəsidir ki, son dövrlərdə qlobal iqlim dəyişiklikləri bütün dünyada çayların suyunun azalmasına, quraqlığa səbəb olur.**



Ümumdünya Meteorologiya Təşkilatı da su böhranı ilə bağlı davamlı xəbərdarlıq edir, həyəcan təbili çalır. Ölkəmizin su təchizatında əsas mənbə sayılan Kür çayında da bu ilin ilk aylarında suyun səviyyəsinin kəskin azalması müşahidə edilirdi. Xüsusilə fevralda və martın əvvəlində qlobal ekoloji problem səbəbindən çayın aşağı axınlarında, Salyan və Neftçala rayonlarının ərazisində içməli su, həmçinin kənd təsərrüfatının suvarılması baxımından ciddi problem yaranmışdı. Kürün Xəzərə qovuşduğu hissədə dəniz suyu çayın içərilərinə doğru irəliləmişdi.

### 2030-cu ilə qədər bəzi ərazilərdə səhralaşma prosesi gedə bilər

Ekspertlərin rəyinə görə, əgər bu gün Azərbaycanda lazımi addımlar atılmasa, 2030-cu ilə qədər bəzi ərazilərdə səhralaşma prosesi gedə bilər. Bu məsələ 2020-ci ildə yaradılmış Su Komissiyasında da mütəmadi olaraq müzakirə edilir. Müzakirələrin nəticəsində qərara alınıb ki, mənbələrdən alınan suyun həcmi azaldılmalı, israfçılığa qarşı mübarizə gücləndirilməli və sudan qeyri-qanuni istifadənin qarşısı alınmalıdır.

Martın 14-də hazırlanan Milli Su Strategiyası da ehtiyat tədbirlərinin tərkib hissəsi kimi su ehtiyatlarının mərhələli şəkildə idarə olunmasına xidmət məqsədi daşıyır. Strategiyada sudan səmərəli istifadə üsulları, müasir metodların tətbiqi öz əksini tapıb. Martın 30-da Prezident İlham Əliyevin fərmanı əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılıb. Azalan su mənbələri fonunda su sərfiyyatının artması ilə əlaqədar olaraq xüsusilə Bakıətrafı qəsəbələrdə şirin suyun verilmə qrafikində dəyişiklik edilib. Adətən iyun ayında tətbiq edilməyə başlanılan qrafikə cari ildə fevraldan etibarən start verilib.

### Kür Xəzərə qovuşub

Martın ortalarından sonra Kürdə suyun səviyyəsi artmağa başlayıb. Xüsusən son həftələr Kür çayının səviyyəsində nəzərəçarpacaq dərəcədə qalxma müşahidə olunur. Çay suyu Xəzər dənizinə birləşdiyi ərazidə quraşdırılan suaşıran bəndləri keçərək yenidən dənizə qovuşub. Həmçinin Kürün deltasında yaradılan balıqkeçiricilərdə də kifayət qədər su yığılıb. Mayın əvvəlinə olan məlumata görə, çayda suyun səviyyəsi 391 santimetrdir. Buna səbəb son iki ayda ölkə ərazisində yağıntıların miqdarının artması və dağlarda qarın yazda əriməsidir.

Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun Qurunun hidrologiyası və su ehtiyatları şöbəsinin müdiri, professor Rza Mahmudov bildirir ki, çayların azsulu, çoxsulu və daşqın dövrləri var. "Dağlara qışda yağan qar yazda əridiyi üçün çaylarda çoxsulu dövr yaz aylarında müşahidə edilir. Bu da əvvəllər bir sıra hallarda daşqınlara səbəb olurdu. Lakin indi öz suyunu yazda verməli olan qar ehtiyatının bir hissəsi elə qışda əridiyinə görə belə daşqınlara təsadüf edilmir. Havalar isti keçdiyinə görə qar öz suyunun tamamını yaza çatdıra bilmir və bir qismi daha tez əriyir. Buna görə əvvəllər Kür və digər çaylarda yaz aylarında müşahidə edilən gursulu dövrün davamiyyəti, axın həcmi azalır. Lakin buna baxmayaraq, yaz aylarında müəyyən qədər artımın müşahidə edilməsi də qışda yağan qarın yazda əriməsi ilə əlaqəlidir. Həmçinin yaz aylarında leysan yağışların yağması da çaylarda suyun səviyyəsini artırır", - deyə professor qeyd edib.

İstənilən halda mütəxəssislər ehtiyatı əldən verməməyi, sudan səmərəli istifadənin vacibliyini diqqətə çəkirlər. Son aylarda Kür çayında müəyyən artımın olmasına baxmayaraq, suyun səviyyəsinin azalmasına səbəb olan amillər hələ də aktuallığını saxlayır. Qlobal istiləşmə ilə əlaqədar olaraq yağıntıların miqdarının az olduğu dövrlərdə Kür suyunun yenidən azalması qaçılmazdır.

Ümumilikdə ölkəmizdə çayların su ehtiyatı 28-30 kubkilometrdir. Lakin yağıntıların az olduğu illərdə bu göstərici daha da aşağı düşür. Rza Mahmudov deyir ki, azsulu illərdə hövzəyə düşən qar-su ehtiyatının az olması çay suyunun da azalması ilə nəticələnir: "Yağıntıların az olduğu illərdə Mingəçevir su anbarında qalıq həcm 6.7 kubkilometrə qədər azalır. Bu isə normadan azdır. Statistikaya əsasən, 2011-2021-ci illərdə Kürdə orta illik su sərfiyyatı təxminən 277-280 kubmetr/saniyə olub. Əslində isə bu göstərici 450-500 kubmetr/saniyə olmalıdır. Fərq açıq-aydın ortadadır. Belə olan halda, su təchizatında problemlərlə üzləşmək gözləniləndir".

Ümumdünya Meteorologiya Təşkilatının məlumatına əsasən, təkcə keçən əsrdə suya tələbat 6 dəfə artıb. R.Mahmudovun sözlərinə görə, Azərbaycan su ehtiyatlarının az olduğu ölkələr sırasında olduğundan, tələbatın çoxalması ölkəmizdə daha kəskin hiss edilir: "Su ehtiyatlarımız Cənubi Qafqaz ölkələri, qonşu dövlətlərlə müqayisədə daha azdır. Son illərdə iqlim dəyişmələri okeanlardan tutmuş çaylara, göllərə, hətta yeraltı sulara qədər bütün su obyektlərinə mənfi təsir göstərir. Suya tələbatın artması həm də ölkə əhalisinin artımı ilə bağlıdır. Yəni əhalinin, adekvat olaraq əkin sahələrinin artımı fonunda iqlim dəyişikliyi, yağıntıların az olması səbəbindən su ehtiyatlarımızın azalması xoş mənzərə yaratmır. Bu amillər ölkəmizi su böhranı ilə üz-üzə qoya bilər".

### Çaylarda sululuğun artması arxayınlıq yaratmamalıdır

Araşdırmalara əsasən, 2018-ci ildə dünyada 3,6 milyard nəfərin ən azı bir ay ərzində suya kifayət qədər çıxışı olmayıb. Bu göstəricinin 2050-ci ilə qədər təxminən 5 milyarda çatacağı proqnozlaşdırılır. Bu kimi amillər göstərir ki, çaylarda sululuğun artması arxayınlıq yaratmamalıdır. Mütəxəssislərin fikrincə, su ehtiyatlarının artıb-azalmasından asılı olmayaraq, sudan ehtiyatla istifadə etmək, ekologiya mədəniyyətini qorumaq lazımdır.

R.Mahmudov deyib ki, bu baxımdan ən vacib işlərdən biri də texniki və içməli suları fərqləndirməkdir: "Şirin su ilə bağları sulamaq və ya avtomobil yumaq yolverilməzdir. Su ehtiyatlarının azaldığı dövrdə bu cür məsuliyyətsizliyə yol vermək olmaz. Nəzərə almaq lazımdır ki, bu problemlərlə ciddi mübarizə aparılır, suyadavamlı yaşıllıqlar salınır. Maksimum qabaqlayıcı tədbirlər görməklə yanaşı, su ehtiyatlarının, çayların axınının azalmasına da hazırlıqlı olmalıyıq".

Ta qədimdən xoşbəxtlik və təmizlik simvolu hesab edilən su barədə müxtəlif rəvayətlər və əfsanələr var. Qədim inanclara görə, suyu bol olan xalqlar həmişə daha səfalı yaşayar, bəla onlardan gen gəzər. Odur ki, bizim əsas su mənbəyimiz olan Kür çayında su nə qədər çox olarsa, insanlarımız da o qədər xoşbəxt və təmiz yaşayar. Bu mənada kiminə cəfa, kiminə səfa bəxş edən suya israf etməmək, daha az su ilə daha çox iş görmək bacarığını formalaşdırmaq hər bir insanın mənəvi borcudur.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## "QARADAĞ MAŞINQAYIRMA" ASC-NİN SƏHMDARLARININ NƏZƏRİNƏ

30 iyun 2023-cü il tarixdə saat 11:00-da "Qaradağ Maşınqayırma" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcək.
Yığıncaq cəmiyyətin inzibati binasında keçiriləcək. Yığıncağın gündəliyi aşağıdakı məsələlərdən ibarətdir.
Yığıncağın aşağıdakı gündəliyi təsdiq edilsin:
1. 2022-ci ilin illik hesabat məruzəsi.
2. Qarşıda duran cari məsələlər.

**Bakı şəhəri, Lökbatan qəsəbəsi, Neftçilər, 13.**

***Müdiriyyət***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələri üçün müxtəlif ehtiyat hissələri və avadanlıqların satın alınması məqsədilə ***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 24 may 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2, AZ1003.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.**

***Tender komissiyası***



## "Göradil Quşçuluq" ASC-nin səhmdarlarının nəzərinə!

20 iyun 2023-cü il saat 15:00-da "Göradil Quşçuluq" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

Ünvan: Abşeron rayonu, Göradil kəndi, "Göradil Quşçuluq" ASC-nin inzibati binası.

***Rəhbərlik***


**"BAKI DƏMİR-BETON8" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

***Mənfəət və zərər haqqında hesabat (xərclərin funksiyaları üzrə)***

*31 Dekabr 2022-ci il tarixinə*

(Azərbaycan manatı ilə)

| Bölümün / maddənin №-si | | Qeydlərə istinad | 2022 |
|---|---|---|---|
| | Malların təqdim edilməsindən (İşlərin görülməsindən, xidmətlərin göstərilməsindən) gəlir | | 276 136,33 |
| | Əsas vəsaitin təqdim edilməsindən gəlir | | 902 528,44 |
| | İcarədən gəlir | | 339 008,29 |
| | Digər əməliyyat gəliri (zərəri)-kurs fərqi | | |
| | **Ümumi gəlir** | | **1 517 673,06** |
| | **Ümumi xərclər** | | **1 505 090,86** |
| | Əmək haqqı və ona bərabər tutulan ödəmələr | | 329 378,08 |
| | Sosial sığorta haqları | | 56 593,97 |
| | Xammal və materiallar | | 43 191,09 |
| | Elektrik enerjisi | | 112 932,69 |
| | Qaz xərci | | 9 953,59 |
| | Yanacaq xərcləri | | 3 043,00 |
| | Su və kanalizasiya xərcləri | | 48 447,75 |
| | Rabitə xərcləri | | 2 328,71 |
| | Mühafizə xərcləri | | 0,00 |
| | Bank xidməti üzrə xərclər | | 4 210,71 |
| | Təqdim edilmiş və ləğv edilmiş əsas vəsaitlərin dəyəri | | 857 055,82 |
| | Ödənilmiş sığorta haqları | | 2 255,91 |
| | Digər xərclər | | 34 611,00 |
| | Əmlak vergisi | | 1 088,54 |

| | HESABAT DÖVRÜ ÜÇÜN VERGİNİN HESABLANMASI MƏNFƏƏT VƏ ZƏRƏR | | 2022 |
|---|---|---|---|
| | Vergiyə cəlb olunan mənfəət | | **12 582,20** |
| | Mənfəət üzrə azadolmalar və güzəştlər | | |
| | ZƏRƏR | | |
| | Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | |
| | Mənfəət vergisinin dərəcəsi | | 20% |
| | **MƏNFƏƏT VERGİSİ** | | **2 516,44** |
| | Mənfəət vergisi hesablanan zaman tanınmamış gəlirlər və xərclər | | -10 065,76 |
| | **XALİS MƏNFƏƏT VƏ YA CARİ İLİN ZƏRƏRİ** | | **0,00** |

RƏHBƏR

BAŞ MUHASİB

# Azərbaycanın əksər rayonlarında hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda mayın 19-na gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında gecə saatlarında gözlənilən yağışın səhər tədricən kəsiləcəyi, gün ərzində dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi norma daxilində - 760 millimetr civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda havanın arabir yağıntılı olacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 22-27° isti, dağlarda gecə 0-5°, gündüz 8-13° isti olacağı bildirilir.




Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 25-30° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında havanın gecə və axşam bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 8-13°, bəzi yerlərdə 15-18° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 8-13°, bəzi yerlərdə 15-19° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-14°, gündüz 20-25° isti olacağı ehtimalı var.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz yağıntıda fasilə olacaq. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 19-24° isti, dağlarda gecə 0-5°, gündüz 10-15° isti olacağı gözlənilir.

Şirvan şəhərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Səhər yağıntı tədricən kəsiləcək, gündüz hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 22-27° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 20-24° isti, dağlarda gecə 7-12°, gündüz 16-21° isti olacağı proqnozlaşdırılır.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan ailəsi iş yoldaşları

**GÜLARƏ ƏNVƏR QIZI SULTANOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5792
Sifariş 1226

Qiyməti 40 qəpik